RƏYİNİZ İŞİMİZDİR!

Fevral / 2022

# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ - 3 İL

# HESABAT

## 2019-2021

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

*Xüsusi buraxılış*

# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ - 3 İL

# HESABAT

## 2019-2021

Bakı – 2022



“Biz həyat tərzimizin əxlaq prinsiplərini bərqərar etmək uğrunda mübarizədə ictimai rəyin öyrənilməsinə və nəzərə alınmasına xüsusi əhəmiyyət veririk.

Heydər ƏLİYEV
Ümummilli Lider



“Bu gün əsl müstəqillik dövrüdür. Azərbaycanda xalqın iradəsi hökm sürür. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir”.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

**Tərtib edənlər:**
Tahirə Allahyarova
Aqşin Məmmədov

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Nəşriyyat:
Çapa imzalanıb:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2022

# MÜNDƏRİCAT

**Ön söz**.....6
**Sosial Tədqiqatlar Mərkəzi**.....8
Haqqımızda.....9
Məqsəd və vəzifələr.....9
Struktur.....10
STM rəqəmlərdə.....12
Sorğuların coğrafiyası.....13
İctimai rəy sorğularının təşkili/Sahə işi.....14
Üç illik fəaliyyətin qısa icmalı.....16
**Analitik hesabatlar**.....18
**Arayış, təhlil və tövsiyə sənədləri**.....18
Analitik hesabatların xülasəsi.....20
Arayış, təhlil və tövsiyə sənədlərinin qısa icmalı.....44
**Kitablar**.....49
**Məqalələr**.....52
**Beynəlxalq və respublika səviyyəli tədbirlərdə iştirak**.....54
**Əməkdaşlıq əlaqələri/elmi-tədqiqat və elmi-təşkilati işlər**.....60
**Mediada çıxışlar**.....63
**STM-in dövri nəşrləri**.....67
"İnam indeksi" jurnalı.....67
"Sosial tədqiqatlar" jurnalı.....76
"Azərbaycan barometri" jurnalı.....77
**STM-in internet və sosial şəbəkə platformaları**.....78
STM.az saytı.....79
STM TV.....80
Facebook, İnstragram, Tvitter səhifələri.....82
YouTube kanalı.....83
**Kadr potensialı və pedaqoji fəaliyyət**.....85
**Təlim və seminarların təşkili**.....86
**Tərəfdaşlar**.....88
**Tədbirlər/Görüşlər**.....89
**Planlar/Hədəflər**.....128

# ÖN SÖZ

Azərbaycan milli dövlət quruculuğu tarixində əsas konturları 2018-ci ildə müəyyən edilən və 2019-cu ilin əvvəlindən institusional və sosial-iqtisadi sahədə aparılan, öz miqyası və dərinliyi baxımından görünməmiş islahatlar mərhələsinə qədəm qoyub. Bu mərhələ müasir qlobal çağırışlardan və milli siyasi təşəbbüslərdən irəli gələrək dövlət həyatında yeni keyfiyyət müstəvisinə keçidin, idarəçilik sistemində çağdaş təfəkkürün və dövlətçilik tariximizdə yeni dövrün başlanğıcı kimi mühüm əhəmiyyət kəsb edir.

Ötən bir neçə il ərzində dövlət başçısının siyasi iradəsi ilə həyata keçirilən genişmiqyaslı struktur və kadr islahatları yeni hakimiyyət quruculuğu kimi də xarakterizə edilir. "Yeni kurs" siyasəti əhatə dairəsinə, struktur-institusional mahiyyət daşımasına, ardıcıllığına və qarşıya qoyulan hədəflərə görə yerli və dünya elmi ictimaiyyətinin, regional dairələrin və beynəlxalq medianın daim diqqət mərkəzindədir. Bu dövr həm də onu göstərdi ki, Azərbaycan xalqının, cəmiyyətin fikir və rəyləri hakimiyyət üçün müstəsna əhəmiyyətə malikdir. Prezident İlham Əliyev 2019-cu ilin yanvarın 12-də keçirilən müşavirədə və sonrakı çıxışlarında dövlətin fəaliyyətində ictimai rəyin nəzərə alınmasının yeni idarəçilik fəlsəfəsinin bir nömrəli tələbi, XXI əsrin sürətlə dəyişən kommunikasiya şərtlərinin ən həlledici amillərindən olduğunu xüsusi olaraq vurğulayıb.

2019-cu ildən etibarən ölkə başçısının islahatlar strategiyasında müşahidə edilən yeni tendensiyalardan biri məhz dövlət idarəçiliyinə çağdaş perspektivdən baxış və bu istiqamətdə tamamlayıcı qərarların verilməsidir. Belə qərarlardan biri, heç şübhəsiz, dövlət idarəçiliyində beyin mərkəzlərinin rolunun artırılması, bu istiqamətdə müxtəlif təyinatlı publik hüquqi şəxs statuslu tədqiqat mərkəzlərinin, xüsusilə ictimai rəy institutunun təsis edilməsidir.

Beləliklə, dövlət başçısının başlatdığı islahatlar tendensiyasının fonunda ölkədəki dəyişiklikləri təhlil edən, yeni reallıqların hesabatını aparacaq rəy dövlətini yaradacaq bir qurumun, gələcəkdə həm dövlət idarəetməsində, həm də dövlət-vətəndaş müasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçməsində körpü rolunu oynayacaq beyin mərkəzinin - Sosial Tədqiqatlar Mərkəzinin yaradılması bu zərurətdən doğmuşdu. Başqa sözlə, Prezident İlham Əliyevin 2019-cu il 8 fevral tarixli 525 saylı Fərmanı ilə Sosial Tədqiqatlar Mərkəzinin yaradılması idarəçiliyə tədqiqat əsaslı yanaşmanı özündə ehtiva edən baxışın mesajı oldu. Əslində ayrı-ayrı struktur elementləri olmağına rəğmən, ayrılıqda ictimai rəyin öyrənilməsi, araşdırmaların aparılması 30 il ərzində həyata keçirilib. Ancaq bunun sistemli qaydada məhz bir dövlət təsisatı kimi həyata keçirilməsi yeni proses idi. Bu əsnada Sosial Tədqiqatlar Mərkəzinin yaradılması, təşkilatlandırılması, formalaşması, vahid baxışlarının beynəlxalq təcrübə əsasında meydana gətirilməsi öz-özlüyündə zaman, güclü çalışmalar və digər təşkilati işləri tələb edirdi.

Ölkə Prezidenti 2019-cu il 12 aprel tarixində Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında 624 nömrəli Fərman imzalayaraq, Mərkəzin Nizamnaməsini təsdiq etdi. Mərkəzin fəaliyyətinin təmin edilməsi ilə bağlı Fərmanda digər məsələlərin həlli də müvafiq qurumlara tapşırıldı və ötən dövr ərzində mərkəzin fəaliyyət göstərməsi üçün zəruri maliyyə vəsaitləri, bina və avadanlıqlarla təmin olunması və s. öz həllini tapdı.

Öz sürəti və intensivliyinə görə böyük zaman kəsiyində deyil, az qala hər gün baş verən dəyişiklikləri əhatə edən yeni münasibətləri tədqiq etmək, Azərbaycan dövləti və xalqı arasında meydana çıxan mühüm əlaqələrin mahiyyətini düzgün müəyyənləşdirmək vəzifəsi qarşısında olan, dövlət idarəçiliyi mexanizminin əsas həlqələrindən birinə çevrilmək məqsədi istiqamətində inamla irəliləyən STM "Rəyiniz işimizdir!" devizi altında üç illik fəaliyyəti dövründə Nizamnamədən irəli gələn vəzifələrin icrası istiqamətində kifayət qədər ciddi işlər ortaya qoymağa çalışıb. Ölkə maraqlarını özündə əks etdirən müxtəlif xarakterli münasibətlərin inkişaf

dinamikasını sistemli təhlil edib, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirib, dəyişiklikləri proqnozlaşdırıb, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdırıb, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikri öyrənərək və sosial tədqiqatların aparılmasını təmin edərək, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edib. Bundan başqa, ictimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq və onları idarə etmək vəzifələrini də həyata keçirib.

Mərkəzin faktiki fəaliyyətə başladığı 2019-cu ilin aprel ayının ikinci yarısından etibarən təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatını əhatə edən, ölkə Prezidentinin həyata keçirdiyi islahatların gedişini təhlil edən müxtəlif sosioloji sorğu, analitik təhlil, siyasət, mövqe və arayış sənədləri hazırlayaraq ölkə rəhbərliyinə, aidiyyəti qurumlara və ictimaiyyətə təqdim edib.

Ümumiyyətlə, Mərkəzin elmi-fəaliyyət planında ümumdövlət və ictimai əhəmiyyətli sosial məsələlər üstünlük təşkil edib. O cümlədən, iqtidar və cəmiyyət arasında mövcud olan etimad və dialoqun möhkəmləndirilməsi, dövlət quruculuğu işinə bütün cəmiyyətin fəal cəlb edilməsi, sosial-ictimai münasibətlərin aktual mövzularının tədqiqi yönündə mühüm addımlar atılıb. Bundan başqa, məmur-vətəndaş münasibətlərinin vəziyyəti və onun təkmilləşməsi yolları, vətəndaşlara xidmətin keyfiyyətinin qiymətləndirilməsi, sosial təbəqələşmə və regionlarda sosial proseslər, paytaxt və bölgələrdə gənclərin ictimai maraq, siyasi və digər mənafelər baxımından həssas ideya və baxışlarının tədqiqi, özünüməşğulluğun monitorinqi, əhalinin gəlirləri arasında fərqlər, cəmiyyətdə dialoq mühitinin formalaşdırılması yolları, vətəndaşların informasiyaya əlçatanlığının araşdırılması və xarici təsirlərin öyrənilməsi, sosial gərginlik meyillərinin səbəbləri və xüsusiyyətləri və s. mərkəz əməkdaşlarının mütəmadi olaraq diqqət mərkəzində saxladıqları mövzulardır.

Beləliklə, ötən üç illik müddətdə STM çoxvektorlu istiqamətlərdə data bazalar formalaşdıra bilib. Mərkəz Azərbaycan Respublikasında sosial tədqiqat, təhlil və proqnozlaşdırma işi, habelə ictimai rəyin öyrənilməsi ilə bağlı siyasətin formalaşdırılmasında və həyata keçirilməsində yaxından iştirak edib.

Yeni dövlət quruculuğu sahəsində ölkə Prezidentinin başlatdığı tendensiya dalğasında özünün də yerini və rolunu müəyyənləşdirən Mərkəz açıq və qapalı arayışları, hesabatları və sorğu sənədləri ilə dövlət rəhbərliyinin diqqətini cəlb edə bilib, şəxsən ölkə rəhbəri cənab İlham Əliyev çıxışlarında dəfələrlə Mərkəzin hesabatlarına istinad edib.

**Əziz oxucular!**

Bu hesabatda STM-in üç illik (2019-2021) fəaliyyəti ilə bağlı əsas göstəricilər, bu dövrdə əldə edilmiş nəticələr, 2022-ci və növbəti illər üçün əsas strateji istiqamətlər və hədəflər diqqətinizə təqdim edilir. Ümid edirik ki, bu nəşrdə siz Mərkəzin fəaliyyəti barədə ətraflı məlumat əldə edə biləcəksiniz. Bu nəşr fəaliyyətini şəffaflıq, operativlik, çeviklik və ictimai məmnunluq prinsipləri üzərində quran STM-in bir növ aidiyyəti qurumlar, ictimaiyyət və digər maraqlı tərəflər qarşısında hesabatıdır. Hesab edirik ki, STM-in üç illik fəaliyyətinin müxtəlif istiqamətlərinin əks olunduğu bu nəşr Mərkəzin fəaliyyəti barədə məlumat əldə etmək istəyən digər maraqlı tərəflər üçün əhəmiyyətli informasiya mənbəyi olacaqdır.

**Zahid ORUC**
***Sosial Tədqiqatlar Mərkəzi***
***İdarə Heyətinin sədri***

*“Ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir”.*

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


- Haqqımızda
- Məqsəd və vəzifələr
- Struktur
- STM rəqəmlərdə
- Sorğuların coğrafiyası
- İctimai rəy sorğularının təşkili/Sahə işi
- Üç illik fəaliyyətin qısa icmalı

# HAQQIMIZDA, MƏQSƏD VƏ VƏZİFƏLƏR

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılıb. STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

Mərkəz öz fəaliyyətində müstəqildir və Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, öz Nizamnaməsini, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, xarici qurumlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2019-cu il tarixli fərmanı ilə Mərkəzə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət İdarə Heyəti həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2019-cu il tarixli Sərəncamı ilə Zahid Məhərrəm oğlu Oruc Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri təyin edilib. Mərkəzin Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli Fərmanı ilə təsdiq edilib.

Mərkəzin fəaliyyətinin məqsədi sosial tədqiqatların aparılmasını təmin etməkdir.

**Mərkəzin fəaliyyət istiqamətləri:**

- Azərbaycan Respublikasında sosial tədqiqat, təhlil və proqnozlaşdırma işi ilə, habelə ictimai rəyin öyrənilməsi ilə bağlı siyasətin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;
- Dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını təhlil etmək, proaktiv yanaşma əsasında müasir informasiya texnologiyaları və innovativ üsullar vasitəsilə rəy sorğuları keçirmək, ictimai fikri öyrənmək, təhlil etmək və təkliflər vermək, elmi araşdırmalar aparmaq və bu sahədə dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;
- Sosialyönümlü innovativ həll üsulları, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə, habelə internet informasiya resurslarında, sosial şəbəkələrdə aparılan çoxşaxəli fəaliyyətlə cəmiyyət-dövlət təmaslarını gücləndirmək və inkişaf etdirmək;
- İdarəetmə prosesinin təkmilləşdirilməsi, aparılan islahatların səmərəliliyinin artırılması məqsədilə, habelə verilən qərarların, görülən tədbirlərin mümkün təsirlərinə dair sosial tədqiqatlar aparmaq;
- İctimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq və onları idarə etmək.

# STRUKTUR

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ






**ZAHİD ORUC**
İdarə Heyətinin sədri



**ELŞAD MİRBƏŞİROĞLU**
İdarə Heyətinin üzvü,
sədr müavini



**TAHİRƏ ALLAHYAROVA**
İdarə Heyətinin üzvü,
Departament rəhbəri



**SAHİB MƏMMƏDOV**
İcraçı direktor



**AYŞƏM BALAYEVA**
Departament rəhbəri



**SEYMUR ƏLİYEV**
Departament rəhbəri



**ƏZİZ ƏLİBƏYLİ**
Mətbuat xidmətinin rəhbəri


SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ
"Yeni imtahan modeli:
İSLAHATLAR, NƏTİCƏLƏR VƏ GÖZLƏNTİLƏR"



# STM RƏQƏMLƏRDƏ
## 2019-2021

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

**2019**

Analitik hesabatlar — 44

Arayış, təhlil, siyasət və mövqe sənədləri — 358

Sosioloji tədqiqat-sorğu layihələri — 56

Respondentlərin ümumi sayı — 60.791

Kitablar — 6

Elmi məqalələr — 146

Analitik şərhlər, ekspert dəyərləndirmələri və elmi-publisistik yazılar — 500+

Elmi konfrans, seminar və təlimlərdə iştirak — 112

Tərəfdaşlar / Əməkdaşlıq memorandumu — 11

Tədbirlər / Görüşlər — 23

Mediada çıxışlar / müsahibələr — 4.000+

Dövlət və özəl təşkilatlardan (beynəlxalq və yerli) sifariş əsaslı işlər — 9

STM-in çap edilmiş nəşrləri — 27

STM.az saytında yerləşdirilmiş materiallar — 750+

STM TV-də yerləşdirilmiş videolar — 341

**2022**

| | |
|---|---|
| 146 Elmi məqalə | 58 Beynəlxalq jurnallarda dərc olunan məqalə sayı |
| 112 Elmi konfrans, seminar və təlimlərdə iştirak | 24 Beynəlxalq konfrans, seminar və təlimlərdə iştirak |
| 27 STM-in nəşrləri | 6 İnam indeksi; 1 Sosial tədqiqatlar; 20 Azərbaycan barometri |

800+ Facebook paylaşımı

815 Instagram paylaşımı

1000+ Twitter paylaşımı

342 Youtube paylaşımı

# SORĞULARIN COĞRAFİYASI
## 2019-2021

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ



| Region | Pay |
|---|---|
| Şəki-Zaqatala | 6.1% |
| Gəncə-Daşkəsən | 6.7% |
| Qazax-Tovuz | 6.1% |
| Bakı | 29.3% |
| Abşeron-Xızı | 7.8% |
| Quba-Xaçmaz | 5.0% |
| Naxçıvan | |
| Şərqi Zəngəzur | |
| Qarabağ | 12.5% |
| Mərkəzi Aran | 6.4% |
| Lənkəran-Astara | 8.3% |
| Şirvan-Salyan | 4.6% |
| Mil-Muğan | 4.3% |
| Dağlıq Şirvan | 2.9% |

**56** | Sosioloji tədqiqat- sorğu layihələri → **50** Yerli sorğu **6** Beynəlxalq sorğu

**60.791** | Respondent → **262** Keyfiyyət əsaslı tədqiqat layihələrində respondent sayı

QEYD: Sorğular Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş rayonlarda keçirilməyib.

# İctimai rəy sorğularının təşkili/Sahə işi

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən tədqiqatların təşkilində peşəkar yanaşma tətbiq olunur. Tədqiqatlar, adətən, ümummilli səviyyədə keçirilir. Bu zaman bütün iqtisadi-coğrafi rayonlara daxil olan ərazilər əhatə olunur.

3 il ərzində keçirilən tədqiqatlarda ölkənin müxtəlif şəhərləri, rayonları, qəsəbə və kəndlərindən olan respondentlər iştirak edib.

Tədqiqatın məqsədi və hədəf qrupundan asılı olaraq respondent seçimində müxtəlif yanaşmalar tətbiq olunur. Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilir. Sorğulara respondent seçimində təsadüfi seçmə metodundan istifadə edilir ki, bu da hədəf qrupuna aid hər bir vətəndaşa bərabər səviyyədə iştirak imkanı verir. Müsahibələr və fokus qrupların təşkilində isə qeyri-təsadüfi seçmə metodu ilə müəyyən meyarlara cavab verən respondentlər seçilir.

STM tərəfindən aparılan sorğular üzbəüz, telefon və onlayn formada olmaqla müxtəlif üsullarla keçirilir. Genişmiqyaslı tədqiqatlardan öncə anket blanklarının yoxlanılması məqsədilə sınaq tədqiqatları keçirilir. Sınaq sorğularından alınan nəticələr əsasında anket blanklarında müvafiq dəyişikliklər edilir.

Sorğuların keçirilməsinə cəlb olunan intervüyerlər xüsusi şərtlər əsasında seçilir. Keçirilən tədqiqatın mövzusuna uyğun sahələrdə təcrübəsi olan intervüyerlər həmin sahə işinin icrasına cəlb olunur. İntervüyerlər üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təlimat qaydaları hazırlanaraq təqdim olunur.

İntervüyerlər sahə işinə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimlərdə iştirak edirlər. Təlimdə keçirilən sorğunun məqsədi, seçmə prinsipləri, respondentlərə ünvanlanan suallar haqqında geniş izahatlar verilir. Təlimlər, adətən, interaktiv şəkildə təşkil olunur. Belə ki, təlim prosesində intervüyerlər tərəfindən test sorğusu keçirilərək, onların fəaliyyəti qiymətləndirilir.

Sahə işi davam etdiyi müddətdə intervüyerlərin fəaliyyəti davamlı olaraq monitorinq edilir. Keçirilən sorğuların keyfiyyətinə nəzarət etmək üçün supervayzerlər sahəyə səfərlər təşkil edir, eləcə də proqram üzərindən də məsafəli nəzarət aparılır.

Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunur. Sorğularda müasir sorğu proqramı olan Survey To Go tətbiqinin yükləndiyi planşetlərdən istifadə edilir ki, bunun da bir sıra üstünlükləri (məsafədən nəzarət, toplanılan məlumatların bazaya dərhal ötürülməsi və s.) mövcuddur.

Sorğuların keçirilməsi prosesində etik qaydalara ciddi əməl olunur. Respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları, sorğuda iştirakın respondentlərə faydaları haqqında tam məlumat verilir.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunur, anonimlik təmin edilir.











# Üç illik fəaliyyətin qısa icmalı

❍ **STM-in İdarə Heyətinin sədri və üzvləri** Nizamnamədən irəli gələn səlahiyyətlərinin və vəzifələrinin (4.1, 4.5, 4.8, 4.9) icrası çərçivəsində Mərkəzin fəaliyyətini təşkil etmək, strateji məqsədlərinin və fəaliyyət planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək istiqamətində fəaliyyət həyata keçiriblər. Təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatını əhatə edən, ölkə Prezidentinin həyata keçirdiyi islahatların gedişini təhlil edən müxtəlif sosioloji sorğu, analitik təhlil, siyasət, mövqe və arayış sənədlərinin ölkə rəhbərliyinə, aidiyyəti qurumlara və ictimaiyyətə təqdim olunmasını təmin ediblər. Gündəmin aktual mövzuları, Mərkəzin əldə etdiyi nəticələrlə bağlı mütəmadi olaraq konfrans, brifinq, müsahibə və müxtəlif formatlarda mətbuatda çıxış və məruzələr edib, elmi- analitik təhlil xarakterli məqalələrlə çıxış edib, mövqe bildiriblər. Mərkəz öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edib.

❍ STM-in cari idarəetmə fəaliyyətinə aid olan işlərlə yanaşı, **icraçı direktor** tərəfindən Mərkəzin Nizamnamə fəaliyyətinə uyğun olaraq tədqiqat işlərinin aparılması, o cümlədən hesabatların, arayış, təhlil, təklif və tövsiyə sənədlərinin hazırlanması işləri də həyata keçirilib.

❍ **Daxili siyasətin təhlilİ departamentinin** əməkdaşları tərəfindən STM-in Nizamnaməsindən irəli gələn vəzifələr və tədqiqat planı çərçivəsində, ölkədaxili sosial-siyasi gündəmin aktual məsələləri ilə bağlı təhlillərin aparılması nəticəsində, açıq və qapalı hesabat və arayışların, təhlil və tövsiyə sənədlərinin hazırlanması yönündə fəaliyyət həyata keçirilib. Departament əməkdaşlarının Mərkəz rəhbərliyinə təqdim etdiyi, tədqiqat və sorğu əsaslı araşdırmalar, ölkə daxilində və cəmiyyət həyatında gedən ictimai-siyasi proseslərin çevik və proqnostik təhlili, dinamika və perspektivləri ilə bağlı tövsiyə və təklifləri əks etdirib. Departamentin 2019-2021-ci illərdəki fəaliyyəti cəmi 1580-dən çox analitik məhsulda (o cümlədən 1 kitab, 1 elmi jurnal, 15 analitik hesabat, 160-dan çox açıq və qapalı arayış, 174 məqalə və ekspert dəyərləndirmələri, 1180 mediada müsahibə, 50-dən çox respublika və beynəlxalq elmi konfranslarda məruzə və çıxışlar, təlim və seminarlarda iştirak formasında) əksini tapıb.

❍ **Sosial-iqtisadi təhlil departamentinin** əməkdaşları ötən üç il (2019-2021-ci illər) ərzində 315-dən çox analitik məhsul (o cümlədən 1 kitab tərcüməsi, 1 elektron sorğu platforması, 1 mobil tətbiq, 1 seçki monitorinqi, 15 ümumölkə, 4 blitz (qısa) soğusu əsasında analitik hesabat, 5 ümumölkə sorğusu əsaslı tədqiqat təklifi, 60-dan çox açıq və qapalı arayış, 3 siyasət təklifi, 1 qanun layihəsinə təklif, 47 elmi məqalə, 154 media açıqlaması, 21-dən çox respublika və beynəlxalq elmi konfrans, təlim və seminarlarda iştirak formasında) təqdim ediblər. Hazırlanmış analitik sənədlər olduqca strateji mövzulara həsr olunmaqla siyasi təqvimlə bilavasitə uzlaşmışdır

❍ **İctimai rəyin öyrənilməsi departamentinin** əməkdaşları tərəfindən 3 il ərzində (2019-2021-ci illər) 3 kitab, beynəlxalq jurnallarda (41 məqalə) və yerli mətbuatda ümumilikdə 113 məqalə, 57 açıq və qapalı arayış, 3 analitik hesabat, 4 tərcümə (1 jurnal, 1 anket, 2 hesabat), 1 kitab redaktəsi, müxtəlif istiqamətlərdə 6-sı beynəlxalq, 50-i yerli olmaqla ümumilikdə 56 tədqiqat layihəsi həyata keçirilib. Bu sosioloji tədqiqat layihələrində ümumilikdə 60.791 respondent, keyfiyyət əsaslı tədqiqat layihələrində 262 respondent əhatə olunub. 3 il ərzində müxtəlif istiqamətlərdə 56 tədqiqat lahiyəsindən 40-ı ümumölkə sorğusu, 13-ü müxtəlif mövzular üzrə ayrı-ayrı rayonları əhatə edən blitz (qısa) soğru, 2-si keyfiyyət əsaslı tədqiqat layihəsidir. Bundan əlavə, sənədlərin təhlili əsasında 1 spesifik tədqiqat layihəsi də təqdim edilib. Həmçinin departament əməkdaşları müxtəlif media vasitələrinə 79 açıqlama verib, 9 beynəlxalq təlimdə, 10-dan çox yerli təlim, tədbir, konfrans və vebinarlarda iştirak ediblər.

❍ **Mətbuat xidmətinin** əməkdaşları STM-in həyata keçirdiyi sorğuların, tədbirlərin və nəşrlərin mediada işıqlandırılması, so-

sial mediada geniş təbliğ olunması, STM-in saytının və sosial media hesablarının idarə olunması, mətbuat icmallarının hazırlanması və müxtəlif tədbirlərin keçirilməsi yönündə fəaliyyət həyata keçiriblər. Mətbuat xidmətinin əməkdaşları tərəfindən kommunikasiya və daxili siyasi vəziyyətlə bağlı 50-yə yaxın proqnoz xarakterli açıq və qapalı arayış və təhlillər təqdim edilib, 100-ə yaxın məqalə, 20-yə yaxın yerli konfrans və vebinarda məruzə və çıxışlar həyata keçirilib, Mətbuat xidməti əməkdaşlarının mediada 1000-dən çox müsahibə və açıqlamaları yer alıb.

Mətbuat xidməti Mərkəzin rəsmi Facebook səhifəsində 800-dən çox, İnstaqram səhifəsində 815, Tvitterdə isə 1000-dən çox paylaşım edib. Onlayn media platforması olan STM TV-də 341 video yerləşdirilib. Youtube kanalında yalnız Mərkəzin fəaliyyəti və keçirilən sorğular və hesabatlar haqqında məlumatlar deyil, eyni zamanda Mətbuat xidməti əməkdaşlarının hazırladıqları küçə sorğuları və ayrı-ayrı video-kontentlər (cəmi 342) də yer alıb. “Mediafon” verilişində müxtəlif hadisələrlə bağlı STM əməkdaşları, yerli və beynəlxalq ekspertlərlə müsahibələr və təhlillər yer alıb. STM.az saytında indiyədək 750-dən çox material yerləşdirilib.

Müxtəlif ideoloji mövzularda Mətbuat xidməti tərəfindən dinləmələr, Vətən müharibəsi qaziləri ilə görüşlər keçirilb. Bu dinləmə və görüşlərin nəticəsində materiallar hazırlanıb, müvafiq arayış və təkliflərdə sadalanan məsələlər öz əksini tapıb. Azərbaycan xalqı və dövləti üçün özəl günlərdə Mətbuat xidməti tərəfindən müxtəlif divar postları, kepslər və video materiallar, yazılar hazırlanaraq həm ölkə mediasında, həm də STM-in saytı və sosial media hesablarında tirajlanıb.

*“Bu yaxınlarda aparılan sorğuya əsasən demək olar ki, əhalinin mütləq əksəriyyəti Azərbaycan rəhbərliyini, bizim apardığımız siyasəti birmənalı şəkildə dəstəkləyir. Əlbəttə ki, bu, dəstək bizə güc verir, iradəmizi artırır və biz islahatlara daha da böyük həvəslə, daha da böyük imkanlarla meyil göstəririk, bu islahatları aparırıq”.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Analitik hesabatlar Arayış, təhlil və tövsiyə sənədləri

STM-in beyin mərkəzi kimi əsas fəaliyyət istiqamətlərindən biri analitik hesabatların, tövsiyə və mövqe sənədlərinin, arayışların hazırlanmasıdır. Hesabatlar açıq və qapalı olmaqla, elmi-tədqiqat və ictimai rəy sorğusu nəticəsində hazırlanan sosioloji tədqiqatların nəticələri formasında hazırlanıb. Son illərin mühüm xüsusiyyəti qarşıya qoyulmuş elmi-tədqiqat planları ilə bağlı fors-major vəziyyətinin yaranması və müvafiq olaraq təxirəsalınmaz aktual gündəmlə bağlı proseslərin çevik təhlilinə yaranan zərurətlə bağlı olub. Sözügedən hadisələrə qlobal koronovirus (COVID-19) pandemiyası və Zəfər tarixinin yazıldığı Vətən müharibəsi kimi regional və qlobal əks-səda verən proseslər nümunə ola bilər.

STM-in müvafiq departamentlərinin əməkdaşları da öz elmi-tədqiqat fəaliyyətini bu iki - görünən və görünməyən müharibə, onun cəmiyyətimizdə gedən proseslərə, dövlətimizin daxili siyasətinə təsirinə, nəticələrinə və perspektivlərinə dair mövzuların təhlili üzərində qurub. Bəhs edilən tədqiqat layihələri ölkə gündəminin müxtəlif sosial-iqtisadi və siyasi aspektlərini əhatə etməklə olduqca aktual mövzuları əhatə edir.

**2019-cu il üzrə:**

❖ “Azərbaycanda əhalinin sosial rifahının qiymətləndirilməsi və gözləntiləri” (iyun/2019)

❖ “Orta məktəb dərsliklərinin vəziyyəti ictimai rəydə” (iyul/2019)

❖ “Ölkə başçısının maaş və minimum aylıq əmək haqqının artırılması haqqındakı sərəncamlarına ictimai münasibət” (iyul/2019)

❖ SSRİ-də 1950-1960-1970-ci illərdə dini komitələrin fəaliyyəti, Azərbaycan SSR-də dindarlığın vəziyyətinə dair tədqiqat (iyun-iyul/2019)

❖ “Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər” (avqust/2019)

❖ “Azərbaycanda sosial şəbəkələr və cəmiyyət” (sentyabr/2019)

❖ “Prezidentin sosial və kadr islahatları” ictimai rəydə (sentyabr/2019)

❖ “Azərbaycanın media barometri” (oktyabr/2019-cu il)

❖ “Bələdiyyə 20/20: yerliözünüidarəetmə ictimai rəydə” (dekabr/2019)

**2020-ci il üzrə:**

❖ “Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri” (fevral/2020)

❖ “Azərbaycanda islam” (mart/2020)

❖ “Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə” (aprel/2020)

❖ “Azərbaycanda yaşlılar: qayğı və rifah” (aprel/2020)

❖ Aİ, UNFPA, UN Women təşkilatı ilə əməkdaşlıq çərçivəsində “Azərbaycanda COVID-19 pandemiyasının qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirməsi” (aprel-may/2020)

❖ “Qorxu indeksi” (may/ 2020)

❖ “Azərbaycanda əhalinin cinayət əməlindən zərər çəkməsi və aidiyyəti qurumlara müraciəti. Viktimoloji tədqiqat-İctimai rəy sorğusu” (iyun/2020)

❖ “Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə” (iyul/2020)

❖ “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Vətən müharibəsindən əvvəl və sonra” (avqust-sentyabr/2020-ci il)

❖ “Sentyabr müharibəsi ictimai rəydə” (sentyabr/2020)

❖ “Milli Müstəqillik Günü” (oktyabr/2020-ci il)

❖ “Azərbaycan Respublikasının Dövlət Bayrağına münasibət ictimai rəydə” (noyabr/2020)

❖ “Vətən müharibəsinin yekunlarına ictimai münasibət” (dekabr/2020-ci il)

❖ “Vətən müharibəsi dövründə Ali Baş Komandanın fəaliyyəti ictimai rəydə” (dekabr/2020)

❖ “2020-ci ilin qiymətləndirilməsi və növbəti ildən gözləntilər” (dekabr/2020)

**2021-ci il üzrə:**

❖ “COVID-19 xəstəliyi əleyhinə vaksinasiyaya ictimai münasibət” (yanvar/2021-ci il)

❖ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə “Uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin məlumatları əsasında analitik hesabat” (yanvar-fevral/ 2021)

❖ “Azərbaycanda uşaqların ailə-cəmiy-

yət münasibətlərində yeri və rolu" (aprel-may/2021)

❖ "Azərbaycanda mövcud ailə münasibətləri: Sosial-psixoloji təhlil" (aprel-may/2021)

❖ "Əhalinin vaksinasiyaya münasibəti, İcbari Tibbi Sığorta" (aprel-may/2021)

❖ "Müasir dövlət ailə siyasəti: problemə familistik araşdırmalar kontekstindən baxış" (may/2021)

❖ "Hərbi Qənimətlər Parkı" (may/2021)

❖ "Siyasi gündəm ictimai rəydə" (iyun/2021)

❖ "Qiymət artımı və milli valyuta ictimai rəydə" (iyun-iyul/2021)

❖ Şənlik mərasimlərinin keçirilməsinə dair icazə" (iyul/2021)

❖ "Vaksinasiya və COVID-19 pasportuna münasibət" (iyul/2021)

❖"İlin ilk 6 ayının dəyərləndirilməsi" (iyul/2021)

❖ "Azərbaycan kredit bazarı vətəndaş rəyində" (avqust - sentyabr/2021)

❖ "Əhalinin kitab oxuma davranışı" (sentyabr/2021)

❖ "Bakı Nəqliyyat Agentliyinin fəaliyyəti ictimai rəydə" (sentyabr-oktyabr/2021)

❖ "Vətən müharibəsinin bir ili: Postmüharibə dövrünə baxış və gözləntilər" (oktyabr-noyabr/2021)

❖ RİİB ilə əməkdaşlıq çərçivəsində "Ağdam rayonunda məcburi köçkünlər üçün icma mərkəzinin yaradılması" layihəsi (oktyabr - noyabr 2021)

❖ "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" (oktyabr/2021)

❖ "Yerli icra hakimiyyəti başçıları: beynəlxalq və milli təcrübədə" (noyabr/2021)

❖ Qlobal "araşdırmaçı jurnalist və insan hüquqları" şəbəkəsi: Azərbaycana qarşı fəaliyyətində erməni faktoru. "Pandora sənədləri" üzərindən təhlil" (dekabr/2021)

❖ "İşğaldan azad olunmuş ərazilərə könüllü qayıdış və yenidən məskunlaşma: məcburi köçkünlərlə niyyət sorğusu" (dekabr/2021) və s.

# ANALİTİK HESABATLARIN XÜLASƏSİ

*Sosial Tədqiqatlar Mərkəzinin müvafiq departamentlərinin əməkdaşları tərəfindən sosioloji rəy sorğuları və elmi-analitik təhlillər əsasında hazırlanmış bəzi hesabatların xülasəsini təqdim edirik.*

## "Prezidentin sosial və kadr islahatları ictimai rəydə"

2019-cu ilin 18 və 20 iyun tarixlərində imzalanan sərəncamları hədəf götürərək keçirilən ictimai rəy sorğusu əsasında hazırlanan analitik hesabat dövlət başçısı tərəfindən həyata keçirilən siyasətə, aparılan islahatlara, imzalanan sərəncamlara əhalinin münasibətinin və bunun cəmiyyətin əhval-ruhiyyəsinə təsirinin öyrənilməsi ilə aparılan işin effektivliyinin daha da möhkəmləndirilməsinə töhfə xarakteri daşıyır. Analitik hesabat dövlət başçısının iyunda imzaladığı sərəncamlar haqqında əhalinin məlumatlılıq səviyyəsini və münasibətini öyrənməklə, sözügedən sərəncamlar haqqında əhalinin əsas məlumat mənbələrini və əhalinin Prezident tərəfindən həyata keçirilən sosial islahatları necə qiymətləndirməsini və məmnunluq səviyyəsini müəyyən etməklə, sərəncamlar əsasında artırılan əməkhaqqı və pensiyanın nəticələrinə dair gözləntiləri aşkara çıxarır, sərəncamlar əsasında baş verən kadr dəyişiklikləri haqqında əhali arasında məlumatlılıq səviyyəsini və buna münasibəti, baş verən kadr islahatları ilə bağlı gözləntiləri, eləcə də əhalinin dövlətə və hakimiyyət strukturlarına münasibətini, inam və etiba-

rını, vətəndaşların nəzərində onların həyata keçirilən islahatlara təsirini öyrənir.

Respondentlərin seçimi prosesində çoxpilləli klaster seçmə metodundan istifadə edilib. 101 klaster üzrə şəhər, rayon mərkəzi və kəndlərdən ümumilikdə 1212 nəfər seçilib. Sistematik təsadüfi seçmə metodu ilə hər üç evdən biri seçilib. Statistik xəta əmsalı 2,8%-dir.

Tədqiqat Bakı-Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın) 25 şəhər, 76 rayon və kənddə aparılıb. Sorğu anketi 26 sualdan (21 spesifik və 5 sosial-demoqrafik sual) ibarət olub. Suallar Prezident tərəfindən imzalanan müvafiq sərəncamlara münasibəti öyrənmək istiqamətində hazırlanıb.

Analitik hesabatın təqdimatı ilə əlaqədar 24 sentyabr 2019-cu il tarixində “Prezidentin sosial və kadr islahatları ictimai rəydə” mövzusunda konfrans keçirilib.

Hesabat İctimai rəyin öyrənilməsi və Sosial-iqtisadi təhlil departamentlərinin əməkdaşları tərəfindən hazırlanıb.




## “Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil”




Sosioloji tədqiqatın nəticələri əsasında hazırlanmış analitik hesabatda ailənin sosioloji tədqiqi aspektində müasir yanaşmalar tətbiq olunmaqla Azərbaycan cəmiyyətində ailə institutu və ailə dəyərlərinin, ümumilikdə ailə sahəsində ictimai rəyin reallıqla bağlı təsəvvürlərinin, gözləntilərinin, ailənin inkişaf meyillərinin mövcud vəziyyəti və perspektivlərinin öyrənilməsinin nəticələri əksini tapıb.

Tədqiqatda ailənin Azərbaycan dövlətçiliyi və sosial sistemində yeri və statusu, ailədaxili münasibətlərin transformasiya və dinamikası, tendensiyaları və perspektivləri, cəmiyyətimizdə baş verən proseslərlə qarşılıqlı əlaqəsinə ictimai rəyin münasibəti araşdırılıb. Nəsillərarası dəyərlər sistemində baş verən proseslərə müxtəlif baxışlar dəyərləndirilib. Ölkəmizdə ailələrin üzləşdiyi problemlər, onun səbəbləri, aradan qaldırılması yolları ətrafında respondentlərin cavablarının statistik-kəmiyyət, eləcə də keyfiyyət əsaslı təhlili aparılmaqla nəticələr ümumiləşdirilib. Hazırda ailədaxili münasibətlərin çoxşaxəli

- sosial-iqtisadi, sosial-məişət, sosial-psixoloji, mədəni-mənəvi və s. kompleks amillərin təsirinə məruz qalması, mövcud vəziyyətdə müasir ailənin dayanıqlılığının möhkəmləndirilməsi yönündə dövlətin ailə siyasətinin cari və perspektiv vəzifələri ilə bağlı tədqiqatın qənaətləri, təklif və tövsiyələri təqdim edilib.

Tədqiqatın sorğu hissəsi Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Qarabağ, Quba-Xaçmaz, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə edib, 2400 respondentin iştirakı ilə aparılıb və 27 ekspertin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş regionlar sorğuda əhatə edilməyib. Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin ehtimal ölçüyə mütənasib çoxpilləli klaster seçməsindən istifadə edilib ki, bu da hər bir respondentə bərabər səviyyədə iştirak imkanı verib. İlk mərhələdə sorğuda əhatə ediləcək 40 rayon, növbəti mərhələdə həmin rayonlardan 200 yaşayış məntəqəsi seçilib və hər məntəqədən 12 respondentlə sorğu keçirilib. Sorğuda əhatə edilmiş respondent sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.0% təşkil edib.

Tədqiqatın aparılmasında kəmiyyət metodologiyası çərçivəsində ailələrlə anket sorğusu, keyfiyyət metodologiyası çərçivəsində isə hədəf qrupuna daxil olan müxtəlif sahələrdən olan mütəxəssislərlə dərinləşdirilmiş müsahibə-məlumat toplama metodundan istifadə edilib.

Sorğu anketinin sualları yerli vəziyyət nəzərə alınmaqla yanaşı, beynəlxalq təcrübəyə istinadən hazırlanıb. Sorğu anketi 92 (83 spesifik və 9 sosial-demoqrafik) sualdan ibarət olub. Suallar aşağıdakı istiqamətlər üzrə hazırlanıb: 1) Ailələrin problemlərinin mənşəyinin və mahiyyətinin müəyyən edilməsi; 2) Ailədə stress mənbələrinin müəyyən edilməsi; 3) Ailənin iqtisadi vəziyyəti və ailə büdcəsinin idarəedilməsi; 4) Ailə dəyərlərinə baxış, kollektiv sosial fəaliyyətlər, məişət işlərinin bölgüsü, cəmiyyətdə gender rollarına baxışın müəyyən edilməsi; 5) Ailə planlaşdırması (qoruyucu vasitələrdən istifadə, aborta baxış və respondentin öz təcrübəsi), dünyaya gələcək uşağın cinsə görə seçilməsi, partnyorlar arasında cinsi münasibətin keyfiyyəti kimi məsələlərin öyrənilməsi; 6) Ailədə uşağın tərbiyə üsulları, övladın böyüdülməsində valideynlərin iştirakı, qarşıya çıxan problemlər, övladın maddi və mənəvi tələbatlarının ödənilməsi kimi məsələlərin araşdırılması; 7) Ailələrin sosial-psixoloji dəstək və xidmətlərə münasibəti, onlardan istifadə və məmnuniyyət, qurumlara müraciət etmə/etməmənin səbəbləri; bu istiqamətdə fəaliyyət göstərən qurumlar haqqında məlumatlılıq səviyyəsinin öyrənilməsi.

Sorgu nəticələrinin kəmiyyət və keyfiyyət aspektlərinin ümumiləşdirilməsi problemin qoyuluşuna həm respondent, həm də mütəxəssis münasibətlərinin müqayisəli təhlili əsasında daha dolğun qənaət və tövsiyələrə gəlməyə imkan yaradıb. Ekspert rəylərinin əldə edilməsi üçün 27 ekspert-respondentlə (vəkil və hüquqşünas, qeyri-hökumət təşkilatlarının rəhbərləri, sosioloq və psixoloqlar, aidiyyəti dövlət qurumlarının nümayəndələri) dərinləşdirilmiş müsahibələr aparılıb. Müxtəlif sahələrdə çalışan və ixtisaslaşan ekspertlər qrupu ilə dərinləşdirilmiş müsahibələrin aparılması ailə məsələlərinin çoxsaylı cəhətlərinə və problemlərinə müxtəlif baxış bucaqlarının öyrənilməsinə, səlahiyyətli şəxslərdən götürülmüş təfərrüatlı məlumatlar hesabatın nəticələrinin zənginləşməsinə və tövsiyələrin əsaslandırılmasına mühüm töhfə verib.

Keçirilmiş sorğunun nəticələri əsasında hazırlanmış analitik hesabatın təqdimatı ilə əlaqədar 22 dekabr 2021-ci il tarixində “Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil” mövzusunda konfrans keçirilib.

Analitik sənəd Daxili siyasətin təhlili departamentinin rəhbəri Tahirə Allahyarova tərəfindən hazırlanıb.

# "Qlobal araşdırmaçı jurnalist və insan hüquqları şəbəkəsi: Azərbaycana qarşı fəaliyyətində erməni faktoru"

Analitik hesabatda informasiya texnoloji inqilabın ən son imkanlarından istifadə etməklə, saxta xəbərlər və dezinformasiyanın tirajlanması, sosial şəbəkələr üzərindən ictimai rəyin manipulyasiyası, informasiya hücumu, transmilli araşdırmaçı jurnalistika və media, texnoloji nəhənglərin dövlətin milli və informasiya suverenliyinə təhdidlərindən bəhs edilib. Dezinformasiya texnologiyalarının görünməmiş inkişafı şəraitində ictimai rəyin maariflənməsi və kommunikasiya proseslərinin təkmilləşdirilməsi diqqət mərkəzinə gətirilib. Hesabatda həmçinin qlobal jurnalist şəbəkəsinin Azərbaycanı hədəfə alan fəaliyyəti və təhdidləri, "Pandora sənədləri" üzərindən bu şəbəkədə Azərbaycana qarşı səfərbər olan erməni faktoru, "araşdırmaçıların", qlobal etiraz, aktivizm və kiberinqilab şəbəkəsinin meqa-sponsorlarının erməni köklərinə diqqət çəkilib.

Analitik hesabatda "Araşdırmaçı jurnalistika: yaradılması və qlobal şəbəkəyə çevrilməsinin məqsədləri, aktorları, hədəfləri" adlanan fəsildə ABŞ-ın son 30 ildə reallaşdırdığı informasiya geosiyasətinin radikal yenilənməsinə diqqət cəlb edilib. "WikiLeaks" layihəsinin səbəb olduğu bu geosiyasətdə Culian Assancdan Edvard Snoudenə qədər transformasiya edən maliyyə sirlərinin kiberkəşfiyyatla anonim və qanunsuz sızdırma və tirajlama mexanizminin necə yaradılması izlənilib. Həmin vaxta qədər ABŞ-da ölkədaxili prosesləri təhlil edən araşdırmaçı jurnalistikanın Amerika xaricinə istiqamətləndirilməsi və qlobal şəbəkəsinin yaradılması bu mexanizmin tətbiqinə hesablanmışdı.

Analitik sənəddə BMT-nin, eləcə də beynəlxalq insan hüquqları təşkilatlarının illik hesabatlarında əsas kimi götürülən qlobal "İnsan Hüquqları Fondu"nun (ABŞ; H.Kasparov) rəyinin qərəzli olması, sonuncunun bu istiqamətdə yeni mərhələ kimi olduqca geniş fəaliyyətinin ölkəmizdə naməlum olması və Azərbaycan üçün təhdidləri əks etdirilib. Vətən müharibəsi gedişində "Hadrut edamı"




adı ilə "Azərbaycanın hərbi cinayətləri" kimi quraşdırılan və tirajlanan saxta videokadrları hazırlayan "Bellingcat" özəl kəşfiyyat agentliyinin H.Kasparovun "İnsan Hüquqları Fondu" tərəfindən maliyyələşdirilməsi faktlarla təqdim edilib.

Tədqiqatda ilk dəfə istər araşdırmaçı jurnalistika, istərsə də insan hüquqları sahəsində şəbəkəni nəinki maliyyələşdirən, eləcə də kiberinqilab yolu ilə sabitliyi pozmağa hesablanmış ümumdünya şəbəkəsini yaradan "meqa-sponsorlar" - şəxslər və qurumlar sırasında erməni diasporunun, erməni kökənli tech-milyarderlərin (Pyer Omidyar, Aleksis Ohanyan və s.) olması üzə çıxarılıb.

Hesabatda Azərbaycan-UNESCO münasibətlərinin yüksək səviyyədə olmasından narahat olan "qlobal erməni milləti"nin səfərbər olaraq, BMT-nin bu təşkilatına 2-3-cü nəsil erməni gətirməsinə nail olması, UNESCO baş direktorunun atasının dünyada ən böyük erməni xeyriyyə təşkilatının Prezidentlər

Şurasının sədri, anasının erməni kökənli olması yer alıb.

Hesabatda Ermənistanın bir “layihə-dövlət” olması, gerçək Ermənistan kimi isə Fransa dövlətinin “qlobal erməni milləti”nin episentri və himayədarı qismində çıxış etməsinin son dövrdə olduqca intensivləşmə səbəbləri açıqlanıb. Bu ölkədə yüksək siyasi postlarda, meriyalarda, məsələn, Parisdə (A.İdalqo) və Strasburqda (J.Barseqyan) erməni qadınların olması, bu meriyaların, mənzil qərargahı Parisdə yerləşən UNESCO-nun Azərbaycana qarşı ən qərəzli “Sərhədsiz Reportyorlar” “hüquq” təşkilatını maliyyələşdirməsi göstərilib.

Hibrid “leqal müharibələr”in (“legal warfare”) dünyada/Avropada ilk dəfə Azərbaycana qarşı tətbiq edilməsinin səbəbləri (Şübhəli Fəaliyyət Hesabatı (Suspicious Activity Report), Siyasi Əhəmiyyətli Şəxs (PEP – Politically Exposed Person), İzahedilməmiş Sərvətlərə dair Məhkəmə Əmri (Unexplained Wealth Order – UWO) sırasında müstəsna olaraq, Azərbaycanın imic itkisinə nail olmağa çalışan “qlobal erməni milləti”nin ortaq fəaliyyəti nümunələr əsasında təqdim edilib.

Hibrid “leqal müharibələr”in (“legal warfare”) digər istiqaməti kimi Azərbaycanda 5-ci kalonun erməni vəkil mafiyasının (Amal Kluni), qlobal insan hüquqları şəbəkəsinin (Harri Kasparov) və s. kimi şəxsən himayə edərək “pro bono” - havayı, ödənişsiz müdafiəsinin, AİHM-də “mütləq” qələbəsinin təmin edilməsinin davamlı ənənəyə çevrilməsinə nail olması əsaslandırılıb.

Müvafiq addımların atılması üçün təklif və tövsiyələr verilib.

Analitik sənəd Daxili siyasətin təhlili departamentinin rəhbəri Tahirə Allahyarova tərəfindən hazırlanıb.

## “Müasir dövlət ailə siyasəti: problemə familistik araşdırmalar kontekstindən baxış”




Analitik hesabatda Azərbaycanda familistik araşdırmaların vəziyyətinə nəzər salınıb, sosial institut kimi ailənin missiyası və mahiyyəti açıqlanıb. Qeyd olunub ki, XXI əsrdə Azərbaycan cəmiyyətində ailə institutunda baş verən modernləşmə/postmodernləşmə proseslərinin, informasiya cəmiyyətinə keçid mərhələsinin özəllikləri ailə tədqiqatları aspektində hələlik geniş araşdırmaların mövzusu olmayıb. Azərbaycan ailəsinin transformasiyasına bu prosesin fasiləsiz, ümumdünya xarakterli fenomen kimi təsiri nəzərə alınmaqla, informasiya cəmiyyətinə xas olan yeni və ağrılı tendensiyaların təhlili ayrı-ayrı aspektlərdə işıqlandırılsa da, sistemli, familistika istiqamətində kompleks və akademik tədqiqatlar aparılmayıb.

Son onilliklərdə müstəqilliyin bərpası və demokratikləşmə prosesləri ilə müşayiət olunan milli quruculuq dövründə ailə problemlərinin tədqiqində bu institutun vahid sistem kimi qarşılıqlı əlaqədə tədqiqi ilə müqayisədə əsas aparıcı istiqamətini gender bərabərliyi məsələləri, qadın və uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığı və s. mövzular təşkil edib. Bu mövzular, xüsusilə də beynəlxalq təşkilatların ölkəmizdə həyata keçir-

diyi tədqiqat və sorğu layihələri çərçivəsində demək olar ki, yeganə aktuallıq kəsb edən sahəyə çevrilib. Özlüyündə böyük elmi əhəmiyyətə malik olan bu tədqiqatlarda məntiqi olaraq Azərbaycan ailəsi, onun mənəvi təməl və dəyərləri, modernləşməsi və transformasiyaya uğramasına ailədaxili münasibətlərin müstəsna olaraq məişət zorakılığı prizmasından baxılıb.

Tədqiqatda vurğulanır ki, müasir ailə institutunun böhranı ilə bağlı proseslər qlobal miqyaslıdır. İnformasiya sivilizasiyası və sosial şəbəkələr fenomeninin cəmiyyət həyatına aşırı təsiri və müdaxiləsi nəticəsində ailənin üzləşdiyi böhran müxtəlif dövlətlərdə bənzər cəhətlərə malikdir. Azərbaycan ailəsi sözügedən proseslərin bilavasitə nüfuz dairəsindədir və baş verən transformasiya prosesləri qarşılıqlı bağlılıq təşkil edir.

Hesabatda qeyd olunub ki, müasir ailənin təkamül və dinamikasının əsas istiqamətlərindən biri ailənin kollektiv-sosial institut formatından qrup formatına doğru meyillənməsidir. Bu o deməkdir ki, müasir ailədə iqtisadi funksiyaların zəifləməsi baş verir. Ailədə aparıcı yeri psixoloji atmosfer, ər-arvadın şəxsi qarşılıqlı münasibətləri tutur. Maraqlı məqam kimi tədqiqatçılar tərəfindən ailənin ən vacib funksiyaları qismində tanınan reproduktiv (nəsil artımı) və tərbiyə funksiyalarının zəifləməsi ilk növbədə ailənin sosial statusunun tənəzzülü və böhranı kimi ifadə edilirsə, başqa ailə funksiyalarında baş verən dəyişikliklər daha çox transformasiya kimi qiymətləndirilir.

Hər bir dövlətin sosial siyasəti ailə siyasəti ilə eyni mənalı olaraq başa düşülmür. Eyni zamanda, ölkədə ailə nə dərəcədə ahəngdə, tarazlıqdadırsa, uşaqlar firavan, mənəvi cəhətdən zəngin mühit ilə əhatə edilibsə, deməli, ən yaxşı sosial siyasət həyata keçirilir. Ailədaxili problemlər nə qədər azalmağa doğru meyillidirsə, dövlətin sosial siyasəti o dərəcədə uğurlu sayıla bilər. İstənilən dövlət və cəmiyyət üçün ailə institutu və onun dəstəklənməsi yönündə dövlət siyasəti həyati vacib əhəmiyyətə malikdir. Belə ki, mənəvi, ailə təməllərinin möhkəm olduğu ölkələr həm də iqtisadi cəhətdən inkişaf edə, milli varlığını qoruyub saxlaya, qloballaşma dövrünün təzyiqlərinə müqavimət göstərməyə qadir ola bilirlər. Bu gün dünyada ailə siyasətinin olmadığı çox az ölkə mövcuddur. Ailə siyasətinin prioritet sahələri demoqrafik, sosial, gender və ekzistensial istiqamətlərdir.

Analitik sənəddə həmçinin ailə institutunun dinamikasında qlobal və lokal tendensiyalara dair bəzi statistik məlumatlar təqdim edilib. İnternet və sosial şəbəkələrin ailədaxili münasibətlərə təsiri, ailənin informasiya inqilabının episentrində olduğu, ailə siyasətinin institusionallaşmasının zəruriliyi qeyd olunub.

Analitik sənəd Daxili siyasətin təhlili departamentinin rəhbəri Tahirə Allahyarova tərəfindən hazırlanıb.

## “Bələdiyyə 20/20: yerliözünüidarəetmə ictimai rəydə”

Analitik sənəddə Azərbaycan hökuməti tərəfindən tədqiqat aparılması tələb olunan sahələr prioritet kimi müəyyənləşdirilib. Bunlar müvafiq olaraq iki istiqamət üzrə qruplaşdırıla bilər: (i) Azərbaycanda bələdiyyələrə vətəndaşlar prizmasından baxış (sosioloji sorğu əsasında ictimai rəyin öyrənilməsi) (ii) Bələdiyyələrin qarşılaşdıqları başlıca problemlər və onların təsbiti. Analitik hesabat əsas etibarilə Azərbaycanda yerli özünüidarəetmə (bələdiyyələr) ilə bağlı ictimai rəyin öyrənilməsi kontekstində kəmiyyət tədqiqat metodu kimi sosioloji sorğu, keyfiyyət tədqiqat metodu kimi fokus qrup (21 nəfər) və dərinləşdirilmiş intervü (9 nəfər) əsasında dizayn edilib.

Ümumilikdə ölkə üzrə seçilmiş ünvanlarda 178 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 16 nəfər əsas seçimə daxil edilib. Bələdiyyələrin müxtəlif tiplərinin (kənd, qəsəbə və şəhər) sayına proporsional olaraq onların hər birində respondentlərin sayı müəyyənləşdirilib. Belə ki, kənd bələdiyyəsi üzrə 92 klaster, qəsəbə bələdiyyəsi üzrə 47 klaster və şəhər bələdiyyəsi üzrə 39 klaster seçməyə daxil edilərək ümumilikdə 176 bələdiyyə üzrə 2848 nəfər arasında sorğu keçirilib.

Keçirilən ictimai rəy sorğusu, fokus qrup müzakirəsi və bələdiyyə sədrləri ilə dərinləşdirilmiş intervünün nəticələri əvvəlcədən müəyyən edilən 5 əsas problem istiqamətlər üzrə əlaqələndirilib. Həmin problemləri aşağıdakı kimi qruplaşdıra bilərik: (i) miqyas problemi, (ii) resurs problemi, (iii) kadr problemi, (iv) səlahiyyət problemi və (v) iştirakçılıq problemi. Bununla yanaşı, tədqiqat çərçivəsində respondentlərin yerli özünüidarəetmə orqanlarının (bələdiyyələrin) fəaliyyətinin ümumi qiymətləndirməsi, sosial-iqtisadi və eləcə də digər xidmətlərin hansı qurum tərəfindən göstərilməsinə münasibəti öyrənilib. Bələdiyyə seçkilərində iştirak ilə bağlı respondentlərin niyyətləri öyrənilməklə müvafiq proqnozlaşdırma işləri həyata keçirilib. Sənəddə Azərbaycanda yerli özünüidarəemə (bələdiyyələr) üzrə islahatlarla əlaqədar əsas müşahidə və çağırışlarla bağlı da keyfiyyət sorğusunun nəticələri əsasında müvafiq təsbitlər öz əksini tapıb.

Analitik sənəd Sosial-iqtisadi təhlil departamentinin rəhbəri Seymur Əliyev və aparıcı məsləhətçi Elnur Çıraqov tərəfindən hazırlanıb.




## “Azərbaycanda yaşlılar: qayğı və rifah ictimai rəydə”




Analitik hesabatın əsas məqsədi müasir qayğı konsepsiyalarını nəzərə alaraq, Azərbaycanda yaşlıların rifahının müxtəlif aspektlərinin öyrənilməsindən ibarətdir. Bunun üçün əsas metod kimi sorğu metodu seçilib və onun əsasında yaşlıların vəziyyətini yaxın və uzaq perspektivdə şərtləndirən aşağıdakı prioritet istiqamətlər tədqiq edilib: (i) Övladlıq borcu ilə bağlı sosial normalar; (ii) Ailənin və dövlətin yaşlılara qayğı sahəsində məsuliyyət balansına dair ictimai gözləntilər; (iii) Yaşlılıq dövründə arzu olunan qayğı və yaşayış formaları; (iv) İctimai şüurda yaşlılara aid stereotip və təsəvvürlər; (v) Yaşlılara münasibətdə ayrı-seçkilik halları; (vi) Pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında ictimai rəy və s.

Sorğuya əhalinin 18 yaşdan yuxarı hissəsi - 1212 respondent milli-reprezentativ təsadüfi seçmə vasitəsilə cəlb olunub. Statistik xəta əmsalı 2,8%-dir. Stratifikasiyalı və klaster tipli seçmə toplu çoxpilləli təsadüfi seçmə metodu ilə müəyyənləşdirilib. Doqquz iqtisadi-coğra-

fi bölgənin hər biri əhatə edilib. Respublika tabeliyində 6 şəhər (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Lənkəran) və 35 rayon olmaqla əhalinin sayına proporsional olaraq seçmə aparılıb. Ümumilikdə planlaşdırılmış 12 ev təsərrüfatı həcmində 101 klaster seçilib. Tədqiqat çərçivəsində əsas analitik nəticələr övladlıq borcu ilə bağlı sosial normalar, ailənin və dövlətin yaşlılara qayğı sahəsində məsuliyyət balansına dair ictimai gözləntilər, yaşlılıq dövründə arzu olunan qayğı və yaşayış formaları, yaşlılara dair siyasət: məsuliyyət bölgüsünə daha bir baxış, ictimai şüurda yaşlılara aid stereotip və təsəvvürlər, yaşlılara münasibətdə ayrı-seçkilik halları, pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında ictimai rəy əsasında toplanmış datanın deskriptiv təhlili və müxtəlif assosiasiya analizləri aparılıb. Analitik sənəddə həmçinin mövzu ilə əlaqədar gələcək dəyişikliklər: trendlər və proqnozlar da öz əksini tapıb. Bütün bunlarla yanaşı, ailə və dövlətin məsuliyyət balansına dair gənc nəslin gözləntiləri də sistemli təhlil edilib.

Analitik hesabat STM-in Sosial-iqtisadi təhlil departamentinin təşkilatçılığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, BMT-nin Azərbaycandakı nümayəndəliyi, “Üçüncü bahar” İctimai Birliyinin nümayəndələrinin iştirakı ilə 2020-ci ildə sərtləşdirilmiş karantin rejimini nəzərə alaraq “Azərbaycanda yaşlılar: qayğı və rifah məsələləri” adı ilə onlayn formada təşkil edilmiş konfrans vasitəsilə geniş ictimaiyyətin diqqətinə təqdim edilib.

Sənəd Sosial-iqtisadi təhlil departamentinin baş məsləhətçisi Humay Axundzadə tərəfindən hazırlanıb.

## “Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə”

Analitik təhlil sənədi Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 19-28 mart 2020-ci il tarixlərində ölkə miqyasında həyata keçirilən sosioloji sorğunun nəticələrini özündə əks etdirir. Sözügedən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib. İctimai rəy sorğusu klaster seçmə metoduna əsaslanıb. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib və sorğunun nəticələri 95% əminlik intervalı, statistik xəta əmsalının 3% olması nəzərə alınaraq təhlil edilib. Ümumölkə sorğusu Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran iqtisadi rayonlarında aparılıb.

Analitik hesabatın əsas məqsədləri kimi (i) COVID-19 pandemiyası ilə fərdi mübarizə istiqamətlərinə münasibət, (ii) Yoluxma qorxusu və karantin şəraitində müayinəyə (özü və yaxınlarının) münasibət, (iii) Dövlətin COVID-19 pandemiyası ilə mübarizə siyasətinə münasibət və (iv) TƏBİB-in bu istiqamətdə fəaliyyətinin qiymətləndirilməsi istiqamətləri müəyyənləşdirilib. Tədqiqat çərçivəsində toplanan datalar əsasında müvafiq assosiasiya analizləri aparılıb və ilkin fazada cəmiyyətin pandemiya ilə mübarizə siyasətinə münasibəti və bu istiqamətdə




dövlət siyasətinin spesifik istiqamətləri ilə bağlı respondent profilləri müəyyənləşdirilib. Sənəddə tədqiqatın aparıldığı dövr ərzində respondentlərin (i) COVID-19-a yoluxmaqdan nə dərəcədə qorxduqları, (ii) Özlərini

virusdan qorumaq üçün nələr etdikləri; (iii) Sosial təcrid olunmaya və həmçinin “Evdə qal” sosial çağırışına münasibətləri; (iv) COVID-19-a görə hər hansı qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görüb-görmədikləri; (v) COVID-19 daşıyıcısı şübhəsi ilə karantinə alma zamanı hansı çətinliklərlə üzləşə biləcəklərini ehtimal etdikləri; (VI) karantin rejiminin davam edəcəyi təqdirdə bunun hansı sosial-iqtisadi təsirlərinin ola biləcəyi və s. kimi məsələlərə rəyi öyrənilərək müvafiq qurumlarla fikir mübadiləsi aparılıb. Sorğunin əldə olunmuş nəticələri TV-radio və digər onlayn platformalar üzərindən dövlətin antipandemiya siyasəti çərçivəsində ictimai rəy formalaşdırması üçün geniş şəkildə istifadə edilib.

Sənəd Sosial-iqtisadi təhlil departamentinin rəhbəri Seymur Əliyev və İctimai rəyin öyrənilməsi departamentinin rəhbəri Ayşəm Balayeva tərəfindən hazırlanıb.

## “Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə”




Analitik hesabatda Azərbaycan dövlətinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində formalaşdırdığı antiböhran strategiyası və siyasəti ictimai rəy əsasında qiymətləndirilib. Bir-birini tamamlayan strateji qərar və tövsiyələrə əsaslanan antiböhran siyasəti ilə bağlı vətəndaş rəyinin öyrənilməsi bu istiqamətdə hesabatlılığın təmin edilməsi və gələcək qərarlar üçün istinad məqsədi daşıyır. Analitik hesabatda dövlətin yaxın dövrdə pandemiyanın makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə həyata keçirdiyi təxirəsalınmaz sosial dəstək tədbirlərindən məmnuniyyət göstəriciləri ictimai rəy əsasında qiymətləndirilib.

Tədqiqat 5 mərhələdə aparılmaqla, 2020-ci il aprel-iyul aylarında dövlətin müvafiq antiböhran siyasətinə çevik reaksiyaların öyrənilməsi məqsədini özündə əks etdirib. Ümumölkə sorğusu Bakı şəhəri, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə etməklə ümumilikdə 4144 respondentin rəyi öyrənilib.

Sənəddə Azərbaycan dövləti tərəfindən tədqiqat aparılması tələb olunan sahələr prioritet təşkil edir ki, bu sahələrə aşağıdakılar aiddir: (i) Məşğulluq və sosial rifaha dəstək tədbirlərinin əsaslandırılması; (ii) Dövlət və qeyri-dövlət sektoru üzrə işçi və eləcə də muzdlu işçilərin işsizlik riskindən qorunması və sosial müdafiəsi istiqamətində həyata keçirilmiş tədbirlərin nəticələrinin ictimai rəy əsasında qiymətləndirilməsi; (iii) İşsiz və işdən azad olunmuş şəxslərin məşğulluğu və əhalinin xüsusi həssas təbəqəsindən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi, dövlət institutlarının rolunun və vəzifələrinin ictimai rəy əsasında qiymətləndirilməsi və s.

Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı tədbirlər, xüsusi karantin rejiminin

tətbiqinin və stimullarının təkmilləşdirilməsi və mahiyyət etibarilə daha yaxşı siyasət nəticələrinə nail olunmasında Azərbaycan hökumətinə (Operativ Qərargaha) informasiya ilə təmin olunma sahəsində dəstək göstərilməsi analitik hesabatın əsas məqsədlərindən biri kimi müəyyənləşdirilib. Analitik təhlil sənədi ölkədə bu istiqamətdə həyata keçirilmiş ən genişmiqyaslı tədqiqat işi kimi qiymətləndirilə bilər.

Sənəd Sosial-iqtisadi təhlil departamentinin rəhbəri Seymur Əliyev və aparıcı məsləhətçi Elnur Çıraqov tərəfindən hazırlanıb.

## “Azərbaycanda islam”

Daxili siyasətin təhlili departamentinin hazırladığı “Azərbaycanda islam” adlı analitik hesabat dinin ölkəmizdə ictimai-siyasi proseslərə təsiri və dinamikasını təqdim etmək baxımından mühüm əhəmiyyətə malikdir. Sorğu nəticəsində təqdim edilən statistik-kəmiyyət göstəricilərinə, eləcə də analitik keyfiyyət təhlilinə - ekspert dəyərləndirmələrinə, son on ildə ölkədə din və ictimai-siyasi proseslərə dair mövcud olan yerli və xarici tədqiqatların monitorinqi və təhlilinə əsaslanan hesabat sayca indiyə qədər ərsəyə gələn üçüncü araşdırma hesab edilə bilər. İctimai rəy və ekspert sorğularının yekun təhlili göstərir ki, islam dini, dini sahədə gedən proseslər son on ildə fərqli dinamikaya uğrayıb. Tədqiqat göstərir ki, Azərbaycan cəmiyyətinin həyatında islam dini ən azı inam, kimlik və yaxud da həyat tərzi kimi üç müstəvidə mütləq olaraq iştirak edir. Azərbaycanda müasir dini proseslərin inkişafının əsas istiqamətləri, dindarlaşmanın aparıcı meyilləri, müxtəlif sosial qrupların dinə bağlılıq dərəcəsi, insanlarda islam dininə marağın, dini baxışların yayılmasının səbəbləri və mexanizmləri, islam dininin müasir ictimai-siyasi proseslərdə yeri və rolunun, kütləvi dini şüurun və əhalinin davranışının radikallaşmasına şərait yaradan amillərin təhlili, respondentlər və ekspertlər arasında aparılan sorğu bu qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda dinin ictimai-siyasi həyata təsiri, məscidlərə gedənlərin və məscidlərin sayı, dini təhsil və ya digər məsələlərə münasibətdə coğrafi amil mühüm əhəmiyyət daşıyır. Dindarlıq (dindarlaşma) səviyyəsinin dinamikası nisbətən artsa da, dünyanın istər islam, istərsə də xristian dinli ölkələr ilə müqayisədə aşağıdır.

Analitik sənəddə aparılan sosioloji tədqiqatın nəticələrinə əsaslanaraq təklif və tövsiyələr hazırlanaraq aidiyyəti qurumlara təqdim edilib.



# “Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri”




Analitik hesabatın əsas məqsədi Azərbaycanda miqrasiya proseslərinin sosial-iqtisadi, demoqrafik aspektlərinin tədqiqi və bunun əsasında dövlətin bu sahədə siyasətinin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Məhz bu məqsədə əsaslanaraq tədqiqat qrupu tərəfindən aşağıdakı alt vəzifələr müəyyənləşdirilib (i) Azərbaycanda baş verən əhali köçünü təhlil etmək və onun demoqrafik nəticələrini aşkara çıxararaq qiymətləndirmək; (ii) Əhalinin daxili miqrasiyasına təsir edən amilləri aşkara çıxarmaq; (iii) Sözügedən prosesin mahiyyətini və məzmununu, onun iqtisadi-demoqrafik aspektlərini tədqiq etmək və s.

Tədqiqatın ilkin mərhələsində statistik bazanın toplanılması üçün Sosial Tədqiqatlar Mərkəzinin rəhbərliyi tərəfindən Dövlət Statistika Komitəsinə və 77 rayonun icra hakimiyyətinə mövcud ev təsərrüfatlarının sayı barədə sorğu göndərilib (Naxçıvan Muxtar Respublikası istisna olmaqla). Sorğuya cavab olaraq 2009-cu və 2018-ci illər üzrə 58 şəhər, 60 rayon, 144 qəsəbə və 2342 kənd yaşayış məntəqəsi üzrə 1,8 milyondan çox ev təsərrüfatına dair məlumat əldə edilib. Daha sonra əldə olunan verilənlərlə (data) “Azərişıq” ASC-nin 1,9 milyondan çox elektrik enerjisi istehlak edən abonentləri üzrə hər bir kənd, qəsəbə və şəhərin müqayisəsi aparılıb. Tədqiqatın birinci mərhələsində verilənlər bazasından əldə olunan göstəricilərin dərinləşdirilmiş təhlilini həyata keçirmək üçün ikinci mərhələdə keyfiyyət sorğusu aparılıb. Keyfiyyət sorğusunda istifadə edilən anketdə qapalı və açıq olmaqla 9 demoqrafik, 25 əsas sualdan istifadə edilib.

Sənəddə eyni zamanda Azərbaycanın tədqiqat dövrü üçün iqtisadi rayonları üzrə miqrasiya və urbanizasiyasının cari vəziyyəti təhlil edilib. Bununla yanaşı, sənəddə problem üzrə beynəlxalq təcrübə də öyrənilməklə siyasət təkliflərinə inteqrə edilib. Analitik təhlildə eyni zamanda ekspertlərlə keçirilən dərinləşdirilmiş müsahibələr çərçivəsində “Paytaxtın köçürülmə imkanları” ilə bağlı mövqe də ümumiləşdirilib. Tədqiqatın nəticələri müvafiq dövlət qurumları ilə müzakirə edilib, fikir mübadiləsi aparılıb.

Analitik hesabat Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi Elnarə Qəribova və Sosial-iqtisadi təhlil departamentinin baş məsləhətçisi Vüsalə Rüstəmova tərəfindən hazırlanıb.

# "Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər"

Analitik hesabatda ictimai rəy sorğusu əsasında müxtəlif hədəf qruplarının, maraqlı tərəflərin, peşə kateqoriyalarının nümayəndələrinin (abituriyentlərin, valideynlərin, müəllimlərin, millət vəkillərinin, Təhsil Nazirliyinin və DİM-in nümayəndələrinin, təhsil ekspertləri, psixoloq və sosioloqların) dövlətin sosial siyasətinin tərkib hissəsi olan təhsilin müasir vəziyyətini öyrənməyə əsas verən buraxılış və qəbul imtahanlarının yeni modeli ilə bağlı fikirləri, bəzi vacib mövzular və məsələlər haqqında rəyi, qiymətləndirmələri və münasibəti, baxış və təklifləri öyrənilib, bunun əsasında təhlil aparılıb, müvafiq təklif və tövsiyələr hazırlanaraq aidiyyəti qurumlara təqdim edilib.

Məlumatların toplanması və qiymətləndirilməsi prosesində kəmiyyət və keyfiyyət tədqiqat metodlarından istifadə edilib.

Sorğu DİM-in regional mərkəzləri əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Bərdə, Şəki, Şirvan, Xaçmaz, Göyçay, Lənkəran, Mingəçevirdə həyata keçirilib. Genişmiqyaslı tədqiqatdan öncə Bakıda 60 respondent arasında sınaq tədqiqatı keçirilib. Sınaq nəticəsində anketdə lazımi düzəlişlər edilib. Sorğu anketi abituriyentlər üçün 36 (5 demoqrafik, 31 spesifik), valideyn və müəllimlər üçün 34 (3 demoqrafik, 31 spesifik) sualdan ibarət olub. Suallar buraxılış və qəbul imtahanlarında 2019-cu ildə tətbiq edilən model haqqında məlumatlılıq səviyyəsi, təhsil sistemi üçün faydalılıq dərəcəsi, imtahan prosesi, məzmundakı yeniliklərə münasibəti öyrənmək istiqamətində hazırlanıb. Sahə işi 2019-cu ilin iyunun 23-dən iyulun 25-dək olan dövrdə keçirilib. Sorğu 2 mərhələdə aparılıb: 1-ci mərhələ əvvəlcədən hazırlanmış anket sualları əsasında iyunun 23-də (I və IV ixtisas qrupları üzrə ikinci imtahan) və iyulun 7-də (II və III ixtisas qrupları üzrə ikinci imtahan) abituriyentlər, valideynlər və müəllimlər arasında; 2-ci mərhələ isə müsahibə (keyfiyyət intervüsü) metodundan istifadə etməklə Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin nümayəndələri, təhsil ekspertləri, psixoloq və sosioloqlar arasında keçirilib.

Tədqiqatda dünya ölkələrində buraxılış və qəbul prosesinin geniş təhlili də verilib. Keçirilmiş sorğunun nəticələrinə və elmi ədəbiyyatın




təhlilinə əsaslanaraq tədqiqatda bu qənaətə gəlinir ki, imtahanlarda yeni modelin tətbiqi (ikimərhələli imtahan prosesi) ilə bağlı müxtəlif fikirlərin olmasına rəğmən Azərbaycanda testologiyanın indiki reallığını nəzərə alıb bu modelin daha da təkmilləşdirilməsi, yeni test banklarının hazırlanması zəruridir. Bunun üçün yeni tədris proqramı (kurikulumlar) əsasında tərtib edilən açıq tipli tapşırıqların daha sadə və anlaşıqlı olması, tədricən sayının artırılması məqsədəuyğundur. Bundan başqa, orta ümumtəhsil məktəblərində yeni proqramın – kurikulumların tədrisinə daha məsuliyyətlə yanaşılması, fənn kurikulumlarının hər il təkmilləşdirilməsi, bunun üçün mütəmadi olaraq orta ümumtəhsil məktəblərində monitorinqlərin aparılması arzuolunandır.

Analitik hesabatın təqdimatı ilə əlaqədar 18.12.2019-cu il tarixində "Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər" mövzusunda konfrans keçirilib.

Analitik hesabat Daxili siyasətin təhlili departamentinin baş məsləhətçiləri Aqşin Məmmədov və İlyas Hüseynov tərəfindən hazırlanıb.

# "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu"




Sosial Tədqiqatlar Mərkəzi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilmiş "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" tədqiqat layihəsində uşaq hüquqlarının təminatı və böyüməkdə olan gənc nəslin inkişafı ilə bağlı genişmiqyaslı məsələlər əhatə edilib.

Tədqiqatın əsas məqsədi ölkədə uşaq hüquqlarının təmin edilməsinə, onların marağının qorunmasına, bu sahələrdəki problemlərə və müsbət təcrübələrə dair ölkədə ümumi vəziyyətin təsvirini sosioloji tədqiqat vasitəsilə öyrənməkdir.

Tədqiqatda qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı bölmələr üzrə vəzifələri yerinə yetirmək nəzərdə tutulub: Şəxsi inkişaf və asudə vaxtın təşkili; İnternetdən istifadə; Ailə ilə münasibətlər; Tədris; Uşaq əməyi; Uşaq hüquqları.

Yuxarıda qeyd olunan mövzular hər biri ayrı-ayrılıqda tədqiqatın vəzifəsi olmaqla, bir sıra metodların kompleks istifadəsi ilə öyrənilib. Bura həm kəmiyyət sorğusu, həm keyfiyyət müsahibələri, eyni zamanda müvafiq elmi ədəbiyyatın təhlili aiddir. "Şəxsi inkişaf və asudə vaxtın təşkili" bölməsində valideynlər tərəfindən uşaqların məktəbdənkənar vaxtının necə təşkil edilməsi sosioloji sorğu üzərindən təhlil edilib. Eyni zamanda uşaqların maraqlarının təmin olunmasında, habelə asudə vaxtının təşkilində ailələrin maddi vəziyyəti ilə uzlaşdırılması araşdırılıb. Yeniyetmə və gənc məktəblilərin şəxsiyyət kimi formalaşmasında, gələcək peşə seçimində ailənin və ətraf insanların təsirləri təhlil edilib.

"İnternetdən istifadə" bölməsində müasir dövrün informasiya-kommunikasiya tələbatının uşaqlar üzərindəki təsirlərindən bəhs edilib. İnternetin yaratdığı asılılıq, uşaqların internet resurslarından istifadə etmək bacarıqları, informasiya-kommunikasiya sahəsində yeniyetmə və gəncləri cəlb edən məqamlar yer alıb.

"Ailə ilə münasibətlər" bölməsində valideynlərin uşaqlar üzərindəki təsirlərinə dair sosioloji tədqiqat aparılıb. Burada uşaqlara ailədə verilən tərbiyədən, onlara qarşı davranışlardan, diskriminasiyalardan bəhs edilir. Sorğu vasitəsilə ailə daxilində ünsiyyət formaları, ailə üzvləri ilə psixoloji yaxınlıq və s. bu kimi sosioloji məqamlar təhlil edilib.

"Tədris" bölməsində şagirdlərin səriştələrə yönəlik təhsil mühitinin yaradılması, məktəbə bağlılıq, təlim prosesinə uyğunlaşma, psixoloji-sosioloji adaptasiya məsələləri tədqiq edilib. Burada orta məktəblərdə psixoloji işin təşkilində valideyn-müəllim münasibətlərinin təşkili də yer alıb. Eyni zamanda COVID-19 pandemiyasının yaratdığı gerçəkliklər ölkədə tədris sistemində distant təhsillə bağlı yeni baxış formalaşdırıb. Tədqiqatın bu bölməsində distant təhsil dövründə uşaqların onlayn təhsilə əlaçatanlığı, yaranmış problemlər araşdırılıb.

"Uşaq əməyi" bölməsində beynəlxalq təşkilatları da narahat edən uşaq əməyinin istismarından bəhs edilib. Aparılan tədqiqat çərçivəsində Azərbaycanda uşaq əməyinin vəziyyəti təhlil edilib. Eyni zamanda ölkədə

əməyə cəlb edilən uşaqların klassifikasiyası müəyyən edilib.

"Uşaq hüquqları" bölməsində isə milli və beynəlxalq hüququn tələbinə uyğun uşaqların müdafiəsinin təşkilindən bəhs edilib. Buraya Azərbaycan Respublikasının Konstitusiyası, uşaq hüquqlarına dair qanunvericilik bazası, BMT-nin Uşaq hüquqlarına dair Konvensiyası və sair sənədlər daxildir. Sözügedən bölmədə yeniyetmə və gənc məktəblilər arasında qanunla onlara verilən hüquqlarla bağlı maarifləndirmə işinin nə dərəcədə olması təhlil edilib. Uşaqların bu hüquqlardan məlumatlı olub-olmaması, özlərini müdafiə edə bilib-bilməməsi soruşulub. Eyni zamanda, məişət zəminində onlara edilən psixoloji və fiziki təsirlər, zərərli vərdişlərə meyillilik səviyyəsi tədqiq edilib.

Sorğu Bakı şəhərini və Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran iqtisadi rayonlarını əhatə edib.

Ümumilikdə 2400 respondentin və 24 ekspertin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş regionlar sorğuda əhatə edilməyib.

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin ehtimal ölçüyə mütənasib çoxpilləli klaster seçməsindən istifadə edilib ki, bu da hər bir uşağa bərabər səviyyədə iştirak imkanı verib. İlk mərhələdə sorğuda əhatə ediləcək 40 rayon seçilib. Növbəti mərhələdə seçilmiş rayonlardan 200 yaşayış məntəqəsi seçilib və hər məntəqədən 12 respondent ilə sorğu aparılıb.

Sorğuda şagirdlərin yaş və gender üzrə müxtəlifliyi təmin edilib. Belə ki, rəyi soruşulanların 50.4%-i oğlan, 49.6%-i qızlardan ibarət olub.

Sorğuda əhatə edilmiş respondent sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.0% təşkil edib. Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində uşaqlarla anket sorğusundan, keyfiyyət metodologiyası çərçivəsində isə hədəf qrupuna daxil olan müxtəlif sahələrdən olan mütəxəssislərlə dərinləşdirilmiş müsahibə məlumat toplama metodundan istifadə edilib.

Sorğu anketinin sualları yerli vəziyyət nəzərə alınmaqla yanaşı, beynəlxalq təcrübəyə istinadən hazırlanıb. Anket tərtibi mərhələsində suallar hazırlanarkən uşaqların dərrakə səviyyəsinə uyğunlaşdırılıb. Sorğu anketi 68 (59 spesifik və 9 sosial-demoqrafik) sualdan ibarət olub.

Sorğu 2020-ci ilin aprelin 12-dən mayın 6-dək olan dövrdə keçirilib.

Analitik hesabat STM-in İctimai rəyin öyrənilməsi, Daxili siyasətin təhlili və Sosial-iqtisadi təhli departemintlərinin əməkdaşlarının birgə iştirakı ilə hazırlanıb.

## "Azərbaycanda əhalinin cinayət əməlindən zərər çəkməsi və aidiyyəti qurumlara müraciəti. Viktimoloji tədqiqat"

Ölkəmizdə ictimai təhlükəsizliyin təminatı əsasən arzuedilən səviyyədə olsa da, müstəqillik tarixi ərzində heç bir viktimoloji sorğu aparılmayıb. Bu isə cinayətdən zərərçəkənlərin təcrübələri, hüquq-mühafizə orqanlarının zərərçəkənlərin müraciətlərinə reaksiyası və bütövlükdə, vətəndaşların bir sıra hüquq-mühafizə orqanlarına münasibəti barədə məlumatların olmaması ilə nəticələnir. 2020-ci ilin sentyabr ayında nəşr olunan bu viktimoloji sorğunun əsas məqsədi əhali üzrə viktimizasiya (zərərçəkmə) proseslərini təhlil etməklə, cəmiyyətdə cinayətkarlığın tendensiyaları, dinamikası, zərərçəkənlərin sosial portreti və s. tədbirləri təqdim/təklif etməkdir. Sorğunun əsas məqsədi latent cinayətkarlıq səviyyəsinin, vətəndaşların hüquq-mühafizə orqanlarına münasibətinin, vətəndaşların şəxsi fiziki təhlükəsizliklərinə dair fikirlərin, vətəndaşların yaşadıqları ərazidəki nizam-intizama dair münasibətinin öyrənilməsi, həmçinin cinayət barədə hüquq-mühafizə orqanlarına müraciət edən və etməyən vətəndaşların fərqlərinin müəyyənləşdirilməsidir.

Sorğuda 1214 respondent təsadüfi qaydada seçilib. Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilib ki, bu da hər bir vətəndaşa bərabər səviyyədə iştirak imkanı verib. Sorğunun ke-




çirilməsində kəmiyyət metodundan istifadə edilib. Sorğu Bakı-Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran, Qarabağ, Mərkəzi Aran və Dağlıq Şirvan iqtisadi rayonlarını əhatə edib.

Sorğu anketi 27 (19 spesifik və 8 sosial-demoqrafik) sual və 4 blokdan ibarətdir. Birinci blokda respondentin son 3 il ərzində hər hansı cinayət əməlindən zərər çəkib-çəkməməsinə, zərər çəkdiyi təqdirdə aidiyyəti qurumlara müraciət edib-etməməsinə və hüquq-mühafizə orqanlarına inamına dair suallar yerləşdirilib. Son 3 il ərzində heç bir cinayət əməlindən zərər çəkməyənlər də sorğuda iştirak edib, ancaq onlara bəzi suallar verilməyib. Beləliklə, cinayət əməlindən zərərçəkən və zərərçəkməyənlər arasında potensial sosial-demoqrafik fərqlərin müəyyənləşdirilməsi mümkün olub. İkinci blokda vətəndaşın yaşayış şəraiti və evinin infrastrukturuna dair suallar verilib. Növbəti blokda isə cinayətkarlığa məruzqalma ehtimalının dəyərləndirilməsi tələb edilib. Son blokda sosial-demoqrafik suallar təqdim edilib.

Beləliklə, sorğu vasitəsilə zərərçəkənlərin hüquq-mühafizə orqanlarına müraciət etməməsinin səbəbləri, cinayətin vətəndaşa psixoloji, maddi və digər mənfi təsirləri, vətəndaşların hüquq-mühafizə orqanlarına və məhkəməyə etibarı müfəssəl şəkildə öyrənilib. Nəticələr əsasında 4 mühüm istiqamətdə - institusional inamın artırılmasının əhəmiyyəti, mətbuat vasitəsilə maarifləndirmə, onlayn müraciət portalının hazırlanması və mülkiyyət əleyhinə cinayətlərin əsas kriminogen problem kimi roluna dair təkliflər hazırlanıb.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi İnqilab Şahbazov tərəfindən hazırlanıb.

## “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Vətən müharibəsindən əvvəl və sonra”

Bu tədqiqatda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi, Ermənistanın 12 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan dövlət sərhədinin şimal-qərb hissəsində Tovuz istiqamətində hərbi təxribatının doğurduğu siyasi-hərbi nəticələri və bu fonda münaqişəsinin hərbi yolla tənzimlənməsi perspektivi, eləcə də əməliyyatlar zamanı hərbi-siyasi şəraitə adekvat islahatlar ictimai rəy əsasında dəyərləndirilib. Tədqiqat çərçivəsində Azərbaycanın regionda mənəvi-siyasi və hərbi baxımdan yüksəlişini realizə edən Tovuz döyüşlərinin siyasi, hərbi və beynəlxalq nəticələrinə dair vətəndaş mövqeyinin öyrənilməsi bu istiqamətdə dövlətin Qarabağ strategiyasının perspektivliyinə və siyasi kursunun nəticəliliyinə, eləcə də təbliğat hədəflərinin əlçatanlığına effektiv təsir göstərə bilər. Sorğu-tədqiqat əsasında hazırlanmış hesabat beş müvafiq blokda əhatə olunan ardıcıl istiqamətlər üzrə klassifikasiya edilib. “Müharibə” blokunda Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi, Ermənistanın son hərbi təxribatları fonunda Dağlıq Qarabağ probleminin hərbi yolla həllinin yenidən gündəmə gəlməsi və

müharibə variantının ictimai-siyasi aspektləri vətəndaş rəyi əsasında qiymətləndirilib.

Sorğuda respublikanın Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Qarabağ, Quba-Xaçmaz, Mərkəzi Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları əhatə edilib. Sorğuda iştirak edən respondentlərin yarısı Ermənistanla sərhəd və həmin dövrdə Dağlıq Qarabağla təmas xəttində yerləşən yaşayış məntəqələrindən seçilib. Sadalanan rayonların əksəriyyəti sərhəd kəndlərində olmaqla ümumilikdə 198 yaşayış məntəqəsində sorğu keçirilib: Ağstafa, Qazax, Tovuz, Daşkəsən, Gədəbəy, Göygöl, Goranboy, Ağcabədi, Tərtər, Ağdam.

Təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilməsi hər bir vətəndaşa sorğuda bərabər səviyyədə iştirak imkanı verib. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 198 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib. Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilib. Nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2% təşkil edib.

Tədqiqatın keçirilməsində kəmiyyət metodundan istifadə edilib.

Sorğu anketi 5 istiqamət üzrə 43-ü əsas və 10-u demoqrafik olmaqla ümumilikdə 53 sualdan ibarət olub. Suallar aşağıdakı istiqamətlər üzrə qruplaşdırılıb: I istiqamət müharibə bloku, II istiqamət hərbi-siyasi blok, III istiqamət hüquqi-siyasi blok, IV istiqamət humanitar blok, V istiqamət informasiya bloku.

"Hərbi-siyasi" blokda Ermənistanın Azərbaycanla sərhəddə Tovuz istiqamətində hərbi təxribatına ictimai baxış, təxribatın səbəbləri və doğurduğu nəticələr, eləcə də hərbi-siyasi şəraitin yaratdığı dəyişikliklər ictimai rəy əsasında dəyərləndirilib. "Hüquqi-siyasi" blokda Ermənistan-Azərbaycan münaqişəsinin həllində beynəlxalq faktorlar, eləcə də hərbi-siyasi şəraitin hökumət tərəfindən adekvat kadr islahatları ilə dəstəklənməsi ictimai rəy əsasında qiymətləndirilib. "Humanitar" blokda 14 iyul 2020-ci il tarixində cəmiyyətin Azərbaycan dövlətinə və ordusuna dəstək xarakterli milli həmrəylik




nümayişinə ictimai münasibət öz əksini tapıb. "İnformasiya" blokunda respondentlərin müharibə şəraitində əsas informasiya mənbələri və onlara etibarlılıq dərəcəsinin öyrənilməsi yer alıb.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin aparıcı məsləhətçisi Aygün Yusibova tərəfindən hazırlanıb.

# "Azərbaycanın media barometri"




Azərbaycanda hər bir mətbuat qurumunun reytinqi bu və ya digər marketinq üsulları ilə ölçülsə də, KİV istifadəçilərinin davranışlarının müfəssəl qaydada öyrənilməsi müvafiq qurumlara əhalinin üstünlük verdiyi kontenti, müşahidə etdikəri problemləri və görmək istədikləri təklifləri öyrənmək cəhətdən faydalıdır. Məhz bu məsələləri öyrənmək məqsədilə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən Azərbaycanda media landşaftının sosioloji tədqiqi və ictimai rəy sorğusu həyata keçirilib. Tədqiqat vasitəsilə Azərbaycan əhalisinin hansı ənənəvi və yeni media vasitələrindən istifadə etdiyi, hansı mövzuda veriliş və proqramlara baxdığı, media landşaftında hansı dəyişiklikləri görmək istədiyi, KİV-lərə nə dərəcədə etibar etdiyi, KİV-lərdə hansı problemləri gördüyü, internetdən istifadənin davranış, dinamika və tendensiyaları öyrənilib.

Məlumatın toplanılmasının kəmiyyət metodunda əhalinin 18 yaşdan yuxarı hissəsi arasında milli-reprezentativ təsadüfi seçmə vasitəsilə sorğu həyata keçirilib. Ümumilikdə ölkə üzrə seçilmiş ünvanlarda 167 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib. Sorğu ümumilikdə 2004 nəfər arasında keçirilib. Klasterlərin ümumi sayı və onların həcmi (klasterlərdəki baş çəkilməli ev təsərrüfatlarının sayı) elə hesablanıb ki, müsahibədən mümkün imtina, ev təsərrüfatı üzvünün evdə olmaması və müsahibənin baş tutmadığı digər hallarda ev təsərrüfatlarının kifayət qədər ehtiyatı mümkün olsun. Hər ev təsərrüfatında doğum günü sorğu gününə ən yaxın olan bir ailə üzvü seçilib. Seçilmiş respondent ailənin digər üzvü ilə əvəzlənə bilməz, müsahibənin həmin şəxslə keçirilməsi mümkün olmadıqda, müsahibəçi növbəti ev təsərrüfatına keçib.

Sorğunun nəticələri 95% əminlik intervalı, 2.18%-lik sapma ehtimalı (statistik xəta) nəzərə alınaraq analiz edilib. Sorğu Naxçıvan Muxtar Respublikası və həmin dövrdə işğal altında olan rayonların ərazisi istisna olmaqla bütün ölkəni aşağıdakı iqtisadi-coğrafi rayonlar üzrə əhatə edib: Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran. Hər bir iqtisadi-coğrafi rayon daxilində əhalinin müxtəlif yaşayış məntəqələrinin (paytaxt, iri şəhər, kiçik şəhər/şəhər tipli qəsəbə, kənd) sayına proporsional olaraq onların hər birində respondentlərin sayı müəyyənləşdirilib. Respondentlərlə sorğu birbaşa onların yaşayış yerində, strukturlaşdırılmış və üzbəüz müsahibə yolu ilə həyata keçirilib.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin əməkdaşları tərəfindən hazırlanıb.

## "Orta məktəb dərsliklərinin vəziyyəti ictimai rəydə"

Hesabatda qeyd olunur ki, dərsliklərin hazırlanmasında əsas məqsəd məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələndirmək, vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Bu işdə təkcə dərsliklərin məzmunu deyil, onların yazılma metodikası, üslubu, tərtibatı, keyfiyyəti məsələləri də diqqət mərkəzində olmalıdır. Bütün bunları nəzərə alaraq Sosial Tədqiqatlar Mərkəzi tərəfindən orta məktəb dərsliklərinin vəziyyətinə münasibəti öyrənmək məqsədilə 10 iyun – 15 iyul 2019-cu il tarixləri arasında 423 respondent, ibtidai sinfin şagirdlərinin valideynləri və yuxarı sinif şagirdləri, eləcə də müəllimlər arasında ictimai rəy sorğusu keçirilib. Problemin öyrənilməsinə yanaşma sistemində müasir şagird və onun oxuduğu dərsliyin öyrənilməsi əsas götürülüb. Yeni şəraitdə cəmiyyətin tələbatı, dövlət siyasəti və məktəb dərsliklərinin səmərəli və faydalı, müasir olması üçün real imkanlar əsasında təkliflər irəli sürülüb.




Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi Əfqan Vəliyev tərəfindən hazırlanıb.

## "Azərbaycan Respublikasının Dövlət Bayrağına münasibət ictimai rəydə"

Prezident İlham Əliyevin 2007-ci il noyabrın 17-də "Bakıda Dövlət Bayrağı Meydanının yaradılması" və 2009-cu il noyabrın 17-də hər il noyabr ayının 9-nun Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamlar Dövlət bayrağının dövlət rəmzləri sırasında tutduğu əhəmiyyətli yeri və rolu, xalqımızın qədim tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunması, dünya ictimaiyyətinə təbliğ etmək naminə yürütdüyü uğurlu siyasətin və gələcək ümidlərin ifadəsidir. Keçirilən sorğunun məqsədi vətəndaşların Dövlət bayrağına münasibətini, Dövlət bayrağı haqqında məlumatlılığını, həmçinin II Qarabağ müharibəsinin əhalinin bayrağa dair münasibətinə təsirini öyrənməkdir.

Sorğu çərçivəsində Bakı, Abşeron, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ, Aran və Gəncə-Qazax iqtisadi rayonlarını əhatə etməklə 384 respondentin rəyi öyrənilib. Qeyd edək ki, 384 respondent seçmənin reprezentativliyini təmin edir. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edib. Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmə metodundan istifadə edilib. Birinci mərhələdə hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib. Növbəti mərhələdə hər yaşayış məntəqəsindən sorğuda iştirak etməli olan




respondent sayından 10 dəfə çox sayda təsadüfi qaydada stasionar telefon nömrəsi seçilib. Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Sahə işi 5-6 noyabr 2020-ci il tarixlərində keçirilib.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin əməkdaşları tərəfindən hazılanıb.

## "Vətən müharibəsinin yekunlarına ictimai münasibət"

10 noyabr 2020-ci il tarixində üç dövlət rəhbəri tərəfindən imzalanmış və 9 bənddən ibarət olan bəyanatın tarixi əhəmiyyətini, eləcə də onun bəzi bəndlərinə birmənalı olmayan ictimai reaksiyanı nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən sözügedən bəyanata ictimai münasibəti öyrənmək məqsədilə rəy sorğusu keçirilib. Bəyanatla yanaşı, müharibənin gedişatı və nəticələrinə dair bir sıra suallar da sorğuda əhatə edilib. Sorğuda təsadüfi üsulla seçilmiş 603 respondent iştirak edib. Seçmənin birinci mərhələsində hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib. Tədqiqat Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında aparılıb. Seçmənin sayı əsasında statistik xəta əmsalı 4%, əminlik dərəcəsi 95%-dir. Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Sorğu anketi 26 sualdan (22



spesifik və 4 sosial-demoqrafik sual) ibarət olub. Suallar 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanan bəyanata və 44 günlük Vətən müharibəsinin yekunlarına münasibəti öyrənmək istiqamətində hazırlanıb.

Analitik hesabat ümumilikdə 6 bölmədən ibarətdir. Hesabatın əsas məqsədləri kimi Vətən müharibəsi ilə bağlı respondentlərin gözləntiləri, gözləntilərin nəticədə əks olunması, Vətən müharibəsinin ölkə üzrə təsirləri, sülh sazişi barədə məlumatlılıq səviyyəsi, birgə bəyanatla bağlı verilən şərhlərin effektivliyi, birgə bəyanata münasibət, onun müsbət və mənfi tərəfləri, sülh sazişinin nəticələri, Naxçıvanla dəhlizin Azərbaycanın sosial-iqtisadi inkişafına təsirləri, Qarabağın təhlükəsizliyi məsələsində sülhməramlı faktoru, Rusiya sülhməramlılarının bölgəyə gəlişindən gözləntilər, Türkiyə və Rusiya sülhməramlılarının bölgədə birgə iştirakı, birgəyaşayışa münasibət, müharibə gözləntisi, Vətən müharibəsi dövründə informasiya siyasəti və informasiya mənbələri ictimai rəy sorğusu əsasında qiymətləndirilib.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin rəhbəri Ayşəm Balayeva tərəfindən hazılanıb.

## "2020-ci ilin qiymətləndirilməsi və növbəti ildən gözləntilər"

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində 2020-ci ilin sonlarına doğru ölkə tarixinə ən qürurverici hadisələrdən biri – Vətən müharibəsi kimi həkk olunan genişmiqyaslı hərbi əməliyyatların başlaması və Ermənistanın işğalındakı torpaqların azad edilməsi oldu. İyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hərbi cəhdlərinin qarşısının uğurla alınmasından sonra sentyabr ayında təmas xətti boyunca genişmiqyaslı təxribatlara qarşı adekvat əks-hücum əməliyyatları keçirildi. Ali Baş Komandanın rəhbərliyi altında silahlı qüvvələrin apardığı hərbi əməliyyatlar nəticəsində noyabr ayının 9-na qədər 5 şəhər, 4 qəsəbə və 286 kənd erməni işğalından azad olundu. Müxtəlif strateji və mədəni əhəmiyyətli obyektlər yenidən ölkənin nəzarətinə qaytarıldı, Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı, azad edilmiş torpaqlarda yol və digər infrastruktur obyektlərinin bərpasına başlanıldı. 10 noyabr tarixli üçtərəfli birgə bəyanat çərçivəsində işğal altındakı digər üç rayon Azərbaycanın nəzarətinə qaytarıldı və nəhayət, Azərbaycan Ermənistanla olan dövlət sərhədini bərpa etdi.




2021-ci ilin prioritet istiqamətlərindən biri işğaldan azad olunan ərazilərə böyük qayıdış və böyük quruculuq işləri ilə bağlı olub. Qeyd edək ki, 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunan ərazilərin bərpası və yenidənqurma işlərinin aparılması üçün maliyyə təminatının yaradılması nəzərdə tutulub və bu istiqamətdə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Həmçinin, dövlət büdcəsində müdafiə və təhlükəsizlik sahəsinə ayrılan vəsaitlər artırılaraq 4,6 milyard manat müəyyən olunub.

Beləliklə, hər il olduğu kimi, dünyanın bir sıra nüfuzlu rəy mərkəzləri lokal və qlobal səviyyələrdə 2020-ci ilin insanlara təsirini və

necə keçdiyini öyrənir. Bu ənənə əsasında Sosial Tədqiqatlar Mərkəzi “2020-ci ilin qiymətləndirilməsi və növbəti ildən gözləntilər” adlı tədqiqatını lokal xüsusiyyətləri nəzərə alaraq 27-29 dekabr 2020-ci il tarixlərində telefon sorğusu vasitəsilə həyata keçirib. Bu tədqiqatın keçirilməsində əsas məqsəd vətəndaş nəzərində 2020-ci ildə ölkəmiz və respondentlərin özləri üçün ən əlamətdar hadisələri, insanların müxtəlif istiqamətlər üzrə həyat məmnuniyyətini, COVID-19 virusu əleyhinə vaksinasiyaya münasibətini, 2021-ci il üçün planlarını və növbəti ildən gözləntilərini müəyyən etmək, təhsil alan respondentlərin onlayn/distant tədrisin keyfiyyəti və gələcək perspektivləri barədə fikirlərini öyrənməkdir. Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan,Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında aparılıb. Sorğuda təsadüfi üsulla seçilmiş 1050 respondent iştirak edib. Seçmənin birinci mərhələsində hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib. Seçmənin ölçüsü əsasında statistik xəta əmsalı 3%, əminlik dərəcəsi 95%-dir.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin əməkdaşları tərəfindən hazılanıb.

## “COVID-19 xəstəliyi əleyhinə vaksinasiyaya ictimai münasibət”




Ümumiyyətlə, pandemiya dövründə dövlətlərin davranışları, antiböhran siyasəti və müvafiq yol xəritəsinin müəyyənləşdirilməsi, pandemiya ilə mübarizə və onun nəticələrinin ictimai qiymətləndirilməsi risklərin idarəedilməsində reaktiv deyil, məhz proaktiv dəyərləndirmələrə imkan verir. Bu xüsusda ölkədə pandemiyanın geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirilən siyasətə dair “Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə” adlı sorğu 1212 respondenti, həmçinin “Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə” adlı 5 mərhələdə keçirilən ümumölkə miqyaslı sorğu (vaxtilə işğal altında olan ərazilər və Naxçıvan MR istisna olmaqla) 4144 respondenti əhatə etməklə pandemiyanın makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılmasını nəzərdə tutan sosial dəstək tədbirlərinə ictimai münasibəti əks etdirir.

Həmçinin, COVID19-un müxtəlif sferalara təsirlərinin ictimai, siyasi, iqtisadi strukturunun tədqiqinə dair AB, BMT-nin Əhali Fondu (UNFPA), UN Women təşkilatı ilə əməkdaşlıq çərçivəsində ümumilikdə 1512 respondentin əhatə olunduğu “Azərbaycanda COVID-19 pandemiyasının qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirməsi”, 388 respondentin əhatə olunduğu “Karantin müddətində iş və ailə balansının tənzimlənməsi” və 374 biznes subyekti arasında “Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti sahibkar rəyində”, eləcə də BMT İnkişaf Proqramı Türkiyə ofisinin sifarişi ilə 500 sahibkarla keçirilən “COVID19-un müəssisələrə və sahibkarlara təsiri” sosioloji sorğularını qeyd etmək olar. Beləliklə, həm 2020-ci ilin dekabr ayında ke-

çirilən sorğu, həm də müşahidələr cəmiyyətdə vaksinasiyaya dair müxtəlif fikirlərin olduğunu göstərir. Vaksinə dair birmənalı ictimai mövqenin olmaması kütləvi vaksinasiyanın qısa zaman ərzində uğurlu icrasına müəyyən maneələr yarada bilər.

STM tərəfindən il ərzində müəyyən intervalla aparılması planlaşdırılan təkrar tədqiqatın məqsədi əhalinin peyvəndə və peyvənd proqramına münasibəti, əhalinin peyvəndlər barədə məlumatlılığı, əhalinin səhiyyə sisteminə etibarı, əhalinin COVID-19-a dair narahatlıq və qorxu səviyyəsi, COVID-19-a yoluxan respondentlərin təcrübəsi və üzləşdikləri problemlər üzrə dinamikanı ölçməkdir. Sadalanan istiqamətlərlə yanaşı, təkrar tədqiqat COVID-19 xəstəliyi əleyhinə vaksinasiya proqramı üzrə görülən işlərin təsirini bilavasitə müşahidə etməyə imkan verir. Nəzərə çatdıraq ki, metodologiya elmində təkrar tədqiqat dizaynı uzunmüddətli dövr üçün tendensiyaları ölçmək məqsədilə istifadə edilir.

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında keçirilib. 18 yaşdan yuxarı əhali qrupları üzrə çoxpilləli stratifikasiya seçmə metodu ilə təsadüfi seçmə aparılıb.

Analitik sənəd İctimai rəyin öyrənilməsi departamentinin əməkdaşları tərəfindən hazılanıb.

## “Yerli icra hakimiyyəti başçıları beynəlxalq və milli təcrübədə”

Azərbaycanda yerli icra strukturları əsasən hüquqi-institusional fenomen kimi nəzərdən keçirilib. Lakin bu yanaşmanın problemli tərəfləri hüquqi baxışla real vəziyyət arasındakı fərq bucağının böyüklüyündən irəli gəlir. Yerli icra hakimiyyətləri təkcə mərkəzi hakimiyyətin regionlardakı əli deyil, o, dövlətin yerlərdəki varlığı və reallığıdır. Ölkənin bütün inzibati ərazi vahidlərində hakimiyyəti əlində tutan və əsas qərarverici rolunda çıxış edən bu fiqurların profillərinin təhlil olunması nəinki cəmiyyət üzərində iqtidar münasibətlərinin daha yaxşı başa düşülməsi, eləcə də regionlarda mümkün sosial və siyasi problemlərin dəyərləndirilməsi baxımından əhəmiyyətli hesab edilir.




Yerli icra hakimiyyəti başçıları digər vəzifəli şəxslərlə müqayisədə daha çox diqqət mərkəzindədir və ictimai-siyasi fiqur kimi dövlət-cəmiyyət münasibətlərində regional razılıq, yaxud narazılıqların əsas mənbəyi rolunda çıxış edir. Ali, yaxud mərkəzi instansiyaların siyasi üstünlüyünə baxmayaraq, regionlar ictimai vəziyyətlə bağlı əsas determinantlar kimi çıxış edir. Regionlar mərkəzdən siyasi baxımdan asılı olduğu kimi, mərkəzin də regionlardan ictimai, iqtisadi asılılığı mövcuddur. Bu baxımdan yerli icra hakimiyyəti başçılarının regionlarda dövlət hakimiyyətinin nümayəndəsi, dövlətlə bağlı ictimai mövqe qurucusu, ictimai- siyasi fiqur, eləcə də son illər ərzində islahatların başlıca elementi kimi sosial tədqiqat mövzuları arasında yer alması gözləniləndir.

Bu tədqiqat qeyd olunan zərurətlərdən irəli gələrək, Azərbaycanda yerli icra hakimiyyəti başçısı vəzifəsinin təsis olunduğu tarixdən (18 oktyabr 1991-ci il) ötən 30 il ər-

zində bu istiqamətdəki kadr siyasətinin mənzərəsini müqayisəli şəkildə təqdim etməyi hədəfləyir. Həmçinin tədqiqat yerli icra hakimiyyəti başçılarının ictimai-siyasi fiqur kimi öyrənilməməsindən irəli gəlir, bu sahədə tədqiqatların canlandırılmasına və mövcud boşluğun doldurulmasına az da olsa töhfə verməyi nəzərdə tutur.

Metodoloji baxımdan tədqiqat Azərbaycanda (Naxçıvan MR daxil olmaqla) müstəqilliyin bərpasından ötən 30 illik dövrdə, yəni 1991-2020-ci illər ərzində fəaliyyət göstərən yerli icra hakimiyyəti başçıları ilə bağlı yaradılan məlumat bazasının statistik təhlilinə və əldə olunan nəticələrin müqayisəli təqdimatına əsaslanır. Bu məqsədlə ilkin mərhələdə rayon, şəhər və şəhər rayonları üzrə yerli icra hakimiyyəti başçısı vəzifəsini tutmuş şəxslərin müxtəlif parametrik göstəriciləri: təyinat və vəzifədən azad olunmaların sayı və tarixləri, yerli icra hakimiyyəti başçılarının təhsil göstəriciləri, doğulduğu region və tarix, təyinataqədərki son və ümumi əmək fəaliyyəti, ilkin, yaxud təkrar təyinat aldığı inzibati ərazi vahidləri üzrə məlumatlar yerli icra hakimiyyətlərinin müvafiq internet saytları, Azərbaycan Respublikası Prezidentinin sərəncamları, müxtəlif elektron məlumat və nəşr resursları vasitəsilə əldə olunaraq toplanılıb. Təhlil matrisi sadalanan parametrik göstəricilər əsasında, müstəqillikdən sonrakı fərqli dövrlər və iqtisadi rayonlar üzrə, eləcə də ölkələrarası müqayisələrə imkan yaradacaq şəkildə formalaşdırılıb.

Tədqiqat ötən 30 illik dövrü əhatə etdiyinə görə iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il tarixli 1386 nömrəli Fərmanından əvvəl qüvvədə olmuş bölgü əsas götürülüb. Tədqiqat çərçivəsində müxtəlif ölkələrin ərazi idarəetmə təcrübəsi öyrənilib və seçilən dörd ölkə üzrə (Rusiya, Gürcüstan, Ukrayna, Türkiyə) Azərbaycanla analoji müqayisələr aparılıb.

Analitik sənəd Sosial-iqtisadi təhlil departamentinin aparıcı məsləhətçisi Elnur Çıraqov tərəfindən hazılanıb.

## "İşğaldan azad olunmuş ərazilərə könüllü qayıdış və yenidən məskunlaşma: məcburi köçkünlərlə niyyət sorğusu"




Məcburi köçkünlüyün hazırkı dinamikası ilə bağlı fərqli perspektiv təmin etmək və məlumatlara əsaslanan siyasətin hazırlanmasını dəstəkləmək üçün bu tədqiqatın ümumi məqsədi məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıtması və yenidən məskunlaşma siyasətinin mümkün qədər effektiv şəkildə həyata keçirilməsini asanlaşdırmaqdan ibarətdir.

Bu ümumi məqsədə nail olmaq üçün tədqiqat çərçivəsində beş hədəf müəyyənləşdirilib və icra edilib: (i) Azərbaycandakı məcburi köçkün əhalinin könüllü qayıdış və yenidən məskunlaşma ilə bağlı fikir və niyyətlərini öyrənməklə yanaşı, onların müvafiq demoqrafik profillərini müəyyənləşdirmək; (ii) məcburi köçkünlərin qayıtmaq niyyəti ilə əlaqəli təşviqedici və əks-təşviqedici amilləri (push və pull faktorları) müəyyən etmək; (iii) yeddi rayon və Şuşa şəhəri üzrə "Mən mütləq qayıdacağam" və "Qərarsızam" deyən məcburi köçkünlərin profillərini qiymətlən-

dirmək; (ıv) məcburi köçkünlərin qayıdış niyyətlərinə statistik cəhətdən hansı amillərin əhəmiyyətli dərəcədə təsir etdiyini reqresiya analizləri ilə müəyyən etmək (proqnozlaşdırmaq); (v) böyük qayıdışın ən optimal şəkildə uğurla həyata keçirilməsi və onun davamlı və dayanıqlı bir hala gəlməsi üçün ümumi siyasət təkliflərini Azərbaycan hökumətinə təqdim etmək.

Seçmənin dizaynı üçün stratifikasiya seçmədən istifadə edilib. Şuşa şəhəri, Zəngilan, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Ağdam, Füzuli və Laçın rayonlarından olan məcburi köçkünlər tədqiqat çərçivəsində hədəf qrupunu təşkil edib. Hər bir təbəqə üçün seçmə sayı 95% əminlik intervalı və 5% statistik xəta ilə hesablanıb ki, bu da hər bir təbəqədən 385 respondent olmaqla, ümumilikdə 3080 respondentə bərabər olub. Seçmə vahidlərinin təsadüfi qaydada seçimi üçün R proqramından istifadə edilib. Ümumilikdə, tədqiqat üçün təsadüfi seçilmiş respondentlərlə əlaqə yaratmaq üçün 6326 cəhd edilib.

Tədqiqat (i) Azərbaycan hökumətinin effektiv könüllü qayıdış və yenidən məskunlaşma siyasətinin tərtib edə bilməsi və onun tətbiqini asanlaşdırması və inkişaf etdirməsi; və (ii) məcburi köçkünlərin könüllü qayıdış və yenidən məskunlaşma ilə bağlı məlumatlı qərarlar qəbul etmələrinə kömək etmək üçün ilkin məlumat bazasını təmin etmək üçün həyata keçirilib.

Tədqiqat Sosial-iqtisadi təhlil departamentinin əməkdaşları Seymur Əliyev və Nilufər Məmmədova tərəfindən həyata keçirilib.

**Qeyd edək ki, analitik hesabatların nəticələri ilə Sosial Tədqiqatlar Mərkəzinin rəsmi internet səhifəsində (stm.az) tanış olmaq mümkündür.**

# Arayış, təhlil və tövsiyə sənədlərinin qısa icmalı

**Qeyd olunduğu kimi, STM-in əməkdaşları tərəfindən sorğu əsaslı analitik və elmi-tədqiqat əsaslı hesabatların hazırlanmasından başqa, Nizamnamədən irəli gələn vəzifələr çərçivəsində arayış, təhlil, təklif və tövsiyə sənədlərinin hazırlanması istiqamətində də fəaliyyət həyata keçirilib. Hazırlanan sənədlərin bir qısmi ilə bağlı qısa xülasəni təqdim edirik.**

**"İşsizlik və məşğulluq kriteriyaları və əmək bazarında mövcud olan real vəziyyətə dair araşdırma əsasında hazırlanmış nəticə və tövsiyələr"** adlı sənəddə ölkədə real məşğulluqla, qanunvericilik əsasında müəyyən edilən məşğulluq arasında müqayisəli təhlillər aparılaraq mövcud işsizlik səviyyəsinin rəsmi statistika ilə uzlaşmadığı müəyyən edilib. Qeyd edək ki, kənd təsərrüfatı təyinatlı torpağı olan 900.000-dən çox ailənin əmək qabiliyyəti yaşında olan bütün əmək qabiliyyətli şəxsləri məşğul hesab olunur. Halbuki kənd təsərrüfatı torpaqlarının hissəsi işsiz kimi qeydə alındıqda və o, layiqli işlə təmin oluna bilmədikdə müavinət və işsizlik sığortasından bəhrələnə bilmir. Hazırlanan sənəddə təhlillər aparılaraq müvafiq təkliflər verilib. Nəticədə qanuna müvafiq əlavə və dəyişikiliklər layihəsi Milli Məclisə təqdim edilib və problem qismən həllini tapıb.

**"Azərbaycanda vətəndaş cəmiyyəti təsisatları: mövcud vəziyyət və problemlər"** adlı təhlil sənədində ölkədə qeyri-kommersiya təşkilatları olan ictimai birliklərin və fondların təşəkkül tapması, inkişafı, dövlət orqanları ilə qarşılıqlı münasibətləri, daxili və xarici təsirlərin artması fonunda baş verən neqativ proseslər mərhələlər üzrə təhlil edilib. Ölkədə dövlət platformasında olan müstəqil vətəndaş cəmiyyəti sektorunun inkişafına mane olan hüquqi və praktiki məsələlər, onların aradan qaldırılması ilə bağlı siyasət variantları və tövsiyələr təhlil invertarizasiyası həyata keçirilməyib və bu torpaqlardan istifadə edilib-edilməməsi bəlli deyil. Hazırlanan sənəddə təhlillər aparılıb və tövsiyələr verilib.

**"Biznesin inkişafına mane olan və işəgötürənlə işçilər arasında münasibətlərə aid lüzumsuz sənədləşmələr-Əmək kitabçaları"** adlı sənəd biznesin, dövlət orqanlarının, təşkilati-hüquqi formasından asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatların iş ahənginə mane olan, dövlətin və biznesin xərclərini artıran əmək kitabçalarının dövriyyədən çıxarılması ilə bağlı hazırlanıb. Sənəd müvafiq qurumlara təqdim edildikdən sonra əmək kitabçalarının dövriyyədən çıxarılması üçün hüquqi prosedurlara başlanılıb.

**"İşsizlik hallarından sığorta sistemi"** adlı arayış sənədində "İşsizlik hallarından sığorta haqqında" qanunla Konstitusiyanın 38-ci maddəsi arasındakı ziddiyyətdən bəhs edilir. Qeyd edilir ki, əmək qabiliyyəti yaşında olan və iqtisadi fəal şəxslərin əhəmiyyətli sənədində əks etdirilib.

**"Qismən səfərbərlik tədbiri çərçivəsində döyüş əməliyyatlarında iştirak edən hərbçilərin və qoşun birləşmələrində işlərə cəlb olunmuş mülki şəxslərin ailə üzvlərinin sosial təminatının gücləndirilməsinə dair"** adlı arayış sənədində 44 günlük Vətən müharibəsi zamanı qismən səfərbərlik çərçivəsində döyüş əməliyyatlarına cəlb edilmiş şəxslərin ailələrinin sosial problemləri təhlil edilib və onun həlli yollarına dair təkliflər verilib.

**"Qlobal güclərin sərt və yumşaq təsir vasitələri"** adlı sənəddə bəzi dövlətlərin və onlara məxsus mərkəzlərin yumşaq və sərt təsir vasitələri, onların həyata keçirilmə yolları təhlil edilib. Belə təsirlərin neytrallaşdırılması üçün təkliflər verilib.

**"Qarabağ iqtisadi rayonunda erməni mənşəli əhalinin yaşadığı ərazilərin Azərbaycan dövlətinin de-fakto yurisdiksiya-**

**sına keçməsinin əsas mərhələlərinə dair"** adlı arayış sənədində Qarabağ iqtisadi rayonunun ərazisində kompakt şəkildə yaşayan erməni mənşəli əhalinin Azərbaycanın hüquq sisteminə inteqrasiyası, həmin ərazilərin Azərbaycanın de-fakto yurisdiksiyasına qaytarılması problemləri təhlil edilib və tövsiyələr verilib.

**"1831-1989-ci illərdə Qərbi Azərbaycandan deportasiyaya məruz qalan azərbaycanlı əhalinin rayon və şəhərlərə görə statistikası"** adlı təhlil sənədində son 200 ilə yaxın dövrdə ermənilərin İran və Türkiyə ərazisindən tarixi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində burada əhalinin demoqrafik vəziyyətinin tədricən dəyişdirilməsinin dinamikasına nəzər salınıb, dövrün arxiv sənədləri və hesabatlarına əsaslanaraq real faktlar ortaya qoyulub, həmin dövrdə azərbaycanlıların Qərbi Azərbaycandakı tarixi torpaqlarından (indiki Ermənistandan) deportasiyası və onun demoqrafıq göstəriciləri rayon və şəhərlərə görə cədvəl formasında təqdim edilib.

Daxili siyasətin təhlili departamentində yerinə yetirilmiş **"Azərbaycanda elmin əsas göstəriciləri, elmi fəaliyyətin tənzimlənməsi və mövcud problemlərə dair"** təhlil sənədində Azərbaycanda elmin əsas göstəriciləri region və dünya ilə müqayisəli şəkildə təhlil edilib, dövlət elm siyasətinin təkmilləşdirilməsinə dair təklif və tövsiyələr verilib.

Bundan başqa, **Daxili siyasətin təhlili departamentinin əməkdaşları**nın təqdim etdikləri bəzi açıq və qapalı arayışların, təhlil və tövsiyə sənədlərinin mövzusunu ölkədəki aktual ictimai-siyasi proseslər, cəmiyyət-dövlət-vətəndaş münasibətlərindəki meyillər, postmüharibə dövründə sosial siyasətin prioritetləri, həssas sosial strataların problemlərinin həlli, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, cəmiyyətdə dialoq və kommunikasiya proseslərinin yeni səviyyəyə yüksəldilməsi, Qarabağda bərpa və quruculuq, Böyük Qayıdış strategiyasının həyata keçirilməsinin istiqamətləri, postkonflikt dövrünün reinteqrasiya və barış məsələləri, ölkəmizdə etnik-dini proseslər, Qərbdən yönləndirilən ideoloji təbliğat və dezinformasiya məsələləri, dini-etnik proseslərin xaricdən yönəldilməsi cəhdləri və s. prioritet məsələlər təşkil edib.

Daha geniş aspektdə qeyd etsək, Departamentin əməkdaşları Azərbaycanda aktual ictimai-siyasi proseslər və ictimai rəyə yönəlik bəzi önləyici tədbirlər; Ümummilli lider Heydər Əliyevin liderlik və dövlətçilik irsinin siyasi-ideoloji təbliği; Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 30 illiyinə dair; Azərbaycanda sosial medianın siyasiləşməsinə nəzər: dinamika, reallıq və perspektivlər; İşğal edilmiş ərazilərdə qeyri-qanuni internet/mobil rabitə xidməti. Dağlıq Qarabağın milli domenə daxil edilməsi üçün mövcud imkanlar; Azərbaycana qarşı hibrid müharibənin açıq təhdidləri və onlara çevik cavab verilməsinin zəruriliyi; Dövlət siyasətinin və Prezidentin fəaliyyətinin siyasi-ideoloji təbliği; Azərbaycanda rəsmi dövlət və dövlətyönlü media islahatlar fonunda; Azərbaycanda daxili miqrasiya prosesinin ölkə üzrə qeyri-rasional yayılmasının sosial-iqtisadi səbəbləri; İnformasiya müharibəsinin meydanı - Vikipediyada Azərbaycanla bağlı acınacaqlı vəziyyət və görülməli tədbirlər; Süni intellekt: 4-cü sənaye inqilabının mühərriki, qlobal texnoloji çevrilişin çağırışları və Milli Strategiyalar; Azərbaycanda yüksək texnologiyaların - süni intellektin inkişafı ilə bağlı vəziyyət; COVID-19-la mübarizədə təhlükəsizliyi təmin edə bilən 200 dövlət. Süni İntellektin hazırladığı reytinqdə Azərbaycan; Dağlıq Qarabağın erməni əhalisinin Ermənistan rəhbərliyi tərəfindən "demoqrafik soyqırımı"; II Qarabağ müharibəsində həlak olan, veteran və əlil olanlar, əsir və itkin düşənlər, eləcə də onların ailələri ilə müharibədən sonrakı sosial-psixoloji dəstək və adaptasiya işi; Qarabağın azad edilməsi və ərazi bütövlüyünün bərpası uğrunda aparılan müharibə şəraitində informasiya-psixoloji təbliğat və bəzi digər məsələlər; Vətən müharibəsi, Böyük Qələbə və Zəfər tarixi ilə bağlı dövlət siyasətinə konseptual yanaşma; Koronavirus və insan hüquqları:

Azərbaycan beynəlxalq hesabatların müqayisəli təhlilində; Qarabağ müharibəsi şəhidlərinin, hərbçilərin dəfn mərasimlərinin yeni konsepsiyasının zəruriliyi, Azərbaycanda dünya təcrübəsinə uyğun Hərbi Memorial/məzarlıqlarının (Milli Hərbi Panteon və s.) salınması; II Qarabağ müharibəsi şəraitində ön və arxa cəbhədə informasiya-psixoloji təbliğatla bağlı bəzi məsələlər; Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşanlara sosial qayğının gücləndirilməsi, Şəhid və Qazi Ailələrinə Dəstək Fondunun təsis edilməsi və Məlumat Bankının yaradılması; Fransadakı erməni lobbisinin digər erməni lobbilərindən fərqi;1994-cü il "Atəşkəs müqaviləsi"ndən sonra Ermənistan və Azərbaycan arasında hərbi eskalasiyaların müqayisəli (hərbi-siyasi) təhlili; Sentyabr ayında baş verən düşmən təxribatının ideoloji-siyasi müstəvidə qarşısının alınması; Orta məktəblərdə baş verən intihar hadisələrinin ictimai rəydə assosiasiyası və onun həlli yolları; Erkən nikahların səbəbləri, fəsadları və Azərbaycanın ailə genefonduna mümkün təsirləri; Ali təhsil sistemində islahatlar, gözləntilər və mövcud problemlər; Post-COVID dünyasının ideoloji trendləri; Dövlət gənclər siyasəti: mövcud vəziyyət; Azərbaycanda tələbələri ictimai-siyasi fəallığa cəlb etmək, təşkilatlandırmaq cəhdləri; Azərbaycanda Beyin Mərkəzlərinin yeni konfiqurasiyası, I Forumunun keçirilməsi, çevik və koordinasiyalı fəaliyyətinin təşkili; Azərbaycanda Beyin Mərkəzlərinin fəaliyyətinin qanunverici əsaslarında boşluqlar; Koronavirus pandemiyasının təhsil sisteminə təsiri və Azərbaycanda distant təhsilin tətbiqinin zəruriliyi; İşğaldan azad edilmiş ərazilərdə təhsil infrastrukturunun yenidən qurulması və dövlətin təhsil siyasəti; 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsini zəruri edən səbəblər: postmüharibə dövrünün elmi, ədəbi-mədəni mənzərəsi; Azərbaycanda ermənişünaslığın vəziyyətinə hibrid (asimmetrik) müharibə kontekstindən baxış; "Halo Trust" təşkilatının Qarabağdakı müəmmalı fəaliyyəti; 27 sentyabr tarixinin önəmi və tarixi yükü; Azərbaycan ərazisi olan Qarabağda müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının nəzarət zonasında yaşayan əhalinin sosial problemləri; ATƏT-in Minsk qrupunun mandatının siyasi və hüquqi legitimliyinə baxış; İkinci Qarabağ müharibəsində əldə olunan qələbənin əbədiləşdirilməsi və simvollaşdırılması və s. mövzularda arayış və təhlil sənədləri hazırlayıb, təkliflər veriblər.

**Sosial-iqtisadi təhlil departamentinin əməkdaşları** tərəfindən Mərkəzin Nizamnaməsinin müvafiq müddəaları *(3.1.4. cəmiyyətin inkişafının müxtəlif istiqamətləri, ictimai-siyasi, sosial məsələlər, mövcud problemlərin həlli və digər istiqamətlər üzrə aparılan araşdırmaların nəticələrini, bu sahədə təklif və proqnozları Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, 3.1.5. islahatların səmərəliliyini artırmaq məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə sorğular və tədqiqatlar əsasında təhlillər aparmaq, islahatların mümkün nəticələrini proqnozlaşdırmaq; və 3.1.8. dövlət orqanları (qurumları) ilə müvafiq məlumat mübadiləsini həyata keçirməklə onları sosial tədqiqatlara əsaslanan müvafiq statistik və analitik məlumatlarla təmin etmək)* üzrə açıq və qapalı arayış, tövsiyə və mövqe sənədləri hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilib. Sözügedən təhlil sənədləri ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların müxtəlif istiqamətlərini əsas hədəf almışdır. Bunların sırasında: Regionlarda tibbi kadr (həkim-mütəxəssis) çatışmazlığı problemi; Dövlət qulluqçularının əməyinin ödənilməsi: performans əsaslı ödəniş sistemi; Kommunal tariflərin diferensiallaşmasına baxış; Ünvanlı dövlət sosial yardımı: problemlər və təkliflər; Su böhranı; Yerli icra hakimiyyətləri və ya yerli özünüidarəetmədə islahatlar: böhrandan uğurlu çıxış yolu, məsuliyyətlərin bölüşdürülməsi; Pandemiyanın cari dövründə əhalinin psixoloji durumu və dövlətin böhran siyasətinin optimallaşdırılması; Milli kimlik quruculuğu, Azərbaycan millətinin sosial-psixoloji siması; II Qarabağ müharibəsinin mərkəzləşmiş videoarxivinin yaradılması; Yeni hakim elita, regional idarəetmənin təşkili, Azərbaycanın ərazi bö-

tüvlüyü uğrunda 30 il döyüşən müharibə iştirakçılarına qarşı formalaşan ayrı-seçkiliyin səbəbləri və təsirləri; Hayastan Fondunda korrupsiya faktları və s. dair açıq və qapalı arayışlar xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, Sosial-iqtisadi təhlil departamentinin əməkdaşları "Azərbaycan 2030: Milli Prioritetlər" çərçivəsində AR Nazirlər Kabinetinin 27.02.2021-ci il tarixli 161s nömrəli sərəncamına əsasən "Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat" milli prioriteti üzrə "İqtisadi artım" alt İşçi qrupunun "Regionlarda tarazlı iqtisadi inkişafın sürətləndirilməsi" alt məqsədi üzrə ("Ağıllı kənd" modeli məsələləri də daxil olmaqla) siyasət təklifləri təqdim etməklə yanaşı, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası "Sərhəddə ticarət" işçi qrupunun "Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviqi sahəsində qiymətləndirmələrin aparılması, təkliflərin hazırlanması və həyata keçirilməsi üzrə 2022-ci il üçün Yol Xəritəsi" üzrə məmnuniyyət sorğusunun keçirilməsi ilə bağlı təkliflər hazırlayaraq müvafiq dövlət qurumlarına təqdim ediblər.

**İctimai rəyin öyrənilməsi departamentinin əməkdaşları**nın təqdim etdikləri təhlil sənədləri müxtəlif ictimai-siyasi mövzuları əhatə edib. Bunların sırasında: Ailə münaqişəsi və qadına qarşı şiddət; Yeniyetmələrin davranışına və etikasına təsir edən sosial amillər; Yeniyetmə evliliyinin cəmiyyətin sosial sferasına təsiri; Ölkədən xaricə beyin axını və milli kadrlaşmada yaranan problemlər; Dinin ailədaxili münasibətlərə təsiri; Radikalizmi meydana gətirən səbəblərin sosioloji təhlili; Qadına qarşı məişət zorakılığı və İstanbul Konvensiyası; İctimai diplomatiyanın xarici siyasətdəki yeri və rolu; Alkoqolizm və narkotik maddələrin cəmiyyətə təsiri; Dinin orta məktəblərdə tədrisi; İntiharların statistikası və onun cəmiyyətə təsiri; Azərbaycanda boşanmalar: səbəbləri və nəticələri; Sosial şəbəkələrin ailə və cəmiyyətə təsiri; İnzibati Xətalar Məcəlləsində dəyişiklikliyin pandemiya ilə mübarizəyə təsiri; Şuşa şəhərinin yaranmasının 270-ci ildönümünün qeyd olunmasına dair; İşğal altında qalan Azərbaycan abidələrinə qarşı vandalizm və ermənilşdirmə siyasəti; Media İttifaqının yaradılması və Türkiyə mediası təmsilçilərinin mükafatlandırılmasının əhəmiyyəti; Türkiyədəki sorğu mərkəzləri; Qələbənin yaratdığı siyasi-tarixi reallıqlar fonunda regional strategiya və arxitekturada tarixi torpaqların yeri və yolu; Tarixi qələbə ilə sarsılan "Matenadaran və ya Mesrop Maştots adına İrəvan Əlyazmalar və Sənədlərin Qorunması və Tədris Mərkəzi"nin yüzillik gizli həqiqətləri; 8 noyabr Zəfər Gününün ildönümü və Azərbaycanın dövlətçilik tarixində əhəmiyyəti; 27 sentyabr tarixinin ildönümü və əhəmiyyətinə dair konseptual yanaşmanın zəruriliyi və s. açıq və qapalı arayışlar mühüm əhəmiyyət kəsb edir.

Bundan başqa, STM-in əməkdaşları istər COVID-19 pandemiyası, istər II Qarabağ müharibəsi kimi strateji, istərsə də "Qaraheybət" qəzası kimi böhran situasiyalarda müvafiq ilkin qiymətləndirmə (desk review) və siyasət təklifləri ilə operativ mövqe sərgiləyiblər.

*"Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir. Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Kitablar

# Məqalələr

# Kitablar

## "Tədqiqat metodları"

İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi **İnqilab Şahbazov** tərəfindən 2019-cu ildə nəşr edilən və artıq 5-dən çox universitetdə dərs vəsaiti kimi istifadə edilən "Tədqiqat metodları" kitabında kəmiyyət və keyfiyyət metodologiyaları haqqında ətraflı danışılır. Hər bir metodun real həyatda tətbiqi imkanları nümunələr əsasında oxuculara göstərilir. Təcrübədə geniş istifadə edilən məlumat toplama metodları - anket sorğuları, məlumat analizi və müsahibələrin hazırlıq və icra prosesləri ətraflı izah edilir. Bununla yanaşı, kəmiyyət və keyfiyyət tipli məlumatların analizi də müzakirə edilir. Son olaraq isə tədqiqatın nəticələri haqqında hesabat, maliyyələşmə, xərclər və tədqiqat planının tərtibatı və etik məsələlər barədə söhbət açılır. Kitabda keyfiyyət metodologiyasının bütün cəhətləri, eləcə də tədqiqat aparılan zaman meydana çıxan etik məsələlər barədə söhbət açılır.




İ.Şahbazov həmçinin TEAS Press tərəfindən tərcümə və nəşr edilən "Qualitative Research Methods for the Social Sciences, 9th edition, ISBN 978-0-134-20213-6, by Howard Lune and Bruce L. Berg, published by Pearson Education © 2017" kitabının ixtisas redaktoru kimi çalışmışdır.

## "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" (I cild)

Kitab tarixin müxtəlif dövrlərində Qərbi azərbaycanlıların öz doğma yurdlarından deportasiyaları, əsrlərlə yaşadıqları torpaqlarda qoyub gəlməyə məcbur olduqları maddi-mədəni abidələrimiz, bu abidələrin başına gətirilən faciələr, tarixi torpaqlarda ermənilər tərəfindən dağıdılıb məhv edilən, yer üzündən silinməyə çalışılan qədim və zəngin maddi-mədəni irsimizin taleyi və aqibəti ilə əlaqəli sənədlərin araşdırılması nəticəsində ərsəyə gəlib. Sosial-siyasi, milli-mədəni, elmi baxımdan bu mövzunun tədqiq və təbliğ edilməsi soykökünə bağlılıq, milli özünüdərk, tarixi yaddaş, habelə milli kimlik və milli-mədəni irs məsələləri ilə bağlı tarixşünaslığımızda çoxdan bəri yaranmış böyük bir boşluğu doldurmaq, həmçinin cavabı




dəqiq olmayan bir çox mübahisəli məsələləri aradan qaldırmaq nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir.

Kitab 244 tarixi abidə haqqında məlumatı özündə ehtiva edir. Abidələrin qruplaşdırılaraq təqdim olunması kitabın istifadəsini asanlaşdırır.

Kitab İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi **Əfqan Vəliyev** tərəfindən hazırlanmışdır.

## “Qarabağnamə”




1747-ci ildən 1828-ci ilə qədər olan dövrü əhatə edən “Qarabağnamə”nın əl yazısı ilə köçürülən 162 səhifəlik orijinal nadir nüsxəsinin ərəb əlifbasından dil, şivə və üslubu qorunmaqla olduğu kimi transkripsiya edilib yenidən yayımlanması tarixşünaslıq elmimiz baxımından mühüm hadisə hesab edilə bilər. Ümumiyyətlə, “Qarabağnamələr”in tədqiqat obyekti kimi seçilməsi Qarabağ xanlığının tarixinin öyrənilməsi, Azərbaycan xanlıqları arasında siyasi, iqtisadi və mədəni inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün zəruri materiallar təqdim edir. Heç şübhəsiz, Azərbaycanın XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərini əhatə edən mürəkkəb tarixi dövrünün tam və obyektiv mənzərəsini, Qarabağ xanlığının sosial-iqtisadi və siyasi həyatını arxiv sənədləri və o dövrdə yazılmış əsərləri tədqiq etmədən yaratmaq tarixi, siyasi və elmi aspektdən mümkün deyildir.

Kitab İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi **Əfqan Vəliyev** tərəfindən orijinal mənbə əsasında hazırlanmışdır.

## “İstiqlal”




Azərbaycan Xalq Cümhuriyyətinin bir illik yubileyi münasibətilə 1919-cu ildə xüsusi diqqətlə hazırlanan “İstiqlal” toplusunun əlimizdə olan nadir orijinal nüsxəsinin 101 il sonra ərəb əlifbasından dil, şivə və üslubu qorunmaqla olduğu kimi transkripsiya edilib yenidən yayımlanması müxtəlif elm sahələrində tədqiqat aparanlar üçün mühüm mənbə rolunu oynaya bilər. “İstiqlal” toplusunda yer alan məqalələr və yazılar o dövrün tanınmış ictimai-siyasi xadimləri və peşəkar qələm əhli tərəfindən yazılıb. Topluda verilən məlumatlar daha çox cümhuriyyət dövrü tarixini əhatə etsə də, Azərbaycan tarixinin müxtəlif dövrlərinə işıq tutması, uzaq və yaxın tariximizlə bağlı bilinməyən və yaxud mübahisəli bir çox hadisə və faktlara aydınlıq gətirilməsi və izah verilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Toplu Azər-

baycan dilində olsa da, mətndə yer alan bir çox ərəb, fars, Türkiyə (osmanlı) türkcəsində olan kəlmələr müasir danışıq dilində istifadə olunmur. Milli tariximizi və tarixi keçmişimizi əks etdirən bu toplunu geniş oxucu kütləsinin başa düşməsi üçün mətnin aşağısında izahlar verilib. Topludakı fotoşəkillər və rəsmlər əsərin orjinal variantından götürülərək olduğu kimi təqdim edilib.

Kitab İctimai rəyin öyrənilməsi departamentinin baş məsləhətçisi **Əfqan Vəliyev** tərəfindən hazırlanmışdır.

## "Entropik dünya: xaosun kosmos üzərində zəfəri"

Daxili siyasətin aparıcı məsləhətçisi **Sübhan Padarovun** "Entropik dünya: xaosun kosmos üzərində zəfəri" (2019) kitabı modernizm əsrinin yaşadığı böhran nəticəsində ortaya çıxan entropik dünya və onun simptomlarından bəhs edir. Bu spiritual entropiya dünyasında metafizik reallıq ilə əlaqəsini bütünlüklə itirən modern insan sürətlə texnolojiləşməklə mexaniki-texnomorf şərtləndirmələrin qısqacında dərin ontoloji atrofiya yaşamaqdadır.

Müəllif bu qənaətini bölüşür ki, spiritual transsendensiya anlayışının dərk edilmədiyi bu dünya paroxial, varlığının mahiyyəti qeyri-varlıqdan ibarət olan narsissist, daxilən formasız və dayanıqsız insani kütlələrin dünyasıdır. Materializm bu növ insani varlığın substansiyasına və onun ekzistensial səciyyəsinə çevrilib. Modern insan bundan agah olmasa da, materializm supra-insani fəzilətlərə, eləcə də transsendental biliyə yönələn hər bir mümkünlüyü və məqsədi aradan qaldırmaqla, hər bir cəhdi iflic etməklə insanı ruhən steril, essensiyasız və mexanikləşmiş mövcudiyyətə məhkum edir. Bütün perspektivlərdən dekadensiya ilə əhatələnmiş bu entropik dünyada insan üçün ehtiyac duyulan total katarsis – insanı inferiyor maraqlar və həzzlərdən, saxta qorxular və ümidlərdən azad edərək onun daxilində radikal bir trans-




fiqurasiya və metanoya doğura biləcək qüvvədir.

Kitab elm və fəlsəfəsevərlər üçün maraqlı materiallarla zəngindir.

## "Sosiologiyada təməl konseptlər"




Sosial-iqtisadi təhlil departamentinin baş məsləhətçisi **Humay Axundzadə** və Daxili siyasətin təhlili departamentinin aparıcı məsləhətçisi **Sübhan Padarov**un birgə tərcümə edib çapa hazırladıqları Dep Entoni Giddens və Filip V.Satton müəllifi olduqları "Sosiologiyada təməl konseptlər" (ikinci nəşri (Polity Press, 2017) kitabı cari dövrdə bu istiqamətdə icra edilən önəmli təşəbbüslərdən biridir. Kitab modern sosiologiyanı formalaşdıran və formalaşdırmağa davam edən təməl konseptlərin seçməsini özündə ehtiva edir. Müəlliflər tarixi və nəzəri kontekstdə meydana çıxan hər bir konseptin geniş müzakirəsini təmin etməklə yanaşı, onların istifadədə əsas anlamlarını araşdırır, tənqidi fikirlər irəli sürür və bu konseptlərin çağdaş tədqiqat və nəzəriyyələşdirmədə mövcud inkişafı ilə bağlı oxucuları tanış edir.

On tematik bölmədən ibarət olan kitab kapitalizm, identiklik və deviantlıqdan qloballaşma, ətraf mühit və urbanizm, interaksiya və kommunikasiyaya qədər təməl konseptləri vasitəsilə sosiologiyanın bir portretini təqdim edir.

# Məqalələr

STM əməkdaşları mütəmadi olaraq beynəlxalq və yerli elmi jurnallarda ictimai, humanitar, sosial elmlərin müxtəlif problemlərinə dair elmi məqalələrlə çıxış edirlər. Həmçinin əməkdaşların mediada müxtəlif problemlərə dair analitik şərhləri, ekspert dəyərləndirmələri və elmi-publisistik yazıları dərc edilir.

3 illik fəaliyyəti dövründə STM əməkdaşlarının ümumilikdə 146 elmi məqaləsi (o cümlədən beynəlxalq jurnallarda 58), 500-dən çox analitik şərhləri, ekspert dəyərləndirmələri və elmi-publisistik yazıları işıq üzü görüb. Bunların arasında "Web of Science" və "Scopus" bazalarında indekslənən jurnallarda dərc olunmuş məqalələr də var. Məsələn, bu yaxınlarda İnqilab Şahbazov və Zaur Əfəndiyevin birlikdə həyata keçirdikləri kriminoloji tədqiqatın nəticəsi "Web of Science" və "Scopus" bazalarında indekslənən "Comparative Sociology" jurnalında çap edilib.




BRILL
COMPARATIVE SOCIOLOGY 20 (2021)

**The Socioeconomic Covariates of Violent and Property Crime Rates in Azerbaijan**

*Ingilab Shahbazov*
Public Opinion Survey Department, Social Research Centre, Baku, Azerbaijan

*Zaur Afandiyev*
Public Opinion Survey Department, Social Research Centre, Baku, Azerbaijan

**Abstract**

The majority of the studies exploring the relationship between socioeconomic factors and crime levels are confined to major industrialized nations. As a post-Soviet, transitional economy with a predominantly Muslim population, Azerbaijan provides a different setting to explore how socioeconomic indicators affect police recorded violent and property crime levels across cities and districts. This study finds a positive relationship between GRP per capita, the proportion of pupils admitted to university and population size property crime levels. The relationship was linear in all cases. The geographical units with more social benefit (pensions, disability, and family care) recipients had lower acquisitive crime levels, though the significance was marginal. The higher the number of targeted social assistance recipients for poverty alleviation is, the higher the rate of violent crime is, which differs from the findings of similar previous studies. Overall, socioeconomic predictors were significantly better in explaining variations for offences against the property than violent crimes. These findings suggest that different crime types are better explained by different economic indicators in the Azerbaijani context. Furthermore, the study shows that most of the covariates function in ways which are observed in the societies covered by the literature.

**Keywords**

socioeconomic factors – property crime – violent crime – Azerbaijan

*"Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək. Tam əminlik var. Ölkə uğurla inkişaf edir. Ölkəmizdə sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Siyasətimizə göstərilən dəstək bizi gücləndirir. Əlbəttə ki, biz daha inamla irəliyə, nikbinliklə gələcəyə baxırıq. Çünki ölkə qarşısında duran bütün vəzifələr icra edilir".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

## Beynəlxalq və respublika səviyyəli tədbirlərdə iştirak

## Əməkdaşlıq əlaqələri/ elmi-tədqiqat və elmi-təşkilati işlər

## Mediada çıxışlar

# Beynəlxalq və respublika səviyyəli tədbirlərdə iştirak

Hesabat dövründə (2019-2021) STM əməkdaşları Nizamnamə fəaliyyəti çərçivəsində beynəlxalq və respublika səviyyəli tədbirlərdə (elmi-praktiki konfrans, vebinar, seminar, təlim və s.) iştirak ediblər. Departamentlər üzrə aşağıdakı nəticələr qeydə alınmışdır:

**Daxili siyasətin təhlili departamenti üzrə:**




Üç illik fəaliyyəti dövründə Departament əməkdaşları ümumilikdə 60-dan çox beynəlxalq və respublika səviyyəli elmi tədbirdə iştirak ediblər. Departamentin rəhbəri **Tahirə Allahyarova** hesabat dövründə Türkiyənin İstanbul şəhərində keçirilən "Təhsil və sosial elmlərdə yeni üfüqlər" adlı II Beynəlxalq Konqresdə (18-19 may 2019), Kırşehr şəhərində keçirilən "Türk xalqlarının tarixi mirası" IV Beynəlxalq sosial tədqiqatlar simpoziu-



munda (24-26 oktybar 2019), STM-in təşkil etdiyi "Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər" adlı konfransda (18 dekabr 2019-cu il, Bakı), "Qlobal tərəfdaşlıq sabit inkişafın şərti və zəmanəti kimi" onlayn beynəlxalq elmi-praktik konfransda (23-24 oktyabr 2020), "Müasir dövrdə Avrasiya məkanında təhsilin paradiqmal problemləri" beynəlxalq onlayn konfransda (29 may 2020), "Qlobalistikanın aktual problemləri" elmlərarası seminarda (27.10.2021), həmçinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Sosial Tədqiqatlar Mərkəzinin həyata keçirdiyi sosioloji sorğu və tədqiqat layihəsinin nəticələri ilə bağlı konfransda (26.12.2021) müxtəlif mövzularda məruzə ilə çıxış etmişdir

Departamentin əməkdaşı **Elnarə Qəribova** Diplomatiya və Araşdırmalar Klubu və Bakı Politoloqlar Klubunun birgə təşkilatçılığı, Avropa İttifaqının texniki dəstəyi ilə keçirilən (18 aprel 2019) tədbirdə "Avropa İttifaqında demokratikləşmə və Avropa kimliyi" mövzusunda, həmçinin ADA Univeristetində tarixi şəxsiyyətlər kontekstində Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş seminar-konfransda məruzə ilə çıxış etmişdir. Bundan başqa, Avropa İttifaqının QHT İnsan Hüquqları Forumunda "Yeni texnologiyaların insan haqlarına təsiri" mövzusunda keçirilən paneldə və Avropa İttifaqı-Azərbaycan Biznes Forumunda (19 iyun 2019-cu il) müzakirələrdə, BMT-nin beynəlxalq təlim-layihəsində iştirak etmişdir.







Departamentin əməkdaşı **İlyas Hüseynov** hesabat dövründə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların II respublika elmi-praktik konfransında (Azərbaycan Universiteti (15 mart 2019-cu il); International Scientific-Practical Conference of Students and Young Scientists, Ukraine, Chernihiv, Chernihiv National University of Technology (CNUT), (April 17-18, 2019); Scientific-practical conference of young researchers, Baku, Western Caspian University, (April 19, 2019); Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların III beynəlxalq elmi konfransında (Bakı Mühəndislik Universiteti, 29-30 aprel 2019-cu il); Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" X beynəlxalq elmi konfransda (Bakı Slavyan Universiteti, 7 may 2019-cu il); "Beynəlxalq münasibətlərin aktual problemləri" adlı respublika elmi konfransda (Azərbaycan Dillər Universiteti (25 oktyabr 2019-cu il); Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş Doktoranların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransında (Azərbaycan Memarlıq və İnşaat Universieti, 03-04 dekabr 2019-cu il); Azərbaycan-Rusiya diplomatik münasibətlərinin qurulmasının 29-cu illiyinə həsr olunmuş "Azərbaycan-Rusiya münasibətlərinin inkişafında gənclərin rolu və perspektivləri" mövzusunda onlayn konfransda; İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz (Milli Tədqiqat) Universitetində Böyük Vətən müharibəsinin başlamasının 80 illiyinə həsr olunmuş II beynəlxalq elmi və praktiki konfransda; "Vətən müharibəsi və yeni geosiyasi konfiqurasiya" mövzusunda dəyirmi masada (Bakı Slavyan Universiteti, 27 sentyabr 2021-ci il); "Azərbaycan – İsrail – Rusiya konfessiyalararası dostluq diaqloqu"nda (Bakı, 10 sentyabr 2021-ci il); "Nizami Gəncəvi ilinə töhvə verək" adlı onlayn konfrans-

da (19.02.2021); “Minalardan azad Azərbaycan: Münaqişədən sonrakı perspektivlər” mövzusunda beynəlxalq konfransda (Bakı, 26.04.2021); “Gənc Diplomatlar-2” layihəsində (03.04.2021); “Gənc Liderlər üçün Yay Universiteti”ndə (Gəncə, 13 avqust 2021-ci il); “Kütləvi informasiya vasitələrinin ictimai rəyə təsiri” zoom platformasında (14 avqust 2021-ci il); “Beynəlxalq aləmin Qarabağ hadisələrinə münasibəti” mövzusunda onlayn tədbirdə (28 avqust 2021); Şanlı Zəfərin 1 ilinə həsr olunmuş onlayn videokonfransda (2021); “Tariximizin şərəfli tarixi səhifəsi” adlı görüşdə (27.09.2021); “Könüllülükdən karyeraya” adlı görüşdə və s. müxtəlif mövzularda məruzələrlə çıxş etmiş, Moskva şəhərində keçirilən SputnikPro layihəsində (25-29 oktyabr 2021-ci il) iştirak etmiş, müxtəlif mükafat və sertifikatlar almışdır.

**İctimai rəyin öyrənilməsi departamenti üzrə:**




Departament rəhbəri **Ayşəm Balayeva** Avropa İttifaqı və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının təşkilatçılığı ilə “BMT-nin insan hüquqları müdafiə mexanizmləri və COVID-19” mövzusunda təlimdə iştirak etmişdir. A.Balayeva BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının təşkilatçılığı ilə vətəndaş cəmiyyəti nümayəndələri üçün “COVID-19 pandemiyasının Azərbaycanda qadın və kişilərin həyatına təsiri” mövzusunda çıxış etmişdir.

A.Balayeva “Tvinninq” layihəsi çərçivəsində keçirilən “Məişət zorakılığı hallarında məlumat toplama, təhlil və hesabatın hazırlanması” mövzusunda 5 günlük təlimdə iştirak etmişdir.

A.Balayeva BMT-nin Əhali Fondunun həyata keçirdiyi “COVID-19 pandemiyasının Azərbaycanda qadın və kişilərin həyatına təsiri” mövzusunda Sürətli Gender Qiymətləndirməsinin nəticələrinin təqdimatına dair virtual konfransda təqdimatla çıxış etmişdir.




Departamentin əməkdaşı **İnqilab Şahbazov**un həmsədri olduğu Azərbaycan Elm Assosiasiyası dünyanın ən nüfuzlu iqtisadçılarından olan professor Ceyms Robinson ilə vebinar təşkil etmişdir.

İngiltərənin Kembric şəhərində yerləşən Cambridge Arts and Science College təhsil müəssisəsinin ‘University and Beyond’ proqramına İ.Şahbazov mentor seçilmişdir. Kollecin uğurlu məzunlar siyahısına salınan ilk azərbaycanlı olan İ.Şahbazov proqram çərçivəsində İngiltərənin 4 universiteti – London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi, Oksford Universiteti, Kembric Universiteti və London Universitet Kollecinə daxil olmaq istəyən şagirdlərə konsultasiya xidməti göstərəcək. Xidmət aktiv qaydada yalnız karantin rejimi tamamilə ləğv edildikdən sonra həyata keçiriləcək.

The London School of Economics and Political Science – LSE İ.Şahbazov haqqında “LSE Alumni” (məzunlar) səhifəsində paylaşım etmişdir. Həmin portalda hazırda

50-60 nəfər civarında məzunun profili mövcuddur. Beləliklə, ölkəmizin adı da artıq həmin səhifədə var.

İ.Şahbazov Cambridge Arts and Sciences College tərəfindən təşkil edilən “CAREERS DAY 2021” tədbirində onlayn formada universitet ve iş təcrübəsi barədə, həmçinin Sumqayıt “ASAN xidmət” mərkəzinin könüllülərindən ibarət auditoriyasına anket sorğusunun keşirilməsi ilə bağlı çıxış etmişdir.

İ.Şahbazov “Study UK Alumni Awards 2021-2022” müsabiqəsinin üç finalçısından biri seçilmişdir. Mükafat Britaniya universitetlərindən məzun olmuş, ölkəsində müxtəlif istiqamətlərdə töhfə verən şəxslərə münsiflər heyətinin (yerli və Britaniyada olanların) səsverməsi əsasında verilir. İ.Şahbazov “Elm və davamlılıq” kateqoriyasında finala keçmişdir.

İ.Şahbazov Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən təşkil edilən tədbirdə təlimçi kimi iştirak etmişdir. 14 sentyabr-21 oktyabr 2021ci il tarixlərində AR Təhsil İnstitutunun “Tədqiqat Mentorluq Proqramı” çərçivəsində 12 fərqli mövzunu əhatə edən təlimlər keçirilmişdir.

Departamentin əməkdaşı **Zaur Əfəndiyev** “9th GESIS Summer School in Survey Methodology: “Survey, Sampling and Weighting”, 17-21 August 2020, Germany (Virtual) Yay Məktəbində; 25 yanvar- 25 fevral 2021-ci il tarixində Moskvada keçirilmiş “Bilik testlərinin dizaynı” onlayn təlimdə (qış məktəbi); Ali İqtisad Məktəbinin Siyasi və Sosial Tədqiqatların Metodları IV Yay Məktəbində “Tətbiqi reqressiya” mövzusunda təlimdə; Leybniz adına Sosial Elmlər İnstitutu tərəfindən keçirilən Sorğu Metodologiyasının IX Yay Məktəbi çərçivəsində “Anket dizaynı” mövzusunda 5 günlük təlimdə iştirak etmişdir.

Bundan başqa, Zaur Əfəndiyev “Yüksəliş” müsabiqəsində ekspert kimi təmsil olunmuşdur. O, eyni zamanda Təhsil İnstitutunun təşkil etdiyi Tədqiqat Mentorluq Proqramına




mentor seçilmişdir.

Departamentin əməkdaşları Ayşəm Balayeva, İnqilab Şahbazov, Zaur Əfəndiyev Şərqi Avropa və Mərkəzi Asiyada keçirilən “Yaşlıların tənhalıq problemi” mövzusunda Azərbaycan üzrə ekspert kimi təmsil olunurlar. Departamentin əməkdaşları Ayşəm Balayeva və Zaur Əfəndiyev “Gender əsaslı cins seçiminin monitorinqi” mövzusunda Gürcüstanda keçirilən workshopda iştirak ediblər.

Departamentin əməkdaşı **Əfqan Vəliyev** Mirzə Bala Məmmədzadənin 150 illiyi münasibətilə Zirə Mədəniyyət Mərkəzində keçirilən tədbirdə məruzəçi kimi çıxış etmişdir.

## Sosial-iqtisadi təhlil departamenti üzrə:

2019-2021-ci illər ərzində Sosial-iqtisadi təhlil departamentinin əməkdaşları ümumilikdə 21-dən çox beynəlxalq və eləcə də respublika səviyyəli akademik platformalarda (elmi-praktiki konfrans, vebinar, seminar, təlim və s.) sosial-iqtisadi təmayüllü müxtəlif istiqamətli mövzular üzrə Mərkəz adından iştirak etmişdir. Həmin tədbirlər srasında ön plana çıxanlar aşağıdakılardan ibarətdir:

Departamentin rəhbəri **Seymur Əliyev** 2020-ci il ərzində pandemiyanın sosial-iqtisadi təsirlərinin minimumlaşdırılması ilə bağlı dövlət siyasəti və həmçinin 44 günlük Vətən


Avropa İttifaqı tərəfindən maliyyələşdirilən
«Azərbaycanda həssas qrupların hüquqlarının müdafiəsi» Layihəsi

SERTİFİKAT

«BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etməklə insan hüquqlarının monitorinqi və hesabatlılıq» mövzusunda 8 - 9 iyul 2021-ci il tarixində keçirilmiş təlimdə uğurla iştirak etdiyi üçün

Vüsalə Rüstəmovaya verilir.

cənab Vladimir Şkolnikov
İnsan Hüquqları üzrə Baş Müşavir
BMT-nin İnsan Hüquqları üzrə Ali Kommissarlığı

Avropa İttifaqı

UNITED NATIONS HUMAN RIGHTS

müharibəsi dövründə “Müdafiə iqtisadiyyatından müharibə iqtisadiyyatına reallıqlar” mövzusunda 14-dən çox müxtəlif formatlı vebinar və “Zoom” platforması üzərindən toplantılarda moderator və həmçinin məruzəçi kimi iştirak və çıxış etmişdir. S.Əliyev eyni zamanda BMT-nin Rezident Əlaqələndiricisinin 2021-2025-ci illər üzrə Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair növbəti çərçivə sənədinin hazırlanması üçün təşkil edilmiş Strateji Prioritetləşdirmə Seminarının yüksək səviyyəli sessiyasında, həmçinin AR Maliyyə Nazirliyinin təşkilatçılığı ilə fiskal qaydaların tətbiqi çərçivəsində “Ortamüddətli xərclər çərçivəsinin tətbiqi” mövzusunda seminarda, AR Dövlət Statistika Komitəsinin “Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi” texniki yardım layihəsinin yekunlarına həsr olunmuş konfransda məruzə ilə çıxış etmişdir.

Departamentin əməkdaşı **Humay Axundzadə** aşağıda qeyd olunan tədbirlərdə mə-




ruzə ilə çıxış etmişdir: 19th Annual Aleksanteri Conference. “Technology, Culture, and Society in the Eurasian Space”. October 23 – 25, 2019, Helsinki Paper: Cyberspace and commercialization of family eldercare in Azerbaijan. Санкт-Петербургская ассоциация социологов (СПАС), Социологический институт РАН, Санкт Петербург. Тревожное общество и сенситивная социология. 6-7 декабря 2019 года. Доклад: Нормы и идеалы заботы о пожилых в Азербайджане: фамилизм и тренды современности.

Departamentin əməkdaşı **Vüsalə Rüstəmova** AR İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkil etdiyi “İqtisadi islahatlar: iqtisadi-riyazi üsulların tətbiqi və əhəmiyyəti” mövzusunda keçirilmiş dəyirmi masada, həmçinin “BMT-nin insan hüquqlarl mexanizmlərindən istifadə etməklə insan hüquqlarının monitorinqi və hesabatlılıq” mövzusunda onlayn təlimdə (BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, 8-9 iyun 2021), Almanyanın “Berghof” təşkilatının layihəsində (11 avqust -14 avqust 2021), “Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi” mövzusunda təlimdə (22 noyabr 2021), Azərbaycanda Açıq Hökumət (OGP) X Qlobal Sammitdə (onlayn: 15-17 dekabr 2021), I Qarabağ müharibəsi barədə müzakirələr, müharibə iştirakçılarının və zərərçəkənlərin hekayələrinə dair onlayn dinləmələrdə iştirak etmişdir.




Əlavə olaraq qeyd edək ki, Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşları fəaliyyət istiqamətlərinə aid olan məsələlər üzrə beyin mərkəzlərinin idarəedilməsi istiqamətində səmərəli işin təşkili, effektivliyin artırılması məqsədilə müvafiq proqramlarda iştirak edirlər. Belə ki, ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkil etdiyi "Düşüncə mərkəzi idarəetməsi" mövzusunda keçirilmiş onlayn seminarda Mərkəzi baş məsləhətçi Aytən Babayeva təmsil edib. Tədbirdə qlobal dünyada düşüncə mərkəzlərinin fəaliyyətinə dair inkişaf tendensiyaları və müasir dövrün çağırışları ilə əlaqədar mövcud tələblər, həmçinin bu sahədə Amerika təcrübəsi və s. məsələlər müzakirə edilib.

Seminar Beynəlxalq Sülh naminə Karneqi Fondunun rəsmisi xanım Elizabet Dibl və Pensilvaniya Universitetinin düşüncə mərkəzləri və vətəndaş cəmiyyəti üzrə proqram direktoru Dr. Ceyms Makgənin iştirakı ilə həyata keçirilib.

# Əməkdaşlıq əlaqələri/ elmi-tədqiqat və elmi-təşkilati işlər

STM-nin əməkdaşları yerli və beynəlxalq elmi əməkdaşlıq, elmi-tədqiqat və tərəfdaşlıq layihələrində də yaxından iştirak edirlər. **Daxili siyasətin təhlili departamenti** üzrə bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dünya Bankı ilə birgə həyata keçirdiyi “Məşğulluğa dəstək” layihəsi, Avropa Birliyinin layihəsi, Belarus EA-nın Sosiologiya İnstitutu ilə birgə layihəsi misal çəkilə bilər. İlk 2 layihənin yerinə yetirilməsi başa çatmaq üzrədir. Sonuncu layihə AR Elmin İnkişaf Fonduna təqdim edilib. 2022-ci ildə layihənin nəticələri elan ediləcək.

Bundan başqa, Sosial Tədqiqatlar Mərkəzi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilmiş “Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil” və “Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu” tədqiqat layihələrində Daxili siyasətin təhlili departamentinin əməkdaşları İctimai rəyin öyrənilməsi və Sosial-iqtisadi təhlil departamentlərinin əməkdaları ilə birgə iştirak ediblər.

Qeyd edək ki, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən Avropa Birliyi və Avropa Şurası ilə birlikdə ümumölkə miqyaslı sosioloji tədqiqat-ictimai rəy sorğusu həyata keçirilib. Layihə “Ölkədə kibercinayət və kibertəhlükəsizlik barometri. Kibercinayətlərə və onlayn təhlükəsizliyə münasibətin (ictimai rəyin) regional kəmiyyət və keyfiyyət əsaslı təhlili (oktyabr 2021 - yanvar 2022)” adlanır.

Məlum olduğu kimi, Avropa Birliyi və Avropa Şurasının EU4Digital Təşəbbüsü çərçivəsində “CyberEast (Şərq Tərəfdaşlığı Regionunda Kiberdayanıqlılıq Fəaliyyəti)” və Avropa Birliyi tərəfindən maliyyələşdirilən “CybersecurityEast” layihələri çərçivəsində, Şərq Tərəfdaşlığı regionunda (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna) Avropa Birliyi EU4Digital Təşəbbüsü çərçivəsində “CyberEast – Şərq Tərəfdaşlığı regionunda kiberdayanıqlılığın artırılması üzrə kibertəhlükəsizliyə dair fəaliyyət” proqramı həyata keçirilir. Proqram Şərq Tərəfdaşlığı (ŞT) ölkələrinin kiberhücumlara qarşı dayanıqlılığının gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılması və hüquq-mühafizə orqanlarının işinin daha da təkmilləşdirilməsinə yönəlib.

2021-ci ildə sözügedən rəy sorğusunun keçirilməsi və yekun hesabatın hazırlanması üçün Sosial Tədqiqatlar Mərkəzi Avropa Birliyi tərəfindən tərəfdaş kimi seçilib. Layihənin məqsədi Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasına və müvafiq sənədlərə uyğun qanunvericilik və siyasət çərçivələrinin qəbul edilməsi, məhkəmə və hüquq-mühafizə orqanlarının və idarələrarası əməkdaşlığın, İT xidmət təminatçıları arasında imkanların gücləndirilməsi, həmçinin cinayət ədaləti, kibercinayət və elektron sübutlar da daxil olmaqla səmərəli beynəlxalq əməkdaşlığın və etimadın artırılmasıdır.

Layihə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən tədqiqat qrupu (T.Allahyarova, A.Balayeva, İ.Şahbazov və Z.Əfəndiyev), Avropa Birliyi tərəfindən ekspertlər qrupu (Donika Emini (Kosovo), Dan Petre və Vlad Tureanu (D&D Research (Rumıniya) və Roeland van Zeijst (Hollandiya)) olmaqla birgə həyata keçirilib.

Layihənin məqsədi ölkəmizin ümumi təhlükəsizliyini gücləndirmək məqsədilə kiberhücumlara qarşı dayanıqlılığını və hüquq-mühafizə orqanlarının potensialını gücləndirməkdir. Həmçinin kibertəhlükəsizliyi və kiberhücümlara qarşı hazırlığı gücləndirən maarifləndirmə, texniki və əməkdaşlıq mexanizmlərinin inkişafı, o cümlədən kibercinayətlərlə mübarizə üzrə səmərəli proqramın hazırlanmasına töhfə verməkdir.

Sorğu Azərbaycanın 10 iqtisadi rayonu üzrə, 1600 respondent, həmçinin sahibkarlar və informasiya texnologiyaları sahəsinin ekspertləri arasında aparılıb.

Sorğunun həm kəmiyyət, həm də keyfiyyət əsaslı təhlilinin aparılması üçün bu sahədə vəziyyət, müqayisəli dinamika və inkişafla bağlı durumun real mənzərəsinin ya-

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

radılması üçün tədqiqatın istiqamətləri kimi aşağıdakılar nəzərdə tutulub:

❖ 2 anket sorğusu metodu ilə: ümumi əhali qrupu və sahibkarlar/müəssisələr arasında;

❖ 5 fokus qrup-dərinləşdirilmiş müsahibə metodu ilə keçirilib.

Fokur qrupların hədəf auditoriyası aşağıdakı kimi müəyyən edilib:

1. Ümumi əhali fokus qrupu;
2. kibercinayət qurbanları ilə fokus qrupu;
3. Peşəkarlar: İT mütəxəssisləri ilə fokus qrupu;
4. Peşəkarlar: ISP (informasiya provayder sistemləri) nümayəndələri ilə fokus qrup;
5. Hüquq-mühafizə orqanları ilə fokus qrup.

**İctimai rəyin öyrənilməsi departamenti**nin təşəbbüsü ilə həm yerli, həm də beynəlxalq qurumlarla əməkdaşlıqlar qurulub. Bu çərçivədə bir neçə tədqiqat layihəsinin icrası Mərkəz tərəfindən edilib.

Dövlət Sosial Xidmətlər Agentliyi ilə "Azərbaycanda sosial xidmətlərin qiymətləndirilməsi və əhalinin sosial xidmətlərə ehtiyac səviyyəsinin müəyyən edilməsi" layihəsi çərçivəsində əməkdaşlığın qurulması istiqamətində fəaliyyət göstərilir.

"İnam indeksi" sorğusunun Türkiyə, Rusiya, Qazaxıstan və Gürcüstanda keçirilməsi istiqamətində sorğu kitabçası hazırlanıb və sorğunun həyata keçirilməsi istiqamətində Türkiyənin aparıcı sorğu mərkəzləri ilə əlaqələr qurulub, tərəflər arasında işin görülməsi üçün razılıq əldə olunub.

STM əməkdaşı Əfqan Vəliyev Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərdə göstərdiyi fəallığa görə İLESAM tərəfindən təltifnamə ilə mükafatlandırılıb.

İctimai rəyin öyrənilməsi departamentinin təşəbbüsü ilə Avropa İttifaqı, UN Women və BMT-nin Əhali Fondu ilə birgə əməkdaşlıq çərçivəsində "Azərbaycanda COVID-19 pandemiyasının qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirməsi" tədqiqat layihəsi həyata keçirilib.

Bu çərçivədə "COVID-19 pandemiyasının Azərbaycanda qadın və kişilərin həyatına təsiri" mövzusunda Sürətli Gender Qiymətləndirməsinin nəticələrinin təqdimatına dair virtual konfrans keçirilib. Tədbirdə BMT-nin Əhali Fondunun ölkə nümayəndəliyinin rəhbəri Fərid Babayev, BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisinin ofisinin rəhbəri Tarek Çeniti, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, BMT-nin Qadınlar üzrə Agentliyinin Avropa və Mərkəzi Asiya üzrə regional ofisinin rəhbəri Blerta Cela, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri və vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak ediblər. Tədqiqat nəticələrinin təqdimatını STM-in əməkdaşı Ayşəm Balayeva edib.

Hesabat dövründə **Sosial-iqtisadi təhlil departamenti**nin icra etdiyi tədqiqatların təqdimatı ilə bağlı geniş tərkibli tədbirlər ilə yanaşı, müxtəlif institutlarla ikitərəfli qarşılıqlı əməkdaşlıq formatları qurulub. Bu qəbildən olan fəaliyyət çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, BMT-nin Azərbaycandakı nümayəndəliyi, "Üçüncü Bahar" İctimai Birliyinin təşkilatçılığı ilə 2020-ci ildə sərtləşdirilmiş karantin rejimini nəzərə alaraq "Azərbaycanda yaşlılar: qayğı və rifah məsələləri" analitik hesabatının onlayn təqdimatı keçirilib.

BMT QAK-ın Azərbayandakı ofisi, Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi, Şuşa, eləcə də işğaldan azad edilmiş 7 rayonun icra hakimiyyəti institutlarının rəhbərlikləri ilə birlikdə "İşğaldan azad olunmuş ərazilərə könüllü qayıdış və yenidən məs-

kunlaşma: məcburi köçkünlərlə niyyət sorğusu" ilə bağlı birgə əməkdaşlıq imkanları müzakirə edilib.

Bilavasitə departamentin təşkilatçılığı ilə Sosial Tədqiqatlar Mərkəzi ilə "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyi arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

"Sosial həmrəylik" layihəsi çərçivəsində Bakı Multikulturalizm Mərkəzi ilə əməkdaşlıq və müzakirələr. aparılıb.

Policy Analytics Lab (PAL) ilə əməkdaşlığın mümkün tərəfləri müzakirə edilib.

"Dövlət Nəzarəti İnformasiya Sistemi"-nin yaradılması haqqında AR Prezidentinin 2021-ci il 30 yanvar tarixli 1275 nömrəli Fərmanının icrasının təmin edilməsi çərçivəsində Administrasiyanın Dövlət nəzarəti məsələləri şöbəsi və McKinsey qlobal konsaltinq şirkəti ilə birlikdə "Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri" üzrə tədqiqat çərçivəsində əməkdaşlıq edilib.

Departamentin rəhbəri S.Əliyev Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasında Sosial Tədqiqatlar Mərkəzini təmsil edib.

BMT-nin İnkişaf Proqramı (UNDP) ilə COVID-19 pandemiyasının müəssisələrə təsiri barədə ümumölkə sorğusunun keçirilməsi ilə bağlı danışıqlar aparılıb.

## Elektron sorğu (e-sorğu) platforması və mobil tətbiq

Sosial-iqtisadi təhlil departamentinin təşəbbüsü ilə 2020 və 2021-ci illər ərzində Mərkəzin Nizamnaməsinin müvafiq müddəalarına *(1.1. müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən və 2.2.2. dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını təhlil etmək, proaktiv yanaşma əsasında müasir informasiya texnologiyaları və innovativ üsullar vasitəsilə rəy sorğuları keçirmək, ictimai fikri öyrənmək, təhlil etmək və təkliflər vermək, elmi araşdırmalar aparmaq və bu sahədə dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək)* əsaslanaraq AIST Group ilə birlikdə ölkəmizdə e-sorğuların keçirilməsi üzrə ilk mobil tətbiq hazırlanaraq test mərhələsinə gətirilmişdir. barometr.az adlı Android və İOS əməliyyat sistemlərini dəstəkləyən və eləcə də eyni internet ünvanına inteqrasiya olunmuş veb portal (www.barometr.az) müasir informasiya texnologiyaları və innovativ həllər ilə günlük ictimai rəyin öyrənilməsi əsasında e-vətəndaş iştirakçılığının təmin edilməsində müstəsna rola malik olacaqdır.

# Mediada çıxışlar

STM-in İdarə Heyətinin üzvləri və müvafiq departamentlərinin əməkdaşları mütəmadi olaraq ölkənin media qurumları tərəfindən ekspert kimi dəvət olunur, həm televiziya və radio efirində, həm də elektron və yazılı media orqanlarında fəal şəkildə çıxış edir, müsahibələr verirlər. STM-in əməkdaşları müxtəlif istiqamətlər üzrə ixtisaslaşdığı üçün fəaliyyət istiqamətləri də müxtəlifdir. Həm STM-in keçirdiyi rəy sorğuları və onların nəticələri, həm də ölkənin sosial, iqtisadi, siyasi həyatından bəhs edilən verilişlərdə Mərkəzin əməkdaşları ekspert kimi çıxış edirlər. Üç illik fəaliyyəti dövründə STM əməkdaşları mediada ümumilikdə 4000-dən çox müsahibə verib, çıxışlar ediblər.



















İLYAS HÜSEYNOV
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNİN BAŞ MƏSLƏHƏTÇİSİ






RƏHMAN RƏSULOV
SEYMUR ƏLİYEV
ELNUR ÇIRAQOV
GÜNDƏM


CANLI
AZ TV


ŞƏHLA VƏLİYEVA
ƏFQAN VƏLİYEV
KAAN SARIAYDIN
GÜNDƏM
17:40 KTMT: AZƏRBAYCANIN ERMƏNİSTANA ƏRAZİ İDDİASI YOXDUR
BAKI +14°C

*"Biz indi dünyada gedən proseslərə diqqətlə baxırıq və görürük ki, hansı ölkələr iqtisadi cəhətdən başqa ölkələrdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılıdırsa, o ölkələr müstəqil siyasət apara bilməz, o ölkələr bir növ böyük ölkələrin girovuna, alətinə çevrilir. O ölkələrin hökumətlərini bəzi hallarda öz xalqına, öz milli maraqlarına görə istifadə etmək üçün onlara təzyiq edilir və onlar bu təzyiqə davam gətirə bilmir. Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir. O cümlədən Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında, - mən bunu səsləndirdim, - hakimiyyətə olan inam baxımından biz dünya miqyasında ön sıralardayıq".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# STM-in dövri nəşrləri

- "İnam indeksi" jurnalı
- "Sosial tədqiqatlar" jurnalı
- "Azərbaycan barometri" jurnalı

# STM-in dövri nəşrləri

Nizamnaməsinə əsasən STM-ə xüsusi bülletenlər və digər nəşrlər çap etmək hüququ verilib. Bunu nəzərə alaraq Mərkəz elmi-akademik dairələrlə əməkdaşlıq əlaqələri qurmaq və fəaliyyət istiqamətlərini genişləndirmək məqsədilə 3 elmi jurnal təsis edib: "İnam indeksi", "Sosial tədqiqatlar" və "Azərbaycan barometri".

## "İnam indeksi" jurnalı

STM həm də beynəlxalq beyin mərkəzlərinin dünyada geniş yayılmış mövcud ənənələrindən və iş praktikasından, tətbiqlərindən faydalanaraq hakimiyyət institutları ilə bağlı ictimaiyyətin fikrini öyrənir. Bu baxımdan dövlət və vətəndaş arasında sağlam, etibarlı və dürüst əlaqələrin formalaşması məramından irəli gələrək STM hakimiyyət institutlarına ictimaiyyətin münasibətini vaxtaşırı test edir və eyni zamanda ölkə rəhbərinin aylıq fəaliyyəti barədə ictimai fikrin monitorinqini də aparır.

Bir az da konkretləşdirsək, STM yarandığı vaxtdan etibarən Prezident, Ali Baş Komandan İlham Əliyevin daxili və xarici siyasət sahəsindəki fəaliyyəti ilə bağlı ictimai rəy sorğularının keçirilməsi əsasında analitik hesabatlar təqdim edir. Sorğular Azərbaycanda davamlı aparılması baxımından ilk dəfə olmaqla yanaşı, dünya təcrübəsində "İnam indeksi" kimi məlum olan, dövlət başçılarına ictimai rəydə etibar, dəstək reytinqlərini müəyyən edən tədqiqatlarda tətbiq edilən elmi metodlarla aparılır. Bu silsilədən olan tədqiqatlarda əsas məqsəd ictimai rəydə Prezidentin fəaliyyətinə münasibəti operativ öyrənmək, çevik dəyərləndirmək, rüblük monitorinqlərin nəticələrini müqayisəli təhlil etməklə ictimai rəyin dinamika və tendensiyalarını izləməkdir.

Bu vaxta qədər "Prezidentin fəaliyyəti ictimai rəydə: İnam indeksi" jurnalının 6 sayı çap edilib.

## "İnam indeksi" / 01




Jurnalın ilk xüsusi buraxılışı Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2019-cu ilin oktyabr ayındakı fəaliyyətinə həsr olunub və "Prezidentin fəaliyyəti ictimai rəydə" adı ilə çap edilib. Anket suallarında Prezidentin oktyabrın 3-də "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı zamanı "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi, oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçılarının Sammitindəki, oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündəki və oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə görüşündəki çıxışları, Prezidentin oktyabr ayında həyata keçirdiyi struktur və kadr islahatlarından respondentlərin gözləntiləri, qeyri-neft sektoru ilə bağlı müvafiq hökumət strukturlarının fəaliyyəti və s. mövzular əhatə olunub. Bu sayda həmçinin Prezidentin müxtəlif istiqamətlərdə - ordu quruculuğu, kadr islahatları, korrupsiyaya qarşı mübarizə, ictimai-siyasi sabitlik, təhlükəsizlik və xarici siyasət, səhiyyə, hüquq-mühafizə və məhkəmə sisteminin modernləşdirilməsi, so-

sial rifahın, iqtisadi və regional inkişafın təmin edilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi, pandemiya ilə mübarizə istiqamətlərində çoxşaxəli fəaliyyəti qiymətləndirilib.

Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1316 respondent iştirak edib. Sorğu 14 "ASAN xidmət" mərkəzində (1,2,3,4 saylı Bakı və Sumqayıt, Bərdə, Gəncə, Sabirabad, İmişli, Mingəçevir, Masallı, Quba, Qəbələ, Şəki "ASAN xidmət" mərkəzləri) keçirilib. Regional "ASAN xidmət" mərkəzlərinin seçilməsində məqsəd ölkə üzrə əhatəliliyi təmin etmək olub. Belə ki, müvafiq bölgə üzrə regional "ASAN xidmət" mərkəzlərinə həmin ərazinin vətəndaşları ilə yanaşı, ətraf rayonların sakinləri də xidmət üçün müraciət edirlər. Respondentlərin seçimi təsadüfi qaydada aparılıb. STM intervüyerləri şəxsiyyət vəsiqəsi, kommunal və notarius xidmətlərindən istifadə etməyə gəlmiş hər ikinci vətəndaşa yaxınlaşıb.

Bu üç xidmətin seçilməsində məqsəd təsadüfiliyi – reprezentativliyi təmin etmək olub. Çünki bu xidmətlərdən əhalinin bütün sosial-demoqrafik qruplarının istifadə etmək ehtimalı bərabərdir. Statistik xəta əmsalı 3%-dir.

Sahə işi 2019-cu ilin oktyabrın 29-dan noyabrın 5-dək olan dövrdə keçirilib. Sorğunun bu müddətdə keçirilməsinin səbəbi vətəndaşların oktyabr ayı üçün rəyinin ətraflı şəkildə öyrənilməsini təmin etmək olub.

Anket 13 əsas, 5 demoqrafik sualdan ibarət olub.

Aparılmış sorğunun nəticələrinə əsasən bu qənaət gəlmək olur ki, 2019-cu ilin oktyabr ayında baş verən hadisələri respondentlərın mütləq əksəriyyəti vacib hesab edir. Bu hadisələr arasında ən çox rəğbət doğuranlar Prezidentin "Valday" Beynəlxalq Diskussiya Klubunda cıxışı və Aşqabadda Ermənistanın faşizmi qəhrəmanlaşdırmasına kəskin etiraz nitqi olmuşdur.

Prezidentin ordu quruculuğu, xarici siyasət və kadr islahatları istiqamətindəki fəaliyyəti respondentlər tərəfindən daha yüksək qiymətləndirilib. Sorğu iştirakçıları təhlükəsizlik və Silahlı Qüvvələr məsələsinə daim həssaslıq göstərirlər.

Respondentlərin nəzərində oktyabr ayında başlanan islahatların uğurla həyata keçirilməsinə əsas maneə məmurlar, yerli hakimiyyət orqanları və bəzi dövlət qurumlarının laqeyd yanaşmasıdır. Başqa sözlə, sorğuda iştirak edənlərin müəyyən bir hissəsi bu qənaətdədir ki, islahatların uğurlu icrası üçün dövlət qurumlarının özlərinin fəaliyyətində dəyişiklik olmalıdır.

Kadr və struktur islahatları respondentlərin böyük əksəriyyətinin gözləntilərini doğruldub və onların əsas gözləntiləri gənc nəsil üçün yeni perspektivlərin və imkanların yaradılması olub.

Ölkə Prezidentinin fəaliyyətində ictimai rəyin rolunun yüksək olması sorğunun nəticələri ilə təsdiqini tapıb və bu fikir aparılan kadr islahatlarına da aid edilib.

Beləliklə, əhali 2019-cu ilin oktyabr ayında Prezidentin daxili və beynəlxalq müstəvidəki fəaliyyətini yüksək qiymətləndirib, ona olan etimadın artdığını qeyd edib.

## "İnam indeksi" / 02




Təqdim edilən növbəti hesabat 2020-ci ilin ilk rübünü (yanvar-mart aylarını) əhatə edib. Sosioloji sorğu əsaslı bu analitik hesabatın məqsədi bəhs edilən müddətdə dövlət başçısının daxili və xarici siyasətinin başlıca məqamları, ölkədəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin vəziyyəti ilə bağlı xalqı-

mızın rəyinin operativ öyrənilməsi, qanunverici, icraedici hakimiyyət və hüquq-mühafizə sistemində gedən proseslərə cəmiyyətin münasibətini çevik dəyərləndirməklə ümumi mənzərənin göz önündə canlandırılması, müvafiq qərarların qəbulunda mötəbər mənbə kimi həm də ictimai rəyə istinad edilməsinə şərait yaratmaq olub.

Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib. Sorğu klaster seçmə metoduna əsaslanıb. Ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib. Sorğunun nəticələri 95% əminlik intervalı, statistik xəta əmsalının 3% olması nəzərə alınaraq təhlil edilib.

Sahə işi 2020-ci ilin mart ayı ərzində aparılıb. Sorğu Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran iqtisadi-coğrafi rayonlarında aparılıb.

Anket 18 əsas, 4 demoqrafik sualdan ibarət olub. Suallar əsasən bu istiqamətlərdə olub:

- Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinin dəyərləndirilməsi;
- Prezidentin beynəlxalq arenada Ermənistanın işğalçı mövqeyi və Dağlıq Qarabağ problemi barədə çıxışları;
- Əhalinin yerli icra hakimiyyəti orqanlarında aparılan kadr dəyişikliklərinə münasibəti;
- Əhalinin Prezidentə olan inam və etibarının dinamikası.

Sorğunun nəticələrinin təhlili göstərir ki, Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə davam edib. Hakimiyyətin digər qolları (qanunverici və məhkəmə hakimiyyəti) ilə müqayisədə respondentlərin mütləq əksəriyyəti Prezidentə etibar edir.

Ölkə başçısının hərbi, siyasi, sosial-iqtisadi, ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi, xarici siyasət sahələrindəki fəaliyyəti respondentlərin mütləq əksəriyyəti tərəfindən daha çox təqdir edilib.

2020-ci ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransındakı çıxışında ("Valday" Beynəlxalq Diskussiya Klubunda Prezidentin çıxışının davamı kimi) Ermənistanın baş nazirini və işğalçılıq siyasətini tarixi həqiqətlərlə ifşa etməsi ictimai rəydə vətəndaşların Prezidentə olan münasibətinə müsbət təsir göstərməklə bərabər, ərazi bütövlüyümüzün bərpa edilməsinə olan inamı da artırıb. Prezidentin Münhen Təhlükəsizlik Konfransındakı çıxışı Ermənistanın baş nazirinin növbəti dəfə aciz duruma düşməsi, Prezidentin növbəti diplomatik qələbəsi, Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni bir mərhələ kimi qiymətləndirilib.

COVID -19 pandemiyasının və eləcə də qlobal neft böhranının (neft qiymətlərindəki kəskin eniş) dərinləşdiyi bir dövrdə ölkədə ərzaq təhlükəsizliyi ilə təminat sahəsində reallaşdırılmış genişmiqyaslı işləri vətəndaşlar yüksək dəyərləndirib. Respondentlər ölkə Prezidentinin milli genofondun qorunması, sosial səhiyyə və sağlamlığın daha da möhkəmləndirilməsi məsələlərinə xüsusi həssaslıqla yanaşmasını, daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir ediblər.

Respondentlərin nəzərində Prezidentin yerlərdə baş verənlərlə bağlı məlumatlılığı onun qərar qəbul etməsində əsasən qanunazidd hərəkətlərə yol verən məmurların cəzalandırılmasında, korrupsiyaya qarşı mübarizədə və kadr islahatlarında özünü büruzə verir.

Əhalinin böyük əksəriyyəti tam əminliklə bu qənaətdə olublar ki, yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən vəzifədən azad edilməsində ictimai fikrin birbaşa təsiri var.

İslahatlar və korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən yerli icra başçılarına qarşı aparılan əməliyyatlar xüsusilə regionlarda yaşayan vətəndaşlarda müsbət gözləntilərin yaranmasına səbəb olub. Bəzi hallarda vəziyyətin dəyişməyəcəyini, məmur özbaşınalığının davam edəcəyini düşünənlərin belə fikirləri dəyişməkdədir. İnsanlar bu kimi addımları da islahatların əsas qolu kimi qiymətləndirir və bunun davamlı olmasını arzulayırlar.

Həyata keçirilən kadr dəyişiklikləri vətəndaşların əsaslı hissəsinin nəzərində Prezi-

dentin nüfuzuna müsbət təsir göstərən əsas amillərdən biridir.

Respondentlər Prezidentin təhlükəsizlik orqanlarında həyata keçirdiyi kadr dəyişikliklərinin ümumi islahatların effektivliyinə, milli təhlükəsizliyin gücləndirilməsinə, xalqın təhlükəsizlik orqanlarına olan inamına müsbət təsir edəcəyi fikrindədir.

Sorğunun nəticələri göstərir ki, icra hakimiyyəti və məhkəmə hakimiyyətində islahatların aparılması əhali tərəfindən ən çox ehtiyac duyulandır.

Rəyi soruşulanların əksəriyyətinin nəzərində “Prezidentin çıxışlarında bütün hakimiyyət təmsilçilərinə xalqa xidmət etməyi və xalqa yaxın olmağı tapşırması” ölkə başçısının nüfuzuna ən çox təsir göstərən amil kimi irəli çıxır ki, bu da məmurların cəzalandırılması və kadr dəyişikliklərinin vətəndaşlar üçün mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Respondentlərin mütləq əksəriyyəti Prezidentin öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnək olması fikrindədir.

## “İnam indeksi” / 03

Sosioloji sorğu əsasında hazırlanmış və 2020-ci ilin ikinci rübünü - aprel-iyun aylarını əhatə edən bu analitik hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb. 2020-ci ilin aprel-iyun ayları bütün dünyada koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində keçib. Bu dövrün özəl xüsusiyyəti ondan ibarətdir ki, bütün dünyada pandemiya milli siyasi liderlik fenomeninin, liderlərin şəxsiyyət və keyfiyyətlərinin qlobal “stress-testinə” çevrildi.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bütün antiböhran fəaliyyətin məzmunu - iqtisadi dəstək proqramları, sosial paketlərdən tutmuş səhiyyə infrastrukturunun adaptasiya və modernləşməsinə, yeni klinikaların inşasına qədər həyata keçirilən bir çox tədbirlər məhz vətəndaşın ali dəyər kimi mərkəzdə durmasına xidmət edir.

Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev pandemiya ilə mübarizədə yalnız milli birlik və həmrəylik sahəsində deyil, qlobal həmrəyliyin də strateji təşəbbüs kimi irəli sü-




rülməsinin müəllifidir. Prezidentin bu təşəbbüsü ÜST rəhbərliyi, BMT, Aİ və s. beynəlxalq təşkilatlar, eləcə də müxtəlif dövlətlərin siyasi liderləri tərəfindən yüksək dəyərləndirilib.

Hesabat dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşü videokonfrans vasitəsilə baş tutub. Bu, dünya miqyasında COVID-19 pandemiyasına həsr olunmuş ilk Zirvə görüşü olub. Koronavirusla mübarizə istiqamətində ilk beynəlxalq platformanın yaradılması istiqamətində addım məhz Prezident İlham Əliyev tərəfindən atılıb. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşü keçirilib. Həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib. Suma Çakrabarti vurğulayıb ki, Azərbaycan yoxsulluğun səviyyəsinin aşağı salınması tempinə görə dünyanın ən yaxşı göstəricilərindən birinə malikdir.

Beləliklə, Prezident İlham Əliyevin strateji liderlik və böhran idarəçiliyi keyfiyyətləri sayəsində 2020-ci ilin 2-ci rübü ərzində fəaliyyətinin istisna olmadan bütün sahələrində mühüm nailiyyətlər qazanılıb,

Qlobal böhran və aşağı neft qiymətləri şəraitində vətəndaşların sağlamlığı, sosial-iqtisadi inkişafın dayanıqlılığı, ictimai-siyasi sabitlik mühiti təmin edilib. Dövlət başçısının dəyişməz siyasi kursu - dayanıqlı iqtisadi müstəqillik təməli üzərində qurulmuş sarsılmaz siyasi müstəqillik prinsipi milli birliyin təminatına zəmin formalaşdırıb, yaşanan çoxşaxəli qlobal böhrandan Azərbaycan Respublikasının qarşıdakı dövrdə də minimum itkilərlə çıxmasına ictimai rəydə əminlik yaradıb. Təqdim edilən “İnam indeksi” – ictimai rəy sorğusuna əsaslanan analitik hesabatda bu qənaət təsdiqini tapıb.

Sorğu çərçivəsində Bakı, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları əhatə olunmaqla ümumilikdə 1212 respondentin rəyi öyrənilib.

Tədqiqat çərçivəsində respondentlərin seçiminin ilk mərhələsində hər iqtisadi rayon üzrə sorğuda iştirak edəcək respondent sayı müəyyənləşdirilib. Sorğu stasionar telefon nömrələri vasitəsilə həyata keçirilib.

Tədqiqatın keçirilməsində kəmiyyət metodundan, analitik təhlildə isə müşahidə və müqayisəli təhlil metodlarından istifadə edilib.

Sorğu sualları Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsində təsbit edilmiş Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin müxtəlif kombinasiyalarda qruplaşdırılaraq təqdim edilən 25 əsas və 7 sosial-demoqrafik sualdan ibarət olub. Suallar ölkə əhalisinin Prezidentin ayrı-ayrı strateji istiqamətlər üzrə cari dövr ərzində gördüyü sistemli işlərə vətəndaş münasibətini müəyyənləşdirmək məqsədilə tərtib edilib.

Sahə işi sorğu planına uyğun olaraq 25-29 iyul 2020-ci il tarixlərində keçirilib.

Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibə üsulundan istifadə olunub.

## “İnam indeksi” / 04




“İnam indeksi”nin 4-cü sayında 2020-ci ilin son rübündə - müasir tariximizin Zəfər salnaməsinin yazıldığı Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyevin fəaliyyətinə ictimai münasibətin nəticələri əksini tapıb və “Vətən müharibəsi dövründə Ali Baş Komandanın fəaliyyəti ictimai rəydə” adlanır.

Sözügedən dövrdə Azərbaycanın siyasi liderinin milli maraqlara və siyasi iradəsinə əsaslanan qərarları sayəsində müstəqil dövlətçiliyimizin tarixində yeni-şanlı Zəfər səhifələri yazıldı. Müvafiq olaraq, Prezidentin fəaliyyəti ilə bağlı ictimai rəydə inam və etimad daha da yüksəldi.

Təqdim edilən rəy sorğusunda respondentlərə aşağıdakı istiqamətlər üzrə suallar ünvanlanıb:

- Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi;
- Qarabağın hərbi yolla azad edilməsinə inamın əsasında duran amillərin öyrənilməsi;
- Vətən müharibəsində qələbəmizi təmin

edən əsas amillərin dəyərləndirilməsi;

- 2020-ci ildə ölkə başçısının fəaliyyətində daha çox təqdir edilən və təqdir edilməyən məqamlar;

- Müharibə və pandemiya dövründə əhalinin hiss etdiyi əsas təhlükələrin öyrənilməsi.

Bu sorğunun əvvəlkilərlə müqayisəli təhlili ictimai rəydə Prezidentə inamın dinamikasının indiyə qədər heç vaxt bu qədər yüksək olmadığını aşkara çıxarıb. Dövlətlərin qazandığı uğurlarla siyasi liderlərə yüksələn xətt üzrə artan inamın mütənasiblik təşkil etməsi kimi sosioloji qanunauyğunluq bu hesabatda bir daha əsaslı təsdiqini tapıb.

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında aparılıb.

Sorğuda təsadüfi üsulla seçilmiş 1217 respondent iştirak edib.

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibəsi üsulundan və SurveyToGo proqramından istifadə edilib. Sahə işi 2020-ci ilin 6-13 dekabr tarixlərində aparılıb.

Sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyevin həm Vətən müharibəsi dövründə, həm də ümumilikdə 2020-ci ildəki fəaliyyəti əhali tərəfindən səmərəli qiymətləndirilib. 2020-ci il COVID-19 pandemiyası fonunda bütün dünyada olduğu kimi Azərbaycanda da çətinliklərin yaşandığı il oldu. Buna baxmayaraq, 2020-ci il Azərbaycan dövlətinin tarixində torpaqlarımızın işğaldan azad olunması nəticəsində zəfər tarixi olaraq yaddaşlara həkk olundu. Bu qələbənin əsasında ölkə başçısının geosiyasi vəziyyəti düzgün dəyərləndirməsi, resurslardan düzgün istifadəsi, diplomatik bacarıqları dayanır. Müsbət haldır ki, ölkə əhalisi Prezidentin bu fəaliyyətini təhlil edə bilir və müsbət dəyərləndirir. Torpaqlarımızın işğdaldan azad olunması həm də əhalidə ölkə başçısından növbəti illər üçün yeni gözləntilər yaradıb.

Ali Baş Komandanın son 200 ildə itirilmiş torpaqlarımızı Vətən müharibəsində ilk dəfə işğaldan azad etməsi 2020-ci ildə ölkə başçısının fəaliyyətinin ən uğurlu nəticəsi kimi mütləq əksəriyyət tərəfindən təqdir edilib.

2020-ci ildə də davam etdirilən kadr islahatları və korrupsiyaya qarşı qəti mübarizə çərçivəsində Prezidentin təqdir olunan digər fəaliyyəti - qanunazidd fəaliyyətlərə yol verən bir sıra icra hakimiyyəti başçılarının, yüksək vəzifəli şəxslərin vəzifədən uzaqlaşdırılması əhalinin əhəmiyyətli hissəsi tərəfindən rəğbətlə qarşılanıb.

Cəbhədə qazanılan zəfərlərlə bağlı Prezidentin xalqa daim qələbə müraciətləri etməsi təxminən hər üç respondentdən ikisinin rəğbətinə səbəb olub.

Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründə dünyanın aparıcı media orqanlarına müsahibələrini və milli maraqlarımızın müdafiəsinə əsaslanan hücum diplomatiyasını hər üç respondentdən ikisi təqdir edib.

Prezident İlham Əliyevin korrupsiyaya qarşı mübarizəni gücləndirməsi və bu istiqamətdə sərgilədiyi sərt mövqe əhalinin mühüm hissəsi tərəfindən rəğbətlə qarşılanıb.

2020-ci ilin əsas qayğılarından biri yeni nəsil koronavirus fonunda əhalinin sağlamlığının qorunması ilə bağlıdır ki, əhalinin mütləq əksəriyyəti Prezidentin bu istiqamətdə gördüyü işləri səmərəli qiymətləndirib.

Müharibə dövründə vətəndaşların özlərinə qarşı gözlədikləri iki təhlükə - Ermənistanın terror hücumuna və müharibə cinayətlərinə məruz qalma halları olub.

Hər üçüncü respondent belə düşünür ki, Ali Baş Komandan genişmiqyaslı müharibənin davam etdirilməsində öz qətiyyətinə və strateji təfəkkürünə etibar edib.

Rəyi öyrənilənlərin əsaslı hissəsi belə düşünür ki, 10 noyabr tarixində imzalanmış bəyanat itki vermədən 3 rayonun işğaldan azad olunması ilə səciyyələnib. Digər tərəfdən isə təxminən eyni sayda respondent yuxarıdakı fikirləri təsdiq edərək üçtərəfli bəyanatın Azərbaycanın həm hərbi, həm də siyasi qələbəsini ifadə etdiyini bildirib.

Respondentlərin əhəmiyyətli hissəsi əvvəlki dövrlərlə müqayisədə müharibə dövründə ölkəmizin beynəlxalq informasiya məkanındakı mövqeyini müsbət qiymətləndirib.

Prezidentin yenidənqurma planları ilə bağlı

bəyan etdiyi təşəbbüslərə münasibət bildirən respondentlərin fikri bizə onu deməyə əsas verir ki, işğaldan azad olunmuş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara inam mütləq çoxluqda müşahidə edilməkdədir.

Respondentlərin postbərpa işlərindən sonra region, eləcə də ölkəmiz üçün yeni mərhələdən əsas gözləntiləri məşğulluq və rifahın artacağı, yeni iqtisadi perspektivlər üçün zəminin yaranacağı və II Qarabağ müharibəsinin dondurulmuş münaqişələrin həlli istiqamətində presedent olacağı yönündədir.

## "İnam indeksi" / 05

STM tərəfindən 1-12 aprel 2021-ci il tarixlərində keçirilmiş sorğunun - ictimai rəyin rüblük monitorinqinin nəticələri göstərir ki, Prezident İlham Əliyevin 2021-ci ilin yanvar-mart ayları ərzində xüsusilə postmüharibə dövründə beynəlxalq və daxili müstəvidəki fəaliyyəti əhali tərəfindən milli maraqların qorunması, ümummilli rifahın, sülhün və təhlükəsizliyin, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin olunması məqsədilə davamlı işlərin həyata keçirilməsi, regional əməkdaşlığın inkişaf etdirilməsi, siyasi qüvvələr arasında dialoq mühitinin yaradılması, 2019-cu ildən başlayan genişmiqyaslı islahatların davam etdirilməsi baxımından olduqca təsirli və əhəmiyyətli hesab olunur.

Təqdim edilən rəy sorğusunda respondentlərə aşağıdakı istiqamətlər üzrə suallar ünvanlanıb:

❑ Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi;

❑ Müasir idaəetmənin əsas prinsiplərindən biri kimi islahatların ictimai rəydə dəyərləndirilməsi;

❑ Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərlərinə və Böyük Qayıdış planlarına/təşəbbüslərinə ictimai münasibət;

❑ Əhalinin Vətən müharibəsindən sonrakı dövr üçün əsas gözləntilərinin müəyyənləşdirilməsi;

❑ Prezidentin media nümayəndələrinə müsahibələrinin və media sisteminin təkmilləşdirilməsi məqsədilə aparılan islahatların səmərəliliyinin öyrənilməsi;




❑ Prezidentə inam və etimadın dinamikasının müəyyənləşdirilməsi;

❑ Prezidentin təşəbbüsü ilə siyasi qüvvələr arasında dialoq mühitinin yaradılması və siyasi partiyalar sistemində baş verən dəyişikliklərin dəyərləndirilməsi;

❑ Beynəlxalq təşkilatların fəaliyyətinə ictimai münasibətin öyrənilməsi.

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon (Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran) üzrə aparılıb. Ümumilikdə 1191 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş regionlar sorğuda əhatə edilməyib. 18 yaşdan yuxarı əhali qrupları üzrə çoxpilləli stratifikasiya seçmə metodu ilə təsadüfi seçmə aparılıb, yaş və gender balansı qorunub. Seçmənin sayı əsasında statistik xəta əmsalı 2,8%, əminlik dərəcəsi 95%-dir. Sahə işi 2021-ci ilin 01-12 aprel tarixlərində aparılıb. Sorğunun keçirilməsində üz-üzə anket üsulundan istifadə edilib.

Tədqiqatda bu qənaətə gəlinir ki, 44 günlük Vətən müharibəsinin doğurduğu reallıqlar bir daha göstərdi ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə diplomatiya təcrübəsində yeni metodlardan geniş istifadə

etməklə qələbəmizi şərtləndirən və sonrakı dövrdə möhkəmləndirən bir sıra uğurlara imza atılmışdır. Bu siyasətin təməli sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq kimi əsas prinsiplərdən, Azərbaycan xalqının milli maraqlarına uyğun olan ardıcıl və açıq siyasət yürüdülməsindən ibarətdir. Müsbət haldır ki, əhali Prezidentin müharibədən sonrakı dövrdə də bu mövqeyini yüksək qiymətləndirir və təqdir edir.

## “İnam indeksi” / 06




İctimai rəy sorğusu təqvim etibarilə mühüm tarixi məqama - postmüharibə dövrünə, Qarabağın bərpa və quruculuq mərhələsinə təsadüf edib və 2021-ci ilin aprel-noyabr aylarını əhatə edib. Ötən bir neçə il ərzində dövlət başçısının siyasi iradəsi ilə aparılan genişmiqyaslı struktur və kadr islahatları yeni hakimiyyət quruculuğu kimi xarakterizə olunarkən, müharibədən sonrakı tarixi keçid qalib dövlət və cəmiyyət həyatı üçün yeni dövrün başlanğıcı kimi səciyyəvidir. Bu dövr ərzində Azərbaycan xalqı siyasi liderinin milli maraqlara və qətiyyətli iradəyə əsaslanan qərarları sayəsində Qarabağda əldə edilən şanlı Zəfərin siyasi, diplomatik, hüquqi, hərbi strateji və informasiya müstəvilərində ardıcıl və davamlı möhkəmləndirilməsinin, qələbəmizin beynəlxalq və qlobal miqyasda özünütəsdiqinin şahidi olub. Yeni dövrün siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan müxtəlif aktual hadisələri, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri, beynəlxalq və yerli əhəmiyyətli bir sıra tədbirlər, ictimai əhval-ruhiyyə, Prezidentə inam və etimadın dinamikası, dövlət başçısının müxtəlif istiqamətlərdə fəaliyyəti rəy sorğusunda əhatə olunub.

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyasından istifadə edilib. Sorğu Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonları üzrə keçirilib və 1162 respondentin rəyi öyrənilib.

Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin çoxpilləli stratifikasiya yanaşmasından istifadə edilib ki, bu da hər bir vətəndaşa bərabər səviyyədə iştirak imkanı yaradıb.

Respondentlərin seçimində sosial-demoqrafik göstəricilərə xüsusi diqqət yetirilərək, proporsionallıq təmin edilib. Belə ki, sorğuda hər bir sosial-demoqrafik qrupun (gender və yaş) çəkisi onların ölkə üzrə sayına mütənasib qaydada müəyyənləşdirilib. Beləliklə, rəyi öyrənilənlərin 51,2%-i kişi, 48,8%-i qadınlardan ibarət olub. Yaş qrupları üzrə isə 56-65 yaş qrupundan olanlar nisbi üstünlük təşkil edib (23,1%). Sorğuda əhatə olunan respondent sayına (1162 nəfər) əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 2.9% təşkil edir.

Sorğu anketi 37 (33 spesifik və 4 sosial-demoqrafik) sualdan ibarət olub. Suallar əsasən Prezidentə inam və etimadın ölçülməsi, Prezidentin səfərlərinə, görüşlərinə, müsahibələrinə münasibət, Qarabağda quruculuq və bərpa proseslərinə ictimai mövqe, müxtəlif istiqamətlərdə fəaliyyətin dəyərləndirilməsi, postmüharibə dövründə ictimai, sosial-iqtisadi vəziyyət və əsas gözləntilər, Prezidentin

fəaliyyətinə dair informasiya mənbələrini öyrənmək hədəflərində hazırlanıb.

Sahə işi 2021-ci ilin 22 noyabr – 2 dekabr tarixlərində keçirilib.

Keçirilən əvvəlki sorğuların və cari sorğunun nəticələrinin təhlili Prezident amilinin Azərbaycan cəmiyyətində, ictimai təfəkkürdə ümummilli maraqlar baxımından birləşdirici, uzlaşdırıcı əsas güc mərkəzi olduğunu göstərir. Bu sorğuda əldə edilən nəticələr dövlət başçısının fəaliyyətinə ictimai münasibətin ötən dövrlə müqayisədə ən yüksək göstəriciləri olduğunu deməyə əsas verir. Bu nəticələrdə ölkə rəhbərinin birbaşa müşahidəsi, nəzarəti altında azad olunmuş ərazilərin bərpası və quruculuq tədbirləri, həyata keçirilən uğurlu investisiya layihələri, keçmiş qaçqın və məcburi köçkünlərlə mütəmadi görüşləri, çoxsaylı ölkədaxili və xarici işgüzar səfərləri, milli maraqları üstün tutan prinsipial mövqeyi, informasiya cəbhəsində, müxtəlif platformalarda işğalın nəticələrini və regionda vəziyyəti əks etdirən çıxışları, digər istiqamətlərdə fəaliyyəti mühüm faktor kimi çıxış edir.

Postmüharibə dövrünün ilk ili kimi xarakterizə edilən 2021-ci il dövlət başçısının fəaliyyətində, həmişə olduğu kimi, öz dinamikliyi və aktivliyi ilə xarakterikdir. Təkcə ilin əvvəlindən dekabr ayına qədər olan dövrdə dövlət başçısı tərəfindən ictimaiyyətə açıq məlumatlara əsasən beynəlxalq və yerli səviyyəli 60-dan çox görüş və səfər, 40-dan çox müşavirə, müsahibə və mətbuat konfransı səviyyəli tədbirlərdə çıxış, 100-dən artıq qəbul, xarici ölkə başçıları və rəsmiləri ilə 40-dan artıq telefon danışığı, əsas hissəsi işğaldan azad olunan əraziləri əhatə etməklə 120-dən çox təməlqoyma və açılış mərasimi həyata keçirilib.

Hesabatda qeyd olunur ki, 2021-ci il ölkədə xarici siyasət strategiyasının uğurla davamı, eləcə də postmüharibə şəraitinin yaratdığı yeni geosiyasi konfiqurasiya baxımından növbəti irəliləyişlərin, müsbət dəyişikliklərin başlanğıcı hesab oluna bilər. Bu baxımdan Prezidentin xarici siyasət istiqamətində fəaliyyəti mühüm əhəmiyyət kəsb etməklə, burada xüsusi aktuallıq daşıyan müəyyən hadisələrə yer verilməsi məqsədəuyğun hesab olunur. 2021-ci il ərzində dövlət başçısının xarici siyasət üzrə fəaliyyəti çoxşaxəli olmaqla, xüsusən ötən il qazanılan hərbi-siyasi qələbənin beynəlxalq arenada və diplomatik masada möhkəmləndirilməsi ilə səciyyəvidir. Dövlət başçısı tərəfindən 2021-ci ilin əvvəlindən keçirilən 100-dən artıq qəbulun əksəriyyəti xarici siyasət istiqamətli olub.

Prezident İlham Əliyevin sistemli və çoxşaxəli inzibati-siyasi islahatlarının nəticəsi olaraq iqtidar-müxalifət dialoqu, yeni siyasi konfiqurasiya qurulub, siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirilib və hər bir görüşün nəticələri təhlil olunaraq irəli sürülən təkliflər öyrənilib, həmçinin “Siyasi partiyalar haqqında” yeni qanun layihəsinə dair siyasi partiyalar tərəfindən təqdim olunmuş təkliflər müzakirə edilib.

2021-ci ildə də ölkədə iqtisadi və siyasi islahatların sinxron-paralel aparılması diqqət mərkəzində saxlanılıb. Prezidentin fəaliyyətinin əsas konturlarından biri də kadr islahatlarının davam etdirilməsi olub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi ekspertlər tərəfindən yerli idarəetmənin iqtisadi rayonlar üzrə transferi baxımdan yeni yanaşma kimi də qiymətləndirilir.

Beləliklə, rəy sorğusunun nəticələrinə əsaslanaraq bu qənaətə gəlinib ki, respondentlərin ölkə həyatında müxtəlif aktual məsələlərlə, yaxud dövlət qurumlarının fəaliyyəti ilə bağlı mövqeləri bu və ya digər dərəcələrdə fərqlənərkən, Prezidentə inam və etimadda birləşir, vahidlik, monolitlik təcəssüm etdirir. Sorğunun nəticələri Prezidentə ictimai inam və etimadın yüksək olduğunu deməyə əsas verir.

**Qeyd edək ki, “Prezidentin fəaliyyəti ictimai rəydə: İnam indeksi”nin hər bir sayının hazırlanmasında STM-in İctimai rəyin öyrənilməsi, Daxili siyasətin təhlili və Sosial-iqtisadi təhlil departamentlərinin əməkdaşları birgə iştirak ediblər.**

**İctimai rəy sorğuları əsasında hazırlanmış hər bir hesabatın (“İnam indeksi”nin) nəticələri brifinq formatında mətbuat vasitəsilə ictimaiyyətə açıqlanıb.**

# "Sosial tədqiqatlar" jurnalı




"Sosial tədqiqatlar" jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4248 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib. 2021-ci ilin mart ayında mərkəzi Fransanın Paris şəhərində yerləşən Beynəlxalq Serial Nəşrlərin Qeydiyyatı Mərkəzi tərəfindən "Sosial tədqiqatlar" jurnalına Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN 2788-8789) ilə bağlı sertifikat verilib.

Jurnalda əsasən sosiologiya, psixologiya, iqtisadiyyat, hüquq və fəlsəfə kimi ictimai və humanitar elm sahələrinin ümumkonseptual məsələlərini elmi-metodoloji cəhətdən ifadə edən, müəlliflərin yeni ideya və yanaşmalarını əks etdirən elmi-analitik məqalələrin, yeni nəşrlərə dair diskussiya məzmunlu rəy və şərhlərin dərcinə üstünlük verilir.

Müstəqil, resenziyalı, beynəlxalq redaksiya heyətli elmi nəşrdir. İl ərzində 4 sayı çap edilir. Jurnalda Azərbaycan, ingilis və rus dillərində məqalələr dərc edilir. Jurnalın Redaksiya Heyətinin müəyyənləşdirdiyi əsas məqsədlərdən biri Azərbaycandan və başqa ölkələrdən olan tədqiqatçılara öz elmi təhlillərinin nəticələrinin dərc edilməsi üçün beynəlxalq platformanın formalaşdırılmasıdır.

Jurnalın əsas başlıq-rubrikaları qismində daimi olaraq STM-in Nizamnaməsində müəyyən edilən sosial tədqiqatların nəzəriyyə və metodlarına, cəmiyyətdə gedən aktual ictimai-siyasi proseslərin dinamikası və meyillərinə, sosial dövlət quruculuğunda dövlət-vətəndaş münasibətləri məsələlərinə, sosial təhlil, diaqnoz və proqnoz məzmunlu problemlər əhatə edilir.

Nisbətən yeni sayılan elmi istiqamətlər - sosial şəbəkələrin və müasir informasiya texnologiyalarının təhlili, elm və texnologiya araşdırmaları (Science And Technology Studies (STS), müqayisəli (komparativ) sosiologiya kimi sahələr daxil olmaqla sosial-humanitar tədqiqatların ən dinamik inkişaf edən sahələri də önəm verilən prioritetlər sırasındadır.

Jurnal həm də sosial tədqiqatlar sahəsində yeni fikirlərin, yanaşmaların, məlumatların müzakirəsi üçün açıq bir platforma olmaq imkanıdır. Redaksiya Heyəti "Müzakirə-Polemika", "Sosial publisistika ", "Özəl baxış", "Sosial kommunikasiya" və s. başlıqlarla Azərbaycanda müasir tədqiqatçı və sosioloqların yetişdirilməsinin aktual, dünya ilə müqayisəli məsələlərini prioritet məsələ hesab edir. "Sosial tədqiqatlar" jurnalı bu sahə ilə bağlı istənilən innovativ fikir və təkliflər üçün açıqdır.

Jurnalın ilk sayı 2021-ci ildə çap olunub. Burada yerli və xarici müəlliflərin 15 məqaləsi 7 bölmədə oxucuların diqqətinə təqdim edilib.

Elmi jurnallara Ali Attestasiya Komissiyası tərəfindən verilən tələblərə uyğun olaraq, "Sosial tədqiqatlar" jurnalının Azərbaycan və ingilis dillərində veb saytı yaradılıb və oxucuların istifadəsinə verilib.

Jurnalın ilk sayının pdf versiyası həm Mərkəzin internet səhifəsinin (stm.az) "Nəşrlər" bölməsində (https://stm.az/az/page/41/sosial-tedqiqatlar-jurnali), həm də jurnalın öz internet səhifəsində (https://socialresearchjournal.az/index.php/2021/08/01/197/) yerləşdirilib.

"Sosial tədqiqatlar" jurnalı STM-in Daxili siyasətin təhlili departamenti (T.Allahyarova, A.Məmmədov) tərəfindən hazırlanır və çapa təqdim edilir.

# “Azərbaycan barometri” jurnalı

Nizamnaməsinə uyğun olaraq STM müxtəlif mövzularda ictimai rəyin öyrənilməsi məqsədi ilə sorğular hazırlayır, tədqiqatlar həyata keçirir. Bunu nəzərə alaraq “Azərbaycan barometri” jurnalında əsasən STM əməkdaşlarının və kənar ekspertlərin birgə hazırladıqları hesabatların və ictimai rəy sorğularının nəticələrinin dərcinə üstünlük verilir.

2019-2021-ci illəri əhatə dövrdə “Azərbaycan barometri” jurnalının 20 sayı çap edilib və aidiyyəti qurumlara paylanılıb. Jurnal 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**STM-in dövri nəşrləri (2019-2021)**

| Nəşrin adı | Çap olunmuş sayları |
|---|---|
| “İnam indeksi” | 6 |
| “Sosial tədqiqatlar” | 1 |
| “Azərbaycan barometri” | 20 |

# STM-in internet və sosial şəbəkə platformaları

- STM.az saytı
- STM TV
- Facebook, İnstragram, Tvitter səhifələri
- YouTube kanalı

# STM.az saytı

STM-in gündəlik fəaliyyətini, sorğu sənədlərini, hesabatlarını işıqlandırmaq, İdarə Heyəti və əməkdaşları barədə məlumatlar vermək, həyata keçirilən, reallaşdırılan tədqiqat sənədlərinin data-bazalarını yerləşdirmək və oxucular üçün informasiya resurslarını əlçatan etmək üçün 2019-cu ilin sentyabr ayından etibarən STM.az domeni ilə qurumun saytı fəaliyyətə başlayıb.

Saytdakı müxtəlif bölmələr daim yenilənir. Sayta hər gün yeni bir müəllif məqaləsi yüklənir. Həmçinin, Mərkəzin rəsmi nəşrləri olan "İnam indeksi", "Sosial tədqiqatlar" və "Azərbaycan barometri" jurnallarının pdf versiları saytda yerləşdirilir. Burada ictimai rəy sorğularının icmalı və məzmununa da rast gəlmək mümkündür.

STM.az artıq qurumun rəsmi saytı olmaqla yanaşı, içərisində dəyərli yazılar olan bir oxucu platformasına çevrilib. Saytda daim maraqlı tərcümələr də yer alır. STM-in elanları, tədbirləri, press-relizləri ilə sayt vasitəsilə tanış olmaq olar. Saytdakı "Ekspert rəyləri" və "Günün nəbzi" bölmələri vasitəsilə müxtəlif hadisələrlə bağlı aktual tərcümələr və şərhlər verilir.

Mətbuat xidmətinin əməkdaşları tərəfindən stm.az saytında indiyədək 750-dən çox material yerləşdirilib.



# STM TV

STM TV Sosial Tədqiqatlar Mərkəzinin onlayn media platformalarından biridir. STM TV-də 341 video yerləşdirilib, STM TV Youtube kanalının 2300-dən çox abunəçisi mövcuddur. Kanalda STM-in tədbirləri, videoqrafikaları, müxtəlif mövzular üzrə videoçarxlar, STM-in baş məsləhətçisi Tural İsmayılovun "Mediafon" verilişi, STM-in Mətbuat xidmətinin rəhbəri Əziz Əlibəylinin videomüsahibələri, xarici və yerli ekspertlərlə müxtəlif mövzularda təhlillər, müzakirələr yer alır. STM TV-də sosial, siyasi, iqtisadi proseslərlə bağlı ən aktual mövzular dəyərləndirilir, situativ küçə sorğuları həyata keçirilir.







SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ
STM TV






"İranın Azərbaycan siyasəti uğursuzdur"
Professor, tarixçi
Tural Ismayılov
Baş məsləhətçi/moderator




SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ
STM TV

# Facebook, İnstragram, Tvitter səhifələri

Mətbuat xidməti Mərkəzin rəsmi Facebook səhifəsində 800-dən çox, İnstagram səhifəsində 815, Tvitterdə isə 1000-dən çox paylaşım edib. Youtube kanalında yalnız Mərkəzin fəaliyyəti və keçirilən sorğular və hesabatlar haqqında məlumatlar deyil, eyni zamanda Mətbuat xidməti əməkdaşlarının hazırladıqları küçə sorğuları və ayrı-ayrı video-kontentlər (cəmi 342) də yer alıb.

| | | | |
|---|---|---|---|
| **800+** Facebook paylaşımı | **815** Instagram paylaşımı | **1000+** Twitter paylaşımı | **342** Youtube paylaşımı |









## YouTube kanalı



“İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər. Əsas vəzifələr bundan ibarətdir”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Kadr potensialı və pedaqoji fəaliyyət

# Təlim və seminarların təşkili

# Tərəfdaşlar




# Kadr potensialı və pedaqoji fəaliyyət

Mərkəz kadr potensialının formalaşdırılması ilə bağlı xüsusi yanaşma tətbiq edib, sosial tədqiqatlar sahəsində xüsusi biliyi, peşəkarlığı, akademik yanaşmaları, eyni zamanda analitik təfəkkürü yüksək, xarici dilləri mükəmməl şəkildə öyrənmiş mütəxəssisləri əməkdaşlığa cəlb edib. Mərkəzdə Azərbaycanın və xarici ölkələrin aparıcı universitetlərində təhsil almış ekspertlər çalışır. Mərkəz əməkdaşlarının əksəriyyətini gənclər təşkil edir.

Mərkəzin fəaliyyət istiqamətlərindən biri də sosial-iqtisadi tədqiqatlar sahəsində təcrübə və yeniliklərin gənclərə çatdırılmasıdır. Bu səbəbdən STM əməkdaşlarının respublikanın bir sıra ali məktəblərində pedaqoji fəaliyyətlə məşğul olmaları mühüm əhəmiyyət kəsb edir.



# Təlim və seminarların təşkili



Sosial Tədqiqatlar Mərkəzinin rəhbərliyi tərəfindən kadr potensialının inkişafı ilə bağlı vaxtaşırı təlimlər, seminarlar və görüşlər təşkil edilib.

İnkişaf təlimlərinin əsas məqədləri STM-in nizamnaməsində nəzərdə tutulan fəaliyyətləri uğurla reallaşdırmaq, strategiyaların hazırlanma peşəkarlığını artırmaq, əməkdaşların fəaliyyət mexanizmlərini vahid məqsəd istiqamətində birləşdirmək, bu məqsədə çatmaq yolunda istifadə olunan forma, metod, üsul və vasitələri öyrənmək və tətbiq etmək, onların yaradıcılıq potensialının aşkar edib üzə çıxarmaq kimi məsələlər olub.

Mərkəzdə müasir yanaşmaların işə salınması, dünyada tətbiq edilən ən innovativ sorğu aparmaq üsulunun öyrənilməsi, SurveyToGo tətbiqinin istifadə edilməsi, məlumatların işlənilməsi və təhlili istiqamətində istifadə edilən ən müasir data yanaşmanın - SPSS proqramının tətbiqi, layihələrin idarə edilməsi, effektiv və səmərəlilik yanaşmasının üstünlüyü, analitik proqramlarla iş bacarığı, təhlillərin aparılması qaydaları və s. mövzularda təlimlər, təcrübə dərsləri keçirilib.

Ölkənin tanınmış elm xadimləri, xüsusi





proqramlarla fəaliyyət göstərən ekspertlər, mütəxəssislər, dövlət xadimləri ilə görüşlər keçirilib, seminarlar, dərslər təşkil edilib və mərkəzin əməkdaşları ilə fikir mübadiləsi aparılıb.

**Təlim və seminarların əsas mövzuları:**

- “Layihələrin idarə edilməsi”,
- “Sosiologiyanın müasir tendensiyaları”,
- “Sosioloji sorğuların keçirilməsinin metodologiyası”,
- “İqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması yolları”,
- “İcbari tibbi sığorta sisteminin tətbiq olunmasının əhəmiyyəti”,
- “Müasir dövlət quruculuğu, ictimai fikrin formalaşması: kəsişmələr və ziddiyyətlər”
- “Data analitika və data əsaslı həllər”,
- “Sosiologiyanın fəlsəfəsi”,
- “Natiqlik dərsləri”,
- “Siyasət sənədlərinin hazırlaması üsulları” və s.



# Tərəfdaşlar

Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünü idarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları, xarici qurumlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Nizamnaməsinə uyğun olaraq, qısa zaman çərçivəsində STM həm yerli, həm də dünyanın bir sıra nüfuzlu beyin mərkəzləri ilə əlaqələr qurub.

Mərkəz fəaliyyətə başladığı ilk gündən beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət qurumları, universitetləri, beyin mərkəzləri və digər təşkilatlarla əməkdaşlıq etmək, onların təcrübəsini öyrənmək və s. məsələləri özünün prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Bu qurumların data-bazalarından istifadə etmək, təcrübə mübadilələri aparmaq, qarşılıqlı layihələr həyata keçirmək, beynəlxalq aləmdə nüfuzlu beyin mərkəzinə çevrilmək yolunda mühüm addımlar atılıb.

Üç illik fəaliyyəti dövründə STM 11 beynəlxalq və yerli qurumla əməkdaşlıq haqqında memorandum imzalayıb.

STM-in beynəlxalq və yerli tərəfdaşları sırasında Türkiyənin “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin, Ankara Universiteti Asiya-Sakit Okean Tədqiqatlar Mərkəzinin, Hacettəpə Universitetinin, Hacı Bayram Vəli Universitetinin, Çanaqqala Savaşları İnsitutunun, Çanaqqala On səkkiz Mart Universitetinin, Sonar Sorğu və Araşdırma Mərkəzinin, Rusiyanın Ümumrusiya İctimai Rəyin Öyrənilməsi Mərkəzinin, İqtisadi və Siyasi Tədqiqatlar Mərkəzinin, “Roskonqres” Fondunun, Çinin nüfuzlu Sosial Elmlər Akademiyasının, Qazaxıstan Respublikasının Birinci Prezidentinin – Elbası Kitabxanasının, həmçinin “Azərbaycan Sığortaçılar Assosiasiyası” (ASA) İctimai Birliyinin adını qeyd etmək olar.

Bundan başqa, digər beyin mərkəzləri ilə də müəyyən formada əməkdaşlıqlar qurulub. Bu tərəfdaşlıqlar ölkələr arasında münasibətlərə töhfə vermək, mərkəzin nizanaməsinin verdiyi səlahiyyətlər çərçivəsində sosial, elmi, siyasi, mədəni sahədə əməkdaşlıq etmək, eyni zamanda birgə layihələr və tədqiqatlar həyata keçirmək xarakteri daşıyır.

*"İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik... Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Tədbirlər/Görüşlər



## 29.08.2019

29 avqust 2019-cu il tarixində Sosial Tədqiqatlar Mərkəzi ilə Türkiyənin Mərmərə Qrup Fondu arasında görüş keçirilib.

Görüşdə STM İdarə Heyətinin sədri Zahid Oruc rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə bağlı məlumat verib. O qeyd edib ki, yeni yaradılan mərkəz bu gün bir sıra ölkələrin aparıcı mərkəzləri ilə əməkdaşlıq edir. Qardaş ölkələr olan Türkiyə və Azərbaycanın bir çox sahələrdə birgə uğurlu fəaliyyət göstərdiyini deyən Sosial Tədqiqatlar Mərkəzinin sədri bildirib ki, Mərmərə Qrup Fondu və bu kimi siyasi fikir mərkəzləri Azərbaycandakı müvafiq qurumlarla təcrübə mübadiləsi aparır.

Mərmərə Qrup Fondunun sədri Akkan Suver bildirib ki, Türkiyə və Azərbaycan son on illiklər ərzində region və dünya üçün vacib olan layihələr reallaşdırıb. Hər iki ölkə regionda mühüm gücə çevrilir. O vurğulayıb ki, Azərbaycan bütövlükdə Qafqaz bölgəsində sabitliyin qorunmasında həlledici təsirə malikdir.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycanda Sosial Tədqiqatlar Mərkəzinin yaradılmasının mühüm hadisə olduğunu bildirib. O deyib ki, istər Türkiyənin, istərsə də Azərbaycanın müvafiq qurumları dünyanın müxtəlif siyasi institutları və universitetlərində fəaliyyətlərini gücləndirməlidirlər. Xüsusilə də erməni yalanlarının qarşısını almaq üçün adekvat addımlar atılmalıdır.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Azərbaycan-Türkiyə diplomatik münasibətlərindən danışıb. Diplomat qeyd edib ki, hər iki ölkə bir çox sahələrdə uğurla əməkdaşlıq edir və daima bir-birini dəstəkləyir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi STM İdarə Heyətinin sədri Zahid Oruc və Mərmərə Qrup Fondunun sədri Akkan Suver imzalayıblar.

## 24.09.2019



STM-in ilk irimiqyaslı tədbiri "Prezidentin sosial və kadr islahatları ictimai rəydə" mövzusunda 2019-cu ilin sentyabrın 24-də keçirilmişkonfrans olub. Tədbirin önəmi təkcə Mərkəzin ilk hesabat xarakterli tədbiri olması, eyni zamanda, saytının (stm.az) təqdimatı və ya geniş tərkibdə olan auditoriya, izdihamlı media və elm-ictimaiyyət nümayəndələrindən ibarət çoxsaylı iştirakçı tərkibi ilə yadda qalması deyil, daha çox Sosial Tədqiqatlar Mərkəzinin ölkədə baş verən prosesləri ilk dəfə olaraq ictimai qiymətləndirilmə meyarları ilə ciddi sosial dəyərləndirmə prosesinə daxil etməklə ölkə gündəmində əhəmiyyətli hadisəyə çevrilməsi və beləliklə, Prezidentin sərəncamı əsasında yaradılma məqsədlərinə uyğun olaraq ölkədə ictimai rəy institutunun formalaşdırılmasında atdığı önəmli addım idi.

Qeyd edilənlər baxımından, Mərkəzin ilk genişmiqyaslı tədbirinin əsas mövzusunun da elə məhz ölkə Prezidentinin fəaliyyətinin, onun başlatdığı islahatlar kursunun cəmiyyət üzvləri tərəfindən rəy bildirilməsi əsasında ictimai qiymətləndirilməsinə dair əsas ölçülər və göstəricilərin təqdimatına həsr olunması cəmiyyətin ictimai-siyasi həyatında olduqca önəmli hadisəyə çevrildi.

Tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc Mərkəzin yaradılması ideyası barədə çıxış edib. O, STM-nin əsas tezislərini bölüşüb və onun missiyası, vəzifələrindən söz açıb. Z.Oruc bildirib ki, Sosial Araşdırmalar Mərkəzi 2019-cu ilin siyasi və sosial mühitində baş verən böyük dəyişikliklər məramının bariz nümunəsidir və ümummilli sosial dialoqun təşkili istiqamətində atılan mühüm addımlardan biridir. Daha dəqiq desək, vətəndaşı dövlət idarəçiliyinə yaxınlaşdırmaq, öz növbəsində, qarşılıqlı olaraq, onun da diqqət mərkəzinə dövlətimizi gətirmək, vətənin bu günü və gələcəyi naminə hər birimizi bacardığı töhfə və məsuliyyətini ortaya qoymağa səsləmək hadisəsidir.

İdarə Heyətinin sədri çıxışında Mərkəzin Nizamnaməsinin ehtiva etdiyi məsələlərə də toxunaraq deyib: "Cəmiyyətin inkişafının müxtəlif istiqamətləri, təklif və proqnozları Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək; aparılan siyasətin səmərəliliyinin artırılması məqsədilə idarəetmə prosesinin təkmilləşdirilməsi, qəbul edilən qərarların təsirlərinə dair tədqiqatların aparılması; dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasının sistemli təhlili; ictimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq və s. Mərkəzin əsas fəaliyyət istiqamətləri kimi təsbit edilib".

Görülən işlər barədə danışan Z.Oruc qeyd edib ki, müntəzəm olaraq, sosial-siyasi durum və proseslərin dinamikası ilə bağlı təhlillər, açıq və qapalı analitik hesabat və arayışlar hazırlanıb, ali rəhbərliyə və müvafiq dövlət orqanlarına təqdim olunub. Ölkə miqyasında tədqiqatlarla bağlı qurumların ümumi mənzərəsi təhlil edilib, bu sahədə əlaqələndirmə və sıx koor-



dinasiyaya olan ehtiyacın qarşılanması üçün tədbirlərin hazırlanmasına başlanılıb. Ölkədə sosial-iqtisadi, siyasi və s. proseslərin dinamikası haqqında mötəbər sosial məlumat bazasının yaradılmasına hazırlıq işləri görülüb. Cari il və perspektivlər üçün aktual sosial-siyasi məsələlərin elmi tədqiqat konsepsiyası - fəaliyyət planı hazırlanıb. Mərkəzin elmi-fəaliyyət planında ümumdövlət və ictimai əhəmiyyətli sosial məsələlər üstünlük təşkil edib. O cümlədən iqtidar və cəmiyyət arasında mövcud olan etimad və dialoqun möhkəmləndirilməsi, dövlət quruculuğu işinə bütün cəmiyyətin fəal cəlb edilməsi, sosial ictimai münasibətlərin aktual mövzularının tədqiqi yönündə mühüm addımlar atılıb. Sosial Tədqiqatlar Mərkəzi ictimai rəyin öyrənilməsi ilə əlaqədar 10 sosioloji tədqiqat və ictimai rəy sorğusunun keçirilməsini başa çatdırıb. Onların sırasında müxtəlif sosial təbəqələrin islahatlar prosesinə, dövlət başçısının sosial siyasətlə bağlı irimiqyaslı sərəncamlarına münasibəti və gözləntiləri, təhsilin sosioloji məsələləri və son tələbə qəbulunun ikimərhələli modelinə müxtəlif hədəf qruplarının münasibəti, dərsliklərlə bağlı mövcud vəziyyətin öyrənilməsi, sosial inkişaf və rifahın göstəriciləri, Azərbaycanda daxili miqrasiya proseslərinin xüsusiyyətləri ilə bağlı araşdırma və s. qeyd edilə bilər; "Sosial tədqiqatlar" və "Azərbaycan barometri" adlı jurnallar Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilib, müntəzəm nəşrə hazırlıq başa çatıb.

STM rəhbəri əlavə edib ki, artıq mərkəz strukturlaşdırılıb, zəruri ilkin kadrların işə cəlbi - kollektivin formalaşması mümkün olub. Kadrları işə cəlb edərkən onların istedadı, bilik və bacarığı şəffaf əsaslarla müəyyən edilib.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının Strateji araşdırma və planlaşdırma şöbəsinin müdiri Səadət Yusifova bildirib ki, hazırda uğurlu dövlət idarəetməsi sosial həyatın bütün aspektlərinin elmi cəhətdən kompleks öyrənilməsindən, ictimai münasibətlərin inkişaf tendensiyalarının, dəyişiklikləri doğuran amillərin müəyyən edilməsindən, optimal həll yollarının tapılmasından, dəyişikliklərə çevik reaksiya verilməsindən, düzgün proqnozlaşdırmadan, qısa, orta və uzunmüddətli perspektivlərin müəyyən edilməsindən asılıdır. Bu transformasiya dövlətlərin həyatında, davranışında, siyasətində özünü büruzə verir, zamanla ayaqlaşmanı, ən əsası isə bir sıra hallarda hətta bunu qabaqlamanı şərtləndirir. Cəmiyyətlərin, dövlətlərin həyatında baş verən köklü dəyişikliklər hər zaman bunları gerçəkləşdirən liderlərin adı ilə bağlıdır. Müasir Azərbaycan Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi prinsiplər, onun yaratdığı möhkəm dövlətçilik təməli üzərində qurulub. Məhz həmin prinsipləri əsas tutaraq Prezident İlham Əliyev uzunmüddətli dayanıqlı inkişaf strategiyasını müəyyən edib. Əgər Azərbaycanın tarixi inkişaf yoluna nəzər salsaq, son 16 ildə tamamilə yeni yaradılmış Azərbaycanı görmüş olarıq.

Prezident Administrasiyasının şöbə müdiri qeyd edib ki, bugünkü Azərbaycan həm də bir neçə gün əvvəl 25 illiyini qeyd etdiyimiz "Əsrin müqaviləsi"nin yaratdığı ölkədir. İmzalanma mərasimində Heydər Əliyev demişdi ki, "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə

Azərbaycan xalqının inkişafı, onun firavan həyatı, Azərbaycan dövlətinin suverenliyinin qorunması üçün imkanlar yaradacaq. Onun arzuları bu gün həyata keçirilmiş gerçəklikdir.

Səadət Yusifova diqqətə çatdırıb ki, zaman yerində dayanmır, yeniliklər gətirir. Hazırda biz rəqəmsal texnologiyaların inkişafı ilə xarakterizə olunan növbəti sənaye inqilabı dövrünü yaşayırıq. Azərbaycan Prezidentinin son illər həyata keçirdiyi sistem xarakterli islahatlar məhz həmin transformasiyanın mərhələli şəkildə reallaşdırılmasına hədəflənib. Bu, özündə həm sosial innovasiyaları, həm institusional, həm də kadr islahatlarını ifadə edir. Sosial innovasiyalar cəmiyyətdə sosial dəyişikliklər doğuran məsələlərin həllinə yönəlmiş ideyalar, strategiyalar, texnologiyalardır. Sosial innovasiyalar insan həyatının keyfiyyətinin artırılması, qlobal tendensiyalara uyğun olaraq sosial infrastrukturun təkmilləşdirilməsi üçün yeni texnologiyalardan və biznes modellərdən istifadəni nəzərdə tutur. Prezident dəfələrlə öz çıxışlarında qeyd edib ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Təsadüfi deyil ki, sosial rifah dövlətinin qurulması Prezidentin yeni islahatlar kursunun strateji xəttini təşkil edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra keçmiş İttifaq respublikaları arasında ən dərin resessiyaya məruz qalmış bir ölkə olub. Bunun obyektiv səbəbləri var idi. Ölkə hərbi təcavüzə məruz qalmışdı, dövlətçiliyimiz, suverenliyimiz təhdid altında idi. Azərbaycanda iqtisadi islahatlar Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başladı və qısa bir zamanda öz nəticəsini verdi, resessiya aradan qaldırıldı. İndiyə qədər Azərbaycanda heyrətamiz inkişaf templəri müşahidə edilib. Prezident İlham Əliyev silsilə fərmanlar və sərəncamlar imzalayıb. Aparılan tədqiqatlar göstərir ki, əhalinin böyük bir hissəsi Prezident tərəfindən aparılan islahatları dəstəkləyir.

Emin Hüseynov qeyd edib ki, həyata keçirilən islahatlar insanların maddi durumuna müsbət təsir göstərir. 2015-ci ildə dünya bazarında neftin qiymətinin xeyli dərəcədə aşağı düşməsi nəticəsində ölkədə ikiqat devalvasiya baş verdikdən sonra əhalinin real gəlirləri azalmışdı. 2016-cı ildə inflyasiya ikirəqəmli səviyyədə idi, 2017-ci ildə də bu tendensiya davam etdi. Amma buna baxmayaraq, hökumət bu illərdə çox konservativ fiskal siyasət yürütdü. Əsas məqsəd makroiqtisadi sabitliyin bərpa olunması idi. Sözsüz ki, bu hədəfə nail olundu. Artıq 2019-cu ildə biz inflyasiyanın çox aşağı səviyyəsini müşahidə edirik. Real əməkhaqlarının artım tempi inflyasiyanı iki-üç dəfə üstələyir. Digər tərəfdən, insanların gəlirləri artdıqca bu, biznes üçün gəlir mənbəyidir ki, bu da növbəti dövrlərdə də iqtisadi artıma müəyyən təkan verəcək təsirə malik olacaq.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxışında bildirib ki, bu günə qədər "ASAN xidmət" mərkəzlərinə 33 milyona yaxın müraciət daxil olub. Nəzərə alsaq ki, Azərbaycan əhalisinin sayı 10 milyondur, "ASAN xidmət" mərkəzlərinə edilən müraciətlərin sayının 33 milyon olması onu göstərir ki, vətəndaşlar mərkəzlərə dəfələrlə müraciət ediblər. Vətəndaşlar təqdim edilən 320-dən çox xidmətdən istifadə ediblər. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara təqdim edilən xidmətlərdən məmnunluq səviyyəsi 98-99 faizdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli çıxışında qeyd edib ki, bu il Azərbaycanda minimum əməkhaqqı iki dəfə artırılıb. Başqa sözlə, minimum əməkhaqqı 130 manatdan 250 manata qaldırılıb. Bu da 1 milyon 350 min insanı əhatə edir. İl ərzində özünüməşğulluq proqramında 10 min vətəndaş iştirak edir. İlin əvvəlində pensiyaların minimum məbləğində 72 faiz artım olub. İlin əvvəlindən 14 mindən çox şəxsə elektron qaydada pensiya təyin edilib. Sosial müavinət və təqaüdlərin məbləği orta hesabla 2 dəfə artıb. 68 min ailə ünvanlı sosial yardımla əhatə olunur.

Mətin Kərimli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətində Sosial Tədqiqatlar Mərkəzinin hesabatlarına da istinad ediləcəyini diqqətə çatdırıb.

Konfransda Milli Məclisin deputatları Tahir Mirkişili, Musa Quliyev, Maliyyə nazirinin müşaviri Elman Mehdiyev, ADA Universitetinin ictimai və beynəlxalq əlaqələr fakültəsinin dekanı Anar Vəliyev Azərbaycanda sosial-iqtisadi sahədə aparılan islahatlardan danışıblar.

Daha sonra Sosial Tədqiqatlar Mərkəzinin rəsmi saytı konfrans iştirakçılarına təqdim olunub.

Konfrans işini müzakirələrlə davam etdirib.

## 24.09.2019



2019-cu ilin sentyabrın 24-də Sosial Tədqiqatlar Mərkəzində ölkəmizdə səfərdə olan Çin Sosial Elmlər Akademiyasının (ÇSEA-CASS) Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Konfransının üzvü, professor Zhang Şuhuanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

STM-in İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc görüşün iki ölkə arasında mövcud olan elmi əməkdaşlıq və dostluq münasibətlərinə və sosial tədqiqatlar sahəsində birgə fəaliyyət göstərmək məramına xidmət etdiyini qeyd edib, həmçinin bildirib ki, bu görüş dünyanın ikinci iqtisadi gücü kimi Çin təcrübəsinin, eyni zamanda Cənubi Qafqazın ən islahatçı və inkişaf edən dövləti olan Azərbaycanın siyasi və iqtisadi sahədə islahatlarla bağlı təcrübəsinin qarşılıqlı mübadiləsi baxımından da əhəmiyyət kəsb edir. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında "Dialoq üçün tərəfdaş" statusuna malik olduğunu, Çinin "Bir kəmər, bir yol" qlobal layihəsi çərçivəsində fəal əməkdaşlıq etdiyini diqqətə çatdıran Mərkəz rəhbəri sosial tədqiqatlar sahəsində qarşılıqlı elmi əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Professor Zhang Şuhua 40 ildən artıq müddətdə fəaliyyət göstərən Çin Sosial Elmlər Akademiyasında 37 elmi tədqiqat institutunun, 5 nəşriyyatının olduğunu və burada 4 min tələbənin təhsil aldığını bildirib. Görüşdə Çin dövlətinin sosial siyasəti və sosial islahatlar proseslərinin dinamikası sahəsində özünəməxsus təcrübəsi və bir sıra vacib məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin Sosial Tədqiqatlar Mərkəzi ilə Çin Sosial Elmlər Akademiyası arasında elmi əməkdaşlığın perspektivləri, birgə tədqiqat layihələrinin həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb və bu sahədə konkret fəaliyyət planının hazırlanması təklif edilib.

## 26.09.2019

2019-cu il sentyabrın 25-də ADA Universitetində Sosial Tədqiqatlar Mərkəzinin (STM) kollektivi ilə görüş keçirilib. Görüşdə ADA Universitetinin rektoru, Xarici işlər nazirinin müavini Hafiz Paşayev, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə iştirak edib.

Görüş zamanı STM İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc rəhbərlik etdiyi Mərkəzin missiyası, qarşısında duran vəzifələr, fəaliyyət istiqamətləri və formalaşmaqda olan yeni kollektiv haqqında ətraflı məlumat verib. Z.Oruc bildirib ki, dövlətimizin başçısı ölkədə dövlət-vətəndaş münasibətlərinin daha da təkmilləşməsinin vacibliyini nəzərə alaraq, Mərkəzin yaradılması haqqında qərar verib. Azərbaycanda cəmiyyət və dövlət arasında mövcud olan etimad və dialoqun möhkəmləndirilməsinin başlıca istiqamətlərindən olan ictimai rəy institutunun ən müasir dünya təcrübəsi əsasında formalaşdırılmasını, bu sahənin elmi ənənəyə çevrilməsini zəruri hesab edib. İctimai rəy nümunəsində dövlət quruculuğu işinə bütün cəmiyyətin fəal cəlb edilməsi STM-in görəcəyi işlərin əsas xəttini təşkil edəcək.

Qonaqları salamlayan ADA Universitetinin rektoru Hafiz Paşayev istənilən sahədə yeni fəaliyyətin qurulmasının çətin, eyni zamanda şərəfli məsələ olduğunu vurğulayıb. ADA-nın yeni yaradıldığı vaxtdan keçdiyi yol və əldə etdiyi təcrübə haqqında fikirlərini bölüşüb. Bütün sahələrdə olduğu kimi əsas məsələlərdən birinin peşəkar kadrların cəlb edilməsi, tədqiqatçı kollektivin formalaşdırılması olduğunu xatırladıb. Hafiz Paşayev cəmiyyət həyatında müxtəlif sahələrin uğurlu inkişafının müəyyən edilməsində ilk olaraq ictimai rəyin öyrənilməsinin mühüm rol oynadığını vurğulayıb. Bu baxımdan, kadrların hazırlanmasında ən fundamental sosial institut olan təhsil sahəsinin strateji istiqamət kimi diqqət mərkəzində saxlanılmasını tövsiyə edib. ADA-da təhsillə bağlı sosioloji sorğulara mühüm əhəmiyyət verildiyini, bəzi mövzular üzrə universitetdaxili ictimai rəy sorğularının keçirildiyini diqqətə çatdırıb.



Hafiz Paşayev Azərbaycanda kadr hazırlığında, məktəbli və gənclərin gələcək peşə və ixtisas seçiminin müəyyən edilməsində

təhsil (məktəb) mühitinin rolunun əvəzsiz olduğunu qeyd edib. Qabaqcıl dünya təcrübəsində ixtisas seçiminin məktəb yaşlarından başladığını, zamanın çağırışlarını nəzərə almaqla, ilk növbədə istedad və qabiliyyətləri aşkara çıxarmağa imkan verən təhsil/məktəb mühitinin formalaşdırılmasının vacibliyini vurğulayıb. ADA Universitetinin rektoru STM-lə bu istiqamətdə birgə tədqiqat layihəsinin həyata keçirilməsini də tövsiyə edib.

Görüşdə rektor Hafiz Paşayev STM əməkdaşlarının suallarını cavablandırıb, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

Sonda STM rəhbəri Z.Oruc qəbul üçün ADA Universitetinin rektoru Hafiz Paşayevə təşəkkürünü bildirib və görüşdə səslənən fikirlərin, birgə tədqiqat layihəsi haqqında tövsiyələrin Mərkəzin işi üçün çox dəyərli olduğunu qeyd edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev yeni yaranan Mərkəzə fəaliyyətində uğurlar arzulayıb.

## 23-26.10.2019

23-26 oktyabr 2019-cu il tarixlərində STM-in departament rəhbəri, professor Tahirə Allahyarova türk dövlətlərinin Kırşehir Universitetində keçirilən Türkdilli xalqların fəlsəfi irsi üzrə II Beynəlxalq simpoziuma əsas məruzəçi kimi dəvət edilib. Sayca ikinci olan simpoziumda 7 ölkədən müxtəlif elm sahələrində çalışan 150 alim, akademik heyət və tədqiqatçılar iştirak edib. Simpoziumun ortaq təşkilatçıları qismində Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Qırğızıstan-Türkiyə Manas və Bayburt universitetləri, Ankara-Kırşehir Universiteti çıxış edib.

Simpozium çərçivəsində 3 gün davam edən panellərdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Rusiya və Fransadan gəlmiş alimlərin iştirakı ilə fəlsəfə, sosiologiya və iqtisadiyyat sahəsində türk dünyasının tarixi və müasir dövrlərinin elm və təhsil, ictimai-siyasi fikir tarixi, fəlsəfi irsi, sivilizasiyası, milli-mənəvi dəyərləri, təhsil və universitet modelləri, ənənə və innovasiyalar, XXI əsrdə türk sivilizasiyası qarşısında duran çağırışlar və s. mövzularda məruzələr dinlənilib.

Ankara Konqres və Mədəniyyət Mərkəzində açılış mərasimi baş tutan simpoziumda Kırşehir Ahi Evran Universitetinin rektoru, prof. dr. Vətən Karakaya qeyd edib ki, türk dünyası yalnız özünün tarixi və şanlı keçmişini tanımaqla və dünyaya tanıtmaqla indiki nəsillər üçün daha yaxşı bir gələcək qura bilər. Tarix siyasətimizi düzgün qurmaqla tarixi “siyasiləşdirən” və türk tarixini öz istədiyi kimi yazan, təbliğ edən ənənəyə qarşı dura bilərik.

Açılış mərasimində çıxış edən Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti prof. dr. Kadirali Konkobayev Simpoziumun türk dünyasının birliyini təmin etmək yönündə müstəsna əhəmiyyət daşıdığını vurğulayıb. O, Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün tarixi dönüş olduğunu bildirib. Çıxışına Azərbaycanın, xüsusilə də Prezident İlham Əliyevin türk dünyasının həmrəyliyinin möhkəmlənməsində roluna diqqət çəkən K.Konkobayev türk dövlət başçılarının 10 il əvvəl Azərbaycandan başlayan əməkdaşlığına Macarıstan və Özbəkistanın da qoşulması ilə birliyin daha da güclənəcəyini qeyd edib.

STM-in departament rəhbəri “XXI əsrdə tarix fəlsəfəsi qarşısında çağırışlar və türkdilli xalqların fəlsəfi irsində cavab axtarışları” mövzusunda məruzə edib. Prof. T.Allahyarova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu”nun yaradılması haqqında fərman imzalamaqla türk dünyasının elm, təhsil və mədəniyyətinin inkişafına verdiyi önəmi qeyd edib. O, Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində mədəni irsin məhv edilmə təhlükəsi altında olmasına diqqəti cəlb edib. Türk sivilizasiyasının bəşər elminə verdiyi töhfənin təbliğ edilməsində və hazırkı inkişafı ilə bağlı problemlərin həlli üçün daha sıx birləşməli olduğuna toxunub. Tarix boyu humanizm, tolerantlıq, sülh və

birgəyaşayış kimi bəşəri dəyərlərin daşıyıcısı olan Türk dünyasının miqrasiya böhranı, beynəlxalq terrorizmlə mübarizə, ksenofobiya və islamofobiya, ifrat siyasi ideoloji hərəkatların yüksəlməsi, qlobal problemlərin həllində çıxış yolu ola biləcək yanaşmalar ortaya qoyması fonunda, dünya tarixinə yalnız bir Qərb baxışının mövcudluğunun məqbul hal sayılmadığını bildirib.

Qeyd edək ki, simpoziumda ingilis, rus, türk, fransız və özbək dillərində edilən məruzələr elmi məqalələr toplusu kimi beynəlxlaq elmi redaksiya heyəti tərəfindən dəyərləndirilməklə çap ediləcək.






## 18.12.2019

STM-in 18 dekabr 2019-cu il tarixində keçirilmiş növbəti tədbirində “Azərbaycan barometri” jurnalının ikinci sayında “Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modeli” ictimai rəy sorğusu əsasında hazırlanmış analitik hesabat təqdim olunub və təhsildəki mövcud problemlər müzakirə edilib.

Konfransda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova, STM İdarə Heyətinin sədri Zahid Oruc, Təhsil naziri Ceyhun Bayramov, Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və başqaları çıxış ediblər.

Dərc olunan hesabatda bildirilir ki, Azərbaycandakı inkişafın yeni mərhələsində təhsil sistemində köklü islahatların aparılması strateji məsələ kimi dövlət siyasətinin daim diqqət mərkəzində qərarlaşıb.

2012-ci ildə TQDK-nın əsasnaməsinin dəyişdirilməsi və monitorinq imtahanlarının keçirilməsinin bu quruma həvalə edilməsi, 2015-ci ildən etibarən bilik və bacarıqların qiymətləndirilməsi ilə bağlı Təhsil Nazirliyi ilə DİM-in birgə işçi qrupunun yaradılması, 2017-ci ildə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin DİM tərəfindən yeni qaydalarla yoxlanılması və nəhayət, 2019-cu ildə sözügedən iki qurumun birgə fəaliyyəti nəticəsində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modeli tətbiq edilib.

2019-cu ilin fevral ayından etibarən həm kağız daşıyıcıları, həm də onlayn sınaq imtahanlarının, mart ayından etibarən isə buraxılış və qəbul imtahanlarının keçirilməsi, yəni yeni təhsil modelinin tətbiqi cəmiyyətdə böyük müzakirələr doğurub. Yeni modellə bağlı müxtəlif yanaşmaların davam etdiyi bir şəraitdə Sosial Tədqiqatlar Mərkəzi buraxılış və qəbul imtahanlarında bu il tətbiq olunan yeni modelin müsbət və mənfi tərəflərini, ümumilikdə Azərbaycanın təhsil sisteminin bugünkü vəziyyətini və cəmiyyətin bu yeni-

liklərə münasibətini araşdırmaq üçün Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, Təhsil Nazirliyinin, Dövlət İmtahan Mərkəzinin nümayəndələri, abituriyentlər, valideynlər, müəllimlər və təhsil ekspertləri arasında 2019-cu ilin iyun-iyul aylarında ictimai rəy sorğusu keçirib.

STM-in 539 respondent və 12 ekspert arasında keçirdiyi ictimai rəy sorğusu DİM-in regional mərkəzləri əsas götürülməklə 10 şəhər və rayonu əhatə etməklə genişmiqyaslı tədqiqatın nəticələrinin təsbiti ilə nəticələnib. Sorğunun nəticələrinin təhlili göstərir ki, müasir tədris proqramlarına uyğun imtahan modelinin tətbiqi barədə geniş maarifləndirmə işi həyata keçirilsə də, onun mənimsənilmə arealından bəzi abituriyentlər kənarda qalıb. Çünki kurikulumları mənimsəmə problemi meydana çıxıb. Ümumi fikrə görə, bu modelin tətbiqi orta və ali təhsil səviyyələri arasındakı bağları gücləndirir. Respondentlərin 45 faizi yeni modeli faydalı hesab etməsə də, ekspertlər bildirir ki, yeni qəbul üsulu axtarışlara və islahatlara zəmin yaradaraq keyfiyyətə xidmət edir. Yeni qəbul modelinin məzmununa diqqət yetirərkən məlum olur ki, kurikulumla tətbiq edilən model arasında müəyyən problemlər mövcuddur. Hesabatda ictimaiyyətin test üsuluna birmənalı olmayan münasibəti də geniş tədqiq edilib.

Ən vacib detallardan biri isə təhsildə repetitorların rolu ilə bağlı olub. Məlum olub ki, sorğuda iştirak edən abituriyentlərin 86 faizi repetitor xidmətindən istifadə edib, 8 faizi imtahanlara məktəbdə, 6 faizi isə özünün hazırlaşdığını bildirib. Fikri soruşulan abituriyentlərin 60 faizi qəbul imtahanlarının, 30 faizi isə buraxılış imtahanlarının çətin olduğunu ifadə edib. Onların 54 faizi açıq tipli suallarla bağlı çatışmazlıqlara diqqət çəkib. Əsas narahatlıq doğuran məqamlardan biri kimi isə yazı tipli tapşırıqların yoxlanılmasında yaranan problemlər, xarici dillər üzrə dinləmə qurğusunun tətbiqindəki çatışmazlıqlar göstərilib.



Təhsil ekspertləri isə böyük müzakirə doğuran bir məsələyə diqqət çəkirlər ki, bu il balların aşağı düşməsi ətrafında ajiotaja ehtiyac yoxdur, bu, yeni modelə keçidlə əlaqədar müvəqqəti məsələdir. İmtahanda iştirakla bağlı ödənişin məbləği 60 faizdən çox respondentə görə yüksəkdir. Sorğunun nəticələri və müşahidələri də göstərir ki, abituriyentlərin imtahana mənəvi-psixoloji



cəhətdən hazırlaşmasında valideynlərin (45 faiz) və müəllimlərin (33 faiz) rolu böyükdür.

Ümumi fikrə görə, orta məktəblərin tədris proqramlarında, kurikulumların mahiyyətinin mənimsənilməsində, dərsliklərin yazılmasında ciddi problemlər mövcuddur. Hesabatdan çıxan nəticəyə görə, buraxılış və ali məktəblərə qəbul imtahanlarında bu il tətbiq edilən yeni model ilə bağlı keçirilən sosioloji sorğunun nəticələri bir daha sübut etdi ki, hər bir yenilik cəmiyyət tərəfindən, adətən, birmənalı qarşılanmır və istər-istəməz müəyyən problemlərin ortalığa çıxması ilə müşayiət olunur. Bunun ilkin səbəbləri sırasında cəmiyyətin bu yeniliklər haqqında məlumatlılıq səviyyəsinin aşağı düşməsi gəlirsə, yeniliklərin cəmiyyətin üzvləri tərəfindən mənimsənilməsi, onlar üçün anlaşıqlı olması, hətta, əksinə, mənimsəməyə cəhdin azlığı (bəzən asan yola üz tutulması) da vacib məqamdır. Yeni tədris proqramının səmərəli olması üçün müəllimlərlə işləmək, onlara treninq və təlimlər keçmək lazımdır. Aparılacaq tədqiqatlar və monitorinqlər nəticəsində proqramın harada və niyə səmərə vermədiyini müəyyənləşdirmək lazımdır.

Müşahidələr göstərir ki, 2019-cu ildə Apellyasiya Komissiyasına müraciət edənlərin sayı əvvəlki illərlə müqayisədə çoxdur. Üstəlik, apellyasiyada abituriyentlərin haqlı çıxma halları da 2019-cu ildə daha çox müşahidə edilib. Xüsusilə açıq tipli tapşırıqların bəzilərinin DİM-in markerləri tərəfindən qiymətləndirilməsindən sonra ortaya çıxan bəzi xətalar imtahan verəndə imtahan götürən quruma qarşı inamı istər-istəməz azaldır. Maraqlıdır, respondentlərin 22 faizi bu fikirdədir ki, buraxılış və qəbul imtahanlarının yeni modeli təkmilləşdirilməlidir. 53,5 faiz respondent imtahanların əvvəlki model üzrə keçirilməsinin, 4,5 faiz test üsulu ilə qəbulun ləğv olunmasının, 8 faiz imtahanların bir dəfə keçirilməsinin tərəfdarı kimi çıxış edib. Ekspertlər arasında da bu məsələ ilə bağlı fikir ayrılığı müşahidə edilir. Belə ki, onların bir qismi ikipilləli imtahan modelini qəbul edir, lakin 2019-cu ildə keçirilən imtahanların nəticələrini ətraflı təhlil edib çatışmazlıqları aradan qaldırmaq, bu sahədə axtarışlar və islahatlar aparmaqla yeni modeli daha da təkmilləşdirmək haqqında düşünürlərsə, digərləri təkpilləli, yəni yalnız qəbul imtahanlarının keçirilməsinin tərəfdarı kimi çıxış edirlər.

Qeyd edək ki, tədbirdə millət vəkilləri, təhsil işçiləri, KİV nümayəndələri və tanınmış ictimai-siyasi xadimlər iştirak ediblər.

## 29.05.2020

2020-ci il mayın 29-da "Avrasiya məkanında təhsilin müasir paradiqmal problemləri" mövzusunda onlayn rejimdə beynəlxalq elmi-praktiki konfrans keçirilib. Beynəlxalq konfransın 6 ölkədən olan təşkilatçıları qismində Sosial Tədqiqatlar Mərkəzi, Qazaxıstan Milli Universiteti, Özbəkistan Milli Universiteti və digər qurumlar yer alıb.

Konfransda açılış nitqləri ilə Özbəkistan Milli Universitetinin rektoru A.Marahimov, ABŞ Beynəlxalq Təhsil Şurasının departament rəhbəri, professor Adrian Erlinger, Özbəkistan Ali Təhsili Nazirliyinin Elm şöbəsinin müdiri B.İsmayılov, italıyalı alim, Beynəlxalq Fəlsəfə Cəmiyyətləri Federasiyasının prezidenti Luka Maria Skarantino, Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru akademik A.Smirnov, Türkiyənin Yıldız Texniki Universitetinin professoru Vəfa Taşdelən, Hindistan Beynəlxalq Etik Fəlsəfə Assosiasiyasının prezidenti, professor D.K.Santoş və başqaları çıxış edib.

Onlayn rejimdə keçirilən konfransa qatılan türkdilli dövlətlərdən Azərbaycan və Türkiyə, həmçinin ABŞ, İtaliya, Rusiya, İsrail və Gürcüstandan olan məruzəçilər tərəfindən pandemiya şəraitində dünyada təhsil sisteminin üzləşdiyi problemlər, distant (onlayn) təhsilin təkmilləşdirilməsi, XXI əsrin 3-cü onilliyinə doğru təhsilin fəlsəfəsi, qlobal və regional problemləri, sosial və humanitar elmlərin tədrisinin müasir vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin üzvü, Daxili siyasətin təhlili departmentinin rəhbəri, professor Tahirə Allahyarova konfransda "Azərbaycanda ali təhsil sistemi: problemlər və inkişaf strategiyası", həmçinin, "Rəqəmsal texnologiyalar və süni intellekt dövründə təhsil sistemi: sosial aspektlər" mövzusunda məruzə ilə çıxış edib.



Konfransda edilmiş məruzələr ayrıca kitab şəklində çap ediləcək.

## 24.06.2020

2020-ci il iyunun 24-də Sosial Tədqiqatlar Mərkəzi ölkə üzrə keçirilən növbəti sorğunun nəticələrini təqdim edib. Təqdimat tədbirində Mərkəzin əməkdaşları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və “Üçüncü bahar” İctimai Birliyinin nümayəndələri iştirak ediblər.

Ölkədə ciddi karantin rejiminin şərtlərini nəzərə alaraq, “Azərbaycanda yaşlılar: qayğı və rifah” analitik hesabatının təqdimat konfransı “Zoom” onlayn platforması vasitəsilə təşkil olunub. Tədbiri açıq elan edən Mərkəzin İdarə Heyətinin sədr müavini, siyasi elmlər doktoru, Milli Məclisin deputatı Elşad Mirbəşir oğlu Azərbaycanda həyata keçirilən sosial tədqiqatların müasir dövrdə daşıdığı roldan bəhs edib.

Mərkəzin Sosial-iqtisadi təhlil departamentinin baş məsləhətçisi Humay Axundzadə layihəni təqdim edərək, tədqiqatın nəticələri haqqında məlumat verib. Bildirib ki, sorğunun əsas məqsədi Azərbaycanda yaşlıların rifahının müxtəlif aspektlərinin öyrənilməsidir. Sorğu ölkənin doqquz iqtisadi-coğrafi ərazisində 18 yaşdan yuxarı 1212 respondenti əhatə edib. Tədqiqatda yaşlıların vəziyyətini yaxın və uzaq perspektivdə şərtləndirən övladlıq borcu ilə əlaqədar sosial normalar, ailənin və dövlətin yaşlılara qayğı sahəsində məsuliyyət balansına dair ictimai gözləntilər, yaşlılıq dövründə arzu olunan qayğı və yaşayış formaları, yaşlılara dair siyasət, ictimai şüurda yaşlılara aid stereotip və təsəvvürlər, yaşlılara münasibətdə ayrı-seçkilik halları, pensiya yığımları və yaşlılar üçün infrastruktur haqqında ictimai rəy məsələləri öz əksini tapıb.




Təqdimat mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov çıxış edərək ölkədə yaşlı vətəndaşlara qayğı sahəsində görülən işlərdən, son illərdə sosial-iqtisadi islahatlar çərçivəsində həyata keçirilən dövlət tədbirlərindən, habelə pandemiya dövründə risk qrupuna daxil olan yaşlı vətəndaşlara qayğı üçün sosial təminat siyasəti çərçivəsində atılan addımlardan danışıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev konfransa qoşularaq hesabata təmsil etdikləri qurum adından yüksək dəyər verib, onun gələcək dövlət proqramlarının tərtibində mühüm mənbə olduğunu bildirib.

“Üçüncü bahar” İctimai Birliyinin sədri Nərmin Qəniyeva həyata keçirilən tədbirlərin yaşlı insanların həyat keyfiyyətinə müsbət təsirini vurğulayıb, onların təqaüd dövründə daha maraqlı və rəngarəng yaşaması üçün belə sorğuların əhəmiyyətini qeyd edib.

Sosial Tədqiqatlar Mərkəzinin Sosial-iqtisadi təhlil departamentinin rəhbəri Seymur Əliyev tədqiqat çərçivəsində ictimai rəyin öyrənilməsinin və onun nəticələrinin dövlətin müvafiq siyasət sənədlərində nəzərə alınmasının zəruriliyini, yaşlıların həyat şəraitinin yaxşılaşması üçün sosial siyasət konseptləri üzrə beynəlxalq təcrübə və onların üzləşdikləri əsas problemləri diqqətə çatdırıb.




## 02.09.2020

2020-ci ilin sentyabrın 2-də "İnam indeksi" nəşrinin üçüncü buraxılışının və "Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə" mövzusunda keçirilmiş ictimai rəy sorğusunun nəticələrinə həsr olunmuş brifinq keçirilib. Tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, "İnam indeksi" nəşrinin üçüncü buraxılışı Azərbaycan Prezidentinin ilin ikinci rübündəki – aprel-iyun ayları ərzindəki fəaliyyətinə həsr edilib. İctimai rəyin tədqiqi göstərir ki, son 5 ayda dünyada hökm sürən koronavirus pandemiyasına qarşı mübarizədə siyasi liderlik, dövlətin potensial resurs, güc və imkanlarını səfərbər etmək bacarığı, ictimai inam və etimadın qorunub saxlanılması milli birliyin təmin olunmasının başlıca şərtinə çevrildi.

Sosial Tədqiqatlar Mərkəzi eyni zamanda "Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə" mövzusunda ictimai rəy sorğusu əsasında böyük tədqiqat işi hazırlayıb. Azərbaycan dövlətinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində qəbul etdiyi antiböhran strategiyası, müvafiq dövlət siyasətinin ictimai rəy əsasında qiymətləndirilməsi hökumətin qarşıdakı dövr üçün qərarlarının planlaşdırılmasında əhəmiyyətli rol oynayır.

Z.Oruc daha sonra deyib: "Dünyada koronavirus pandemiyası təkcə ölkələrin iqtisadiyyatını, sosial rifahını, daxili və xarici əlaqələrini - bir sözlə, ictimai həyatın bütün sahələrini əhatə etdiyi kimi, ilk növbədə, dövlət rəhbərlərini, siyasi liderləri çətin sınaqlar qarşısında qoydu. Ötən aylar göstərdi ki, ölkə başçıları pandemiya təhlükəsinə müxtəlif vaxtlarda və formalarda reaksiya verməklə həm tarixi siyasi şəxsiyyətlərdən, həm də müasir dövrün peşəkar idarəçilərindən kəskin şəkildə fərqləndilər. Əlbəttə, bütün bunların nəticəsi olaraq, indi müxtəlif qitələrdə saysız-hesabsız suallar irəli sürən cəmiyyətlərin xüsusi davranışlarını görürük: "Onlar soruşur ki:

❖ Böhran şəraitində liderlər nə dərəcədə milli birliyi təmin edə bildilər?

❖ Öz millətinin taleyini üzərinə götürərək daxili və beynəlxalq əməkdaşlıq şəraitində, milli sərhədlər daxilində mərkəzi hakimiyyətin, yəni dövlətin vahidliyini nə dərəcədə qoruyub saxlamağa nail oldular?

❖ Xalqın sağlamlığını və təhlükəsizliyini qorumaq üçün məsuliyyəti öz çiyinlərində saxlayan rəhbərlər onu müxtəlif dövlətlərin, hökumətlərin və yerli orqanların üstünə atmaq deyil, əksinə, onların monolitliyini təmin edə bildilərmi?

❖ Hər bir xalqın, ayrıca fərdin davranışlarında baş qaldıran yeni sosial-psixoloji və siyasi dəyişikliklərə - əksər hallarda özünü qabarıq göstərən millətçilik və tarixi yaddaşın oyanması fonunda pandemiyadan tədricən çıxmaq kursunu seçərək, iqtisadiyyatın, sosial həyatın, iş yerlərinin və məşğulluğun - bir sözlə, normallaşma tədbirlərinin hesabına ictimai əmin-amanlığı və sülhü qorumaq mümkün oldumu?"

STM rəhbəri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti dünya tarixinin ən böyük sınaqlarından, bir sıra hallarda "müharibə" adlandırılan çətin imtahanından öz xalqını çıxarmaq üçün bütün təhlükələri üzərinə götürməyi, qeyri-standart şəraitdə meydana gələn çağırışları və problemləri həll etməyi bacardı, böhrana qarşı yeni keyfiyyətdə dayanıqlı xarakter, möhkəm iradə göstərdi və buna görə də onun xarizması, nüfuzu xalq içərisində güclü olaraq qalır. Bu nüfuz əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və ən başlıcası, 2019-cu ildən daha böyük miqyasda həyata keçirilən yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır. Eyni sözləri Mehriban xanım Əliyeva haqqında da söyləmək mümkündür. Ötən on illərdə olduğu kimi, son 5 ayda da Mehriban xanım dövlət və milli həyatın bütün sahələrində Prezidentlə çiyin-çiyinə addımladı və hər zaman xalqın yanında oldu.

Sədr daha sonra deyib ki, Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsi və dinamikasının izlənilməsinə, məlum olduğu kimi, ilk olaraq Sosial Tədqiqatlar Mərkəzi tərəfindən başlanılıb: "Təqdim edilən növbəti hesabat bu silsilədən 3-cü tədqiqat işidir, 2020-ci ilin ikinci rübünü - aprel-iyun aylarını əhatə edir. Sosioloji sorğu əsasında hazırlanmış analitik hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb.

Hesabatdan da görünür ki, qeyd olunan zaman intervalında dünyəvi sınaqdan qətiyyətlə çıxan ölkələr yeni reallığın tələb etdiyi islahatlarla daha da güclənəcək. Digər qrup ölkələr isə, əksinə, zəif rəhbərliyinə görə ağır vəziyyətə düşəcək, yoxsulluq, qeyri-sabitlik və iqtisadi durğunluqla üzləşəcəklər. Narahatlıq doğuran məqam həm də odur ki, ikinci qrup ölkələrin sayı birincilərdən daha çox olacaq.

İctimai rəy sorğusunun nəticələrinə əsaslanmaqla, uğur qazanan və sınaqdan çıxan dövlətlər arasında Azərbaycanın olmasını əminliklə söyləyə bilərik.

Bunu deməyə əsas verən dünyada pandemiyanın başladığı bir ilə yaxın müddətdə tədqiqatçı və ekspertlərin pandemiya ilə uğurlu mübarizəni müəyyən edən 3 əsas amili aşkara çıxarmasıdır:

❖ Siyasi lider amili;

❖ Dövlətin potensial resurs, güc və imkanları;

❖ İctimai inam və etimadın mövcudluğu.

Pandemiya böhranından çıxmağa və sonrakı güclü inkişafa təkan verəcək bu "uğur amilləri"nin 3 sütununa malik olan ölkələrdə vətəndaşların etibar etdiyi və güvəndiyi siyasi liderlər çevik strateji idarəçiliyi bərqərar etməklə, pandemiyanın vurduğu zərbələri neytrallaşdırmaqla qabil olurlar. Qarşılıqlı etimadın və milli birliyin olduğu cəmiyyətlərdə bu keyfiyyətlər koronavirus fonunda tamamilə yeni dəyər yaradır, milli gücə çevrilir".

STM sədri yekunda bildirib ki, pandemiya zamanı ölkələr siyasi-əxlaqi, mənəvi seçimlərlə üz-üzə qaldı. "Vətəndaşların sağlamlığının, yoxsa iqtisadiyyatın xilas ediləcəyini" seçim edərkən müxtəlif dövlətlər müxtəlif seçimlər etdilər. Azərbaycanın dövlət başçısı bəyan etdi ki, insanların həyatından vacib heç nə ola bilməz. Beləliklə, Azərbaycan rəhbərliyinin vətəndaşların sağlamlığını, rifahını və təhlükəsizliyini strateji prioritet olaraq önə çəkməsi yaranmış vəziyyətdə verilmiş

ən düzgün qərarlardan oldu.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün antiböhran fəaliyyətinin məzmunu - iqtisadi dəstək proqramları, sosial paketlərdən tutmuş səhiyyə infrastrukturunun adaptasiya və modernləşməsinə, yeni klinikaların inşasına qədər həyata keçirilən tədbirlər məhz bu məqsədə - vətəndaşın ali dəyər kimi mərkəzdə durmasına xidmət edir.

Tədbirdə STM İdarə Heyətinin sədr müavini Elşad Mirbəşir oğlu və Sosial-iqtisadi təhlil departamentinin rəhbəri Seymur Əliyev çıxış ediblər.

Sonda təqdim edilən hesabatlarla bağlı suallar cavablandırılıb.

## 01.10.2020




2020-ci il oktyabrın 1-də keçirilmiş media üçün brifinqdə "İkinci Qarabağ müharibəsi: ictimai rəydə" mövzusunda keçirilmiş sosioloji sorğunun nəticələri açıqlanıb. STM-in İdarə Heyətinin sədri Zahid Oruc və İdarə Heyətinin üzvü Tahirə Allahyarova brifinqdə çıxış edərək qeyd ediblər ki, Tovuz istiqamətində gedən şiddətli döyüşlərdən sonra Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycanı təhdid etməyə çalışaraq "yeni müharibə, yeni ərazilər" siyasəti həyata keçirəcəyini bəyan edirdi. Qeyd etmək lazımdır ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdı. Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə zərbə vurmaqda davam edirdi.

2020-ci ilin 12 iyul tarixində Ermənistan-Azərbaycan dövlət sərhədində - Tovuz rayonu istiqamətində gedən döyüşlərdə Ermənistan tərəfi müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutaraq canlı qüvvələrimizin və mülki vətəndaşlarımızın itki verməsinə səbəb olmuşdu. Azərbaycan tərəfi Ermənistanın təxribatlarının qarşısını qətiyyətlə almaqla yanaşı, yaşayış məntəqələrini və strateji yüksəklikləri qorumağa müvəffəq olmuşdu.

Məhz Ermənistanın təcavüzkar siyasəti

nəticəsində hazırda danışıqlar faktiki olaraq dayandırılıb. Münaqişənin həlli məqsədilə yaradılmış beynəlxalq vasitəçilik missiyasının işini dayandırmağa yönəlmiş hərəkətlər bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Lakin Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, Azərbaycan nəticəsiz danışıqları davam etdirməyəcək. O halda rəsmi İrəvanın on minlərlə insanı birləşdirən “könüllü” hərbi birləşmələr yaratmaq ideyası Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzünün düşünülmüş plan olduğunu sübut edir.

Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailənin Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirilməsi də işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma siyasəti aparıldığını bariz şəkildə nümayiş etdirir. Belə qanunsuz məskunlaşma cinayət hesab olunur və Cenevrə Konvensiyasına tamamilə ziddir. İşğal edilmiş torpaqlarda keçirilmiş hərbi təlimlər də Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları ələ keçirmək məqsədi daşıyır. İşğalçı Ermənistanın bütün davranışları aydın şəkildə onun genişmiqyaslı müharibəyə hazırlaşdığını göstərir.

Azərbaycan tərəfi bu barədə beynəlxalq ictimaiyyəti davamlı olaraq xəbərdar edirdi və Ermənistanın təxribatlarının qarşısının alınması üçün bütün tədbirləri görürdü. Azərbaycanın formalaşdırdığı ictimai-siyasi reallıq ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində tənzimlənməsini məqbul hesab edir.

Münaqişənin tənzimlənməsi prosesində vasitəçi qismində çıxış edən ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi işğalçı Ermənistanın özünü tam cəzasızlıq mühitində hiss etməsini şərtləndirmişdir. Artıq Azərbaycan cəmiyyətində münaqişənin dinc vasitələrlə tənzimlənməsinə olan inam əhəmiyyətli dərəcədə zəifləmişdir.

Yuxarıda sadalanan hərbi-siyasi reallıq fonunda Sosial Tədqiqatlar Mərkəzi tərəfindən keçirilən rəy sorğusunun məqsədi Azərbaycana qarşı hərbi təhdidlərə ictimai münasibəti müəyyən etməyə, dövlətin bu məqsədlər naminə yürütdüyü siyasətə xalqın münasibətini öyrənməyə və münaqişənin hərbi yolla tənzimlənməsinin perspektivlərinə vətəndaşların inamını ölçməyə xidmət edir.

Sorğunun nəticələri göstərir ki, Azərbaycan xalqı Prezidentin ərazi bütövlüyümüzün təminatı yolunda illərlə apardığı qətiyyətli siyasəti mütləq şəkildə müdafiə edir.Bu, vətəndaşlarımızın həm də dövlətimizə sadiqliyini nümayiş etdirir. Bu gün Azərbaycan ordusu öz rəşadəti ilə ölkəmizin ərazi bütövlüyünü qoruyur və böyük qəhrəmanlıq göstərir.

“İkinci Qarabağ müharibəsi: ictimai rəydə” mövzusunda keçirilmiş sosioloji sorğu nəticəsində Xalq-Prezident birliyi, ölkə rəhbərinin düzgün xarici siyasəti, Ali Baş Komandanın dərin və sistemli ordu quruculuğu siyasəti, düşmən üzərində son illərdə əldə edilmiş qələbələr, bir sıra ölkələrlə uğurlu hərbi əməkdaşlıq, müharibəyə hazırlıq səviyyəsi, Azərbaycan dövlətinin bütün növ silahlı qüvvələrə dair quruculuq siyasəti, dövlətimizin regional və qlobal mövqeyinin güclənməsi, nəticədə Milli Ordumuzun Ermənistan ordusundan güclü olduğunu sübut etməsi, növbəti dəfə düşməni psixoloji məğlubiyyətə uğratması ictimai fikirdə də müsbət qiymət almış, potensial müharibə şəraitində tərəflərə (Ermənistan və Azərbaycan) hansı ölkələrin nə dərəcədə və hansı istiqamətdə dəstək verəcəkləri, ATƏT-in Minsk qrupunun fəaliyyəti və digər önəmli faktorlar haqqında dəqiq ictimai baxışlar və aydın fikir formalaşmışdır.

Qeyd edək ki, əldə olunmuş nəticələr birinci mərhələdə 12 iyul Tovuz döyüşləri ərəfəsində Azərbaycan cəmiyyətinin potensial müharibə vəziyyəti ilə əlaqədar mövqeyini və gözləntilərini özündə əks etdirdiyi halda, ikinci mərhələ Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən II Qarabağ müharibəsinə cari vəziyyətdə ictimai münasibətin və həmrəylik səviyyəsinin öyrənilməsindən ibarət olub.

Onu da əlavə edək ki, brifinqdə STM-in əməkdaşı Elnur Çıraqov çıxış edərək uşaq yaşlarından öz doğma ata-baba yurdundan – doğma Kəlbəcərdən köçmək məcburiyyətində qaldığını, Vətən müharibəsində qazanılan qələbələrin hər bir məcburi köçkün və



qaçqın vətəndaşımızda olduğu kimi onun da qəlbində bir ümid yaratdığını qeyd edib.

Birfinqdə eyni zamanda həssas anlar da yaşanıb. Belə ki, 27 ildir evinin açarını sandığında saxlayan Cəbrayıl rayonunun Balyand kənd sakini, 71 yaşlı Qəhrəmanova Fitat Xəlil qızı torpaqlarımızın azad edilməsi münasibətilə əsgərlərimizə, dövlət başçısına təşəkkürünü bildirib. Hər qapını öz açarı açar deyən Fitat ana evinə dönəcəyi günü səbirsizliklə gözləyir. Fitat ananın 27 illik həsrətinin tək təsəllisi bu açarlar olub. Onların üzə çıxarmasına səbəb isə son günlər cəbhədən gələn qələbə xəbərləridir. O bildirib ki, ermənilər heç zaman bizim torpaqlarımızı işğal altında saxlaya bilməz: “Ora Azərbaycanındır, qələbə bizimdir, namusumuza sığışdıra bilmirik işğalda qalmasını. Allah şəhidlərimizə rəhmət eləsin, Sağ olsun bizim Prezident, ordumuza güc versin Tanrı. Zəfər bizimdir, erməni faşistləri bu torpaqdan gedəcək. Onlar kimdir ki?!”



## 24.12.2020

STM-in İdarə Heyətinin sədri Zahid Oruc 2020-ci il dekabrın 24-də keçirdiyi brifinqdə “Prezidentin fəaliyyəti ictimai rəydə: Vətən müharibəsi və 2020-ci ilin yekunları” adlı rəy sorğusunun nəticələrini açıqlayıb. Zahid Oruc bildirib ki, rəy sorğusunda respondentlərə Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi, Qarabağın hərbi yolla azad edilməsinə inamın əsasında duran amillər, müharibə və pandemiya dövründə əhalinin hiss etdiyi əsas təhlükələr və s. öyrənilməsi istiqamətləri üzrə suallar ünvanlanıb.

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında aparılıb. Sorğuda təsadüfi üsulla seçilmiş 1217 respondent iştirak edib. Seçmədə hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib.

Bildirilib ki, respondentlərin 96,4 faizi Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını 2020-ci ildə Azərbaycan Prezidentinin fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirib. 75,2 faiz respondent ölkə başçısının müharibə veteranları və yaralı hərbçilərlə görüşməsini və işğaldan azad olunmuş torpaqlara səfər etməsini təqdir edib. Bu il ərzində Prezidentin daha çox insan tərəfindən (68,5 faiz) təqdir olunan digər fəaliyyəti bir sıra icra hakimiyyəti başçılarının, yüksək vəzifəli şəxslərin qanunazidd fəaliyyətinə görə vəzifədən uzaqlaşdırılması olub. Respondentlərin 65,6 faizi Ali Baş Komandan İlham Əliyevin xalqa daim qələbə müraciətləri etməsini, 62,1 faizi dövlət başçısının xarici kütləvi informasiya vasitələrinə müsahibələrini və hücum diplomatiyasını 2020-ci ildəki fəaliyyətləri sırasında təqdir edib. Prezidentin korrupsiyaya qarşı mübarizəni gücləndirməsi və sərt mövqe göstərməsi 60,2 faiz, pandemiyanın mənfi təsirlərini azaltmaq üçün həyata keçirdiyi sosial dəstək siyasəti 60,1 faiz respondent tərəfindən təqdir olunub.

Prezident İlham Əliyev tərəfindən pandemiyaya qarşı mübarizənin idarə edilməsində strateji qərarların qəbul edilməsi 58,8 faiz respondent tərəfindən təqdir edilib. 57,1 faiz respondent Prezidentin beynəlxalq tədbirlərin təşəbbüskarı olmasını, 55 faiz respondent 2020-ci ildə ölkə başçısının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə keçirdiyi görüşlərin ictimailəşdirilməsini təqdir edib. Sorğuda iştirak edənlərin böyük əksəriyyəti (83.3 faizi) 2020-ci ildə ölkə başçısının fəaliyyətində təqdir etmədiyi məqamın olmadığını qeyd edib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin həm Vətən müharibəsi dövründə, həm də ümumilikdə 2020-ci ildəki fəaliyyəti əhali tərəfindən səmərəli qiymətləndirilir. 2020-ci il COVID-19 pandemiyası fonunda bütün dünyada olduğu kimi, Azərbaycanda da çətinliklərin yaşandığı il oldu. Buna baxmayaraq, 2020-ci il Azərbaycan dövlətinin tarixində torpaqlarımızın işğaldan azad olunması nəticəsində Zəfər ili oldu. Bu Qələbənin əsasında ölkə rəhbərinin geosiyasi vəziyyəti düzgün dəyərləndirməsi, resurslardan düzgün istifadəsi, diplomatik bacarıqları dayanır. Müsbət haldır ki, ölkə əhalisi Prezidentin bu fəaliyyətini dərindən təhlil edir və yüksək dəyərləndirir.

Sosial Tədqiqatlar Mərkəzi İctimai rəyin öyrənilməsi departamentinin müdiri Ayşəm Balayeva bildirib ki, sorğuda iştirak edənlərin əhəmiyyətli hissəsi əvvəlki dövrlərlə müqayisədə müharibə dövründə ölkəmizin beynəlxalq informasiya məkanındakı mövqeyini müsbət qiymətləndirib. Ölkəmizin beynəlxalq informasiya məkanında mövqeyini çox yaxşı qiymətləndirən 78,6 faiz respondentin 66,5 faizi Prezidentin xarici mediaya müsahibələrini müntəzəm olaraq izlədiklərini bildirib. Prezidentin xalqa müraciətlərini respondentlərin 72,2 faizi müntəzəm izləyib.

Vətən müharibəsindən sonra Prezidentin siyasi lider kimi şəxsi keyfiyyətlərinə ictimai münasibətə gəlincə, əhalinin mütləq əksəriyyəti (81,6 faiz) dövlətimizin başçısında yeni şəxsi keyfiyyətlər müşahidə edib.

Respondentlərin mütləq əksəriyyəti (93,7




faiz) müharibədə göstərdikləri xidmətlərə görə zabit və əsgər heyətinin təltif olunmasını müsbət qiymətləndirib. Sentyabrın 27-nin Anım günü kimi qeyd edilməsi ilə bağlı həmfikir olduğunu bəyan edən respondentlər rəyi öyrənilənlərin 96,7 faizini təşkil edib. Noyabrın 8-nin Qələbə günü kimi qeyd edilməsi ilə bağlı qərarı dəstəkləyənlər isə 99 faiz civarında olub.

Respondentlərin mütləq əksəriyyəti Prezidentin rəhbərliyi ilə ordu quruculuğu və ordunun təkmilləşdirilməsi istiqamətində görülən işləri çox səmərəli qiymətləndirib (94,6 faiz çox səmərəli, 1 faiz əsasən səmərəli).

Sorğuda iştirak edənlərin 85,1 faizi Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətini çox səmərəli, 10,4 faizi isə əsasən səmərəli qiymətləndirib.

İşğaldan azad olunmuş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara inam mütləq çoxluqla (97,7 faiz) müşahidə edilir.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb.

## 07.01.2021

STM 2021-ci ilin ilk tədbirini yanvarın 7-də Azərbaycan Universiteti ilə birgə keçirib. Azərbaycan Universitetində qələbə vebinarları seriyasından növbəti tədbir "Qarabağa Böyük Qayıdış" mövzusuna həsr olunub. Sosial işin təşkili kafedrası tərəfindən təşkil olunan vebinarın qonağı Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc olub. Tədbirdə qeyd olunub ki, Azərbaycan indi Qarabağa böyük qayıdış ərəfəsindədir və ölkəmiz həyata keçiriləcək qayıdış planı ilə Qarabağı dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevirmək əzmindədir.




STM İdarə Heyətinin sədri Zahid Oruc qeyd edib ki, dünyada mahiyyət etibarilə Dağlıq Qarabağ münaqişəsi ilə paralellik göstərən dövlətlərarası problemlər olsa da, ölkəmizin işğalçı dövlət üzərindəki qələbəsinin heç bir bənzəri yoxdur. O cümlədən tarixi torpaqlara, ata-baba yurduna qayıdışın da beynəlxalq nümunəsini, prototipini tapmaq mümkün deyil. Bu istiqamətdə mövcud olan yanaşma və təkliflər haqqında məlumat verən STM-in sədri Qarabağa qayıdış planının hazırlanması və həyata keçirilməsi ilə bağlı fikirlərini tədbir iştirakçıları ilə bölüşüb, döyüş meydanında olduğu kimi yenidənqurma, abadlıq və bərpa işlərində də Ali Baş Komandan-Ordu-Xalq birliyinin qorunmasının əhəmiyyətinə toxunub.

Çıxışlardan sonra tədbir iştirakçılarına STM-in Ermənistanın təxribatı nəticəsində 27 sentyabr 2020-ci il tarixindən başlayan və Azərbaycan ordusunun əks-həmlə əməliyyatı ilə "sülhə məcburetmə" xarakteri daşıyan müharibə, onun nəticələri ilə bağlı gözləntilər, məcburi köçkün ailələrinin azad edilmiş torpaqlara qayıdış planı, onların ermənilərə və onlarla birgəyaşayışa münasibəti və son olaraq, müharibə şəraitində Azərbaycan ordusu və dövlətinin xalqla birliyinə münasibəti öyrənmək məqsədilə məcburi köçkünlərlə keçirdiyi sorğunun nəticələri təqdim olunub. Bildirilib ki, sorğu Qobu qəsəbəsinin ərazisində mənzillə təmin olunan və faktiki yaşayan 464 məcburi köçkün ailəsi ilə telefon vasitəsilə keçirilib.

Sorğunun nəticələrinə görə, I Qarabağ müharibəsi zamanı Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində 30 ildir doğma torpaqlarını və yaşayış məskənlərini tərk edən vətəndaşlarımızın mütləq əksəriyyəti Azərbaycan ordusu tərəfindən azad olunan kənd və şəhərlərə qayıtmaq əzmində və inamındadır. Digər tərəfdən, öz doğma yurdlarına yüksək ideallar və müqəddəs duyğularla qayıdacağını bəyan edənlərin sırasında gənclər xüsusi çəkiyə malikdir.

Zahid Oruc sonda tədbir iştirakçılarının ona ünvanlanan çoxsaylı suallarını cavablandırıb.



## 12.02.2021

2021-ci ilin fevralın 12-də STM böyük qayıdışla bağlı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) nümayəndəliyi ilə müzakirələr aparıb. Görüşdə STM tərəfindən İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc, İdarə Heyətinin üzvləri - millət vəkili Elşad Mirbəşir oğlu, Tahirə Allahyarova və tədqiqat qrupunun üzvləri - Seymur Əliyev və Nilufər Məmmədova, BMT QAK tərəfindən isə ölkə üzrə nümayəndə cənab Quido Ambroso, Hüquq departamentinin rəhbəri Oktavian Mohorea və həmin departamentin müdir müavini Samirə Allahverdiyeva iştirak edib.

Görüşün əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmanın effektiv planlaşdırılması üçün tədqiqat lahiyəsi çərçivəsində BMT QAK ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətlərinin müzakirəsi olub.

Müzakirə çərçivəsində STM sədri Zahid Oruc işğaldan azad olunmuş ərazilərə böyük qayıdışla bağlı konseptin önəmi və prosesin Azərbaycan üçün stateji əhəmiyyəti barədə fikirlərini bölüşüb. Mərkəz tərəfindən icra olunan tədqiqat layihəsində yenidən məskunlaşmaya dair dayanıqlı həll yolları ilə bağlı dünyada bu sahə üzrə ixtisaslaşmış qurum olan BMT QAK-ın fikirlərinin diqqət mərkəzində saxlanılmasının önəmini vurğulayıb.

BMT QAK-ın ölkə üzrə nümayəndəsi Quido Ambroso qurumun Azərbaycandakı fəaliyyətindən danışıb və əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını qeyd edib. O həm də 10 noyabr Bəyanatının 7-ci maddəsi çərçivəsində BMT QAK-ın dövlət qurumları ilə yanaşı tədqiqat mərkəzləri ilə əməkdaşlığının vacibliyini vurğulayıb.

Müzakirədə Seymur Əliyev layihənin prioritetləri və məskunlaşma siyasətində mövcud olan əsas mülahizələri bölüşüb.

Sonda əməkdaşlığın növbəti addımları müəyyənləşdirilib.

## 22.02.2021



2021-ci il fevralın 22-də STM-in Mətbuat xidməti "Vətən müharibəsində qələbədən sonra gələcəyi birgə quraq" mövzusunda görüş keçirib.

Görüşdə 44 günlük Vətən müharibəsinin iştirakçısı olan döyüşçülər, bəzi şəhid və itkin ailələri, qazilər iştirak ediblər.

Görüş Azərbaycan Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Vətən müharibəsində şəhid olan döyüşçülərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonda Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc tədbiri giriş nitqi ilə açaraq bu tip görüşlərin davamlı olacağını vurğulayıb.

Tədbirdə iştirak edən "YAŞAT" Fondu Himayəçilik Şurasının üzvü, Aprel şəhidi polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Əlizadə, Şuşa döyüşlərində şəhid olan mayor Vüsal Vəliyevin qardaşı Elyar İslamoğlu, tanınmış jurnalist, qazi Rey Kərimoğlu çıxışlarında belə görüşlərin vacibliyini qeyd edərək "YAŞAT" Fondunun gördüyü işlər, dövlətin dəstəyi ilə yanaşı digər qurumların da şəhid ailələri və qazilərlə iş üzrə koordinasiyalı şəkildə fəaliyyət göstərmələri qeyd olunub, qaziləri narahat edən bir sıra məsələlər səsləndirilib.

STM-in sədri Zahid Oruc vurğulayıb ki, icra hakimiyyətləri Vətən müharibəsi iştirakçıları və onların ailələri ilə bağlı xüsusi qəbul günü müəyyən etməlidir: "Bu, icra hakimiyyətlərinin xüsusi arzularından, baxış bucaqlarından asılı olmamalıdır. Xüsusi bir gün təyin olunmalı və Vətən müharibəsi iştirakçıları, şəhid ailələri və qazilər qəbul olunmalı, şikayətləri dinlənilməlidir".

O bildirib ki, Vətən müharibəsində "Dəmir yumruq"la Xocalı soyqırımını törədənlərdən qisas alınıb. Z.Oruc qarşıdan Xocalı soyqırımının ildönümünün gəldiyini xatırladıb: "Biz artıq qalib ölkəyik, bu il Xocalı soyqırımını qalib ölkə kimi yad edəcəyik. Ona görə bu il Xocalı soyqırımının anım mərasimlərinə fərqli şüarlarla çıxmalıyıq".

Daha sonra tədbirdə dinləmələr keçirilib.

Qazilər və şəhid ailələrinin müraciətləri qeydə alınıb.

## 01.03.2021

2021-ci il martın 1-də STM-in Mətbuat xidməti “Milli alqı və ritm” mövzusunda tədbir keçirib.

STM-in İdarə Heyətinin sədri, millət vəkili Zahid Orucun moderatorluğu ilə keçirilən tədbirdə “Milli kimlik və milli ideologiya” mövzusunda açılış nitqi söylənib. Tədbirdə məruzəçilər qismində fəlsəfə üzrə elmlər doktoru Əbülhəsən Abbasov, fəlsəfə doktoru, millət vəkili Etibar Əliyev, fəlsəfə doktoru, millət vəkili Fazil Mustafa, tarixçi Əkbər Nəcəf və jurnalist, araşdırmaçı Elxan Şükürlü qonaq qismində iştirak ediblər.

Milli kimlik və milli ideologiya məsələləri haqqında müzakirələrin önəmindən bəhs edən millət vəkili Zahid Oruc STM Mətbuat xidmətinin bu qəbildən müzakirələrinin bundan sonra davamlı xarakter alacağını vurğulayıb. Eyni zamanda o bildirib ki, tədbirdə mövzular ətrafında məruzəçilərin səsləndirdikləri fikirlər diqqətdə saxlanılacaq və dövlətə təqdim olunacaq.

Tədbirdə çıxış edən professor Əbülhəsən Abbasov Vətən müharibəsindən sonrakı dövrdə mövcud olan ideoloji-fəlsəfi reallıqdan bəhs edib. O qeyd edib ki, belə dinləmələr və polemikalar postpandemiya dövrünün reallığına çevrilməli və daha böyük auditoriyalar ilə təşkil edilməlidir. Eyni zamanda Əbülhəsən Abbasov bildirib ki, milli kimlik ətrafındakı müzakirələr və dinləmələr indiki dövr üçün mühüm əhəmiyyətə malikdir.

Millət vəkili Etibar Əliyev müstəqillik tarixinin 30 illik ideoloji bazisi mövzusunda çıxış edib. O bildirib ki, milli identiklik məsələsi qalib xalq üçün önəmli mövzudur. Koronavirus pandemiyası bitdikdən sonra belə müzakirələrin daha geniş auditoriyalarda keçirilməsinin də əhəmiyyətli olduğunu bildirən millət vəkili milli kimlik və qlobal kimlik məsələsində də fikirlərini bölüşüb.

Millət vəkili Fazil Mustafa mövcud milli kimliyimizin fəalsəfi bazasından bəhs edib, maarifçilik dönəmindən və ondan əvvəlki dövrün tarixi gerçəkliklərindən danışıb. O qeyd edib ki, belə mövzular ətrafında müzakirələri sosial media məcrasından daha böyük platformalara daşımaq lazımdır.



Tarixçi Əkbər Nəcəf və Elxan Şükürlü də mövzu ilə bağlı öz təkliflərini veriblər.

Ayrı-ayrı çıxışlarda qələbədən sonrakı milli kimlik, vətəndaş-məmur münasibətlərində, xarici münasibətlər sistemində, təhsildə və s. gözlənilən dəyişikliklər dilə gətirilib. Milli kimlik anlayışının komponentlərinə - milli identiklik, kollektiv simvol, milli xarakter məsələlərinə toxunulub. Bildirilib ki, 44 günlük müharibə dövründə qələbə bizim milli birlik rəmzimizə çevrilib.

Paneldə qələbənin tarixə baxışı necə dəyişdirdiyi mövzusu ətrafında da fikirlər səsləndirilib.

## 09.03.2021



2021-ci il martın 9-da “Azərbaycan Sığortaçılar Assosiasiyası” (ASA) İctimai Birliyi ilə Sosial Tədqiqatlar Mərkəzinin (STM) rəhbər heyəti arasında görüş keçirilib.

Görüşdə STM-in İdarə Heyətinin sədr müavini, millət vəkili Elşad Mirbəşir oğlu Mərkəz haqqında məlumat verərək həyata keçirilən layihələrdən danışıb.

Baş verən proseslərin cəmiyyətə təsir imkanlarının müəyyənləşdirilməsi məqsədi ilə Mərkəzin reallaşdırdığı tədqiqat və sorğu fəaliyyətinin vacibliyinə toxunan sədr müavini növbəti mərhələdə məhz bu kimi addımlarla önəmli bir maliyyə seqmenti olan sığorta sahəsinin inkişafında da maraqlı olduqlarını bildirib. Mərkəz rəsmisi eyni zamanda son dövrlər sığorta sahəsində xüsusi bir canlanma yarandığını və bu müsbət dəyişiklikdə ASA-nın önəmli rol oynadığını xüsusi qeyd edib.

ASA-nın icraçı direktoru Elmar Mirsalayev də öz növbəsində qurum haqqında ətraflı məlumat verib. İcraçı direktor STM-in fəaliyyətini yaxından izlədiklərini və həyata keçirilən layihələrin mövcud vəziyyətdə yaratdığı müsbət təsirlərin müşahidə edildiyini bildirib və iki qurum arasında əməkdaşlığı yüksək qiymətləndirib. O, həmçinin növbəti mərhələdə aparılacaq sorğu və tədqiqatlar nəticəsində sığorta sektorundakı fundamental problemlərin aşkarlanmasında, onların tez bir ssszamanda aradan qaldırılmasında və bununla da ölkə iqtisadiyyatının dayanıqlı inkişafında maraqlı olduqlarını bildirib.

Görüşün sonunda ASA ilə STM arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

## 30.04.2021



2021-ci il aprelin 30-da Sosial Tədqiqatlar Mərkəzi əməkdaşlarının Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova ilə görüşü keçrildi. Tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc qeyd etdi ki, Mərkəzin əməkdaşları hər il təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatını əhatə edən, ölkə Prezidentinin həyata keçirdiyi islahatların gedişini təhlil edən müxtəlif sosioloji sorğu, analitik təhlil, siyasət, mövqe və arayış sənədləri hazırlayaraq ölkə rəhbərliyinə, aidiyyəti qurumlara və ictimaiyyətə təqdim edib. Bu müddət ərzində fəaliyyət coğrafiyasını genişləndirən Mərkəz bir sıra yerli və beynəlxalq beyin mərkəzləri ilə əməkdaşlıq əlaqələri qurmağa nail olub. Əməkdaşların bilik və bacarıqlarının artırılması məqsədilə bir sıra seminarlar və təlimlər təşkil edilib. Mərkəzin sədri çıxışında onu da əlavə edib ki, bu cür görüşlər əməkdaşların fəaliyyətinə əlavə stimul verməklə yanaşı, gələcək fəaliyyətin konturlarının müəyyənləşdirilməsi, fəaliyət planlarına müəyyən korrektələrin edilməsi, planlama və proqnozlaşdırmaların, həmçinin hədəflərin düzgün müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev çıxışında qeyd etdi ki, STM fəaliyyətə başladığı qısa dövr ərzində ona göstərilən etimadı hazırladığınız hesabat, arayış, təhlil sənədlərinin keyfiyyəti ilə doğrultmağa çalışıb: “Bizim də qənaətimiz ondan ibarətdir ki, bu müddət ərzində Sosial Tədqiqatlar Mərkəzində kifayət qədər akademik, konstruktiv və işgüzar bir mühit yaranıb. Qəbul etdiyimiz hesabatlarda da bu, qabarıq şəkildə özünü büruzə verir. Mərkəzin yaradılması uzun bir dövrə təsadüf etməsə də, Mərkəz qısa müddət ərzində bir tədqiqat modeli ortaya qoya bilib. Zahid müəllimlə görüşlərdə həmişə bunu müzakirə edirdik. Bildiyimiz ki, hər bir tədqiqat mərkəzinin özünəməxsus cəhətlərindən biri, məhz özünəməxsus bir tədqiqat metodologiyasını və metodunu ortaya qoymasıdır. Təbii ki, ümumi metod da var, amma hər bir mərkəz özünü mərkəzlər fonunda fərqləndirməyi bacarmalıdır. Azərbaycan cəmiyyətində ümumi təyinatlı mərkəzlər var, özəl sektorda çalışan müəyyən mərkəzlər və tədqiqat institutları var. Bunların fonunda Sosial Tədqiqatlar Mərkəzi öz qələmi və dəst-xətti ilə seçilir. Qənaətimiz ondan ibarətdir ki, sizin hər bir hesabatınızda insanı düşündürən və dövlətçiliyimiz üçün önəmli ola biləcək bir ana xətt olur”.

H.Hacıyev bütün bunlarla yanaşı xüsusilə postmüharibə dövründə tədqiqat mərkəzlərinin, o cümlədən Sosial Tədqiqatlar Mərkəzinin qaşısında yeni vəzifələrin, çağırışların dayandığını qeyd etdi. O, xüsusilə vurğuladı ki, fəaliyyətin məhz bu çağırışlar və yeni reallıqların dəyərləndirilməsi və nəzərə alınması üzərində qurulması zəruridir. Beynəlxalq müstəvidə ölkədaxili siyasi-iqtisadi, sosial prosesləri tədqiq edən analoji mərkəzlərlə əməkdaşlıq əlaqələrinin qurulması, təcrübə mübadiləsi, eyni mövzuda araşdırmaların aparılması məqsəduyğundur. Eyni zamanda ölkəmizdə fəaliyyət göstərən müxtəlif aparıcı tədqiqat mərkəzlərinin bir araya gələrək eyni mövzuda tədqiqatlar aparması, daxili və xarici siyasətin gündəliyində olan məsələləri birgə araşdırması da vacibdir. STM-in hazırladığı analitik təhlil sənədlərinə beynəlxalq səviyyədə də etimatlılıq dərəcəsinin artırılmasına çalışılmalıdır.

Görüşdə iştirak edən S.Yusifova da qeyd



etdi ki, STM arxada qalan bu müddət ərzində gözləntiləri doğrulda bilib: "Heç şübhəsiz, pandemiya olmasaydı, daha yaxşı nəticələr əldə etmək mümkün olardı. STM Azərbaycan çərçivəsində öz sözünü deyib, artiq regional və qlobal çərçivədə öz sözünü deməlidir. Bu gün müharibədən Zəfərlə çıxmış və regionda yeni reallıqlar yaratmış Azərbaycanla bağlı yeni baxışların formalaşmasına ehtiyac var. Zəfər çalmış Azərbaycan xalqının, Azərbaycan millətinin, Azərbaycan dövlətinin də müvafiq ideoloji bazası, baxışları olmalıdır. Belə düşünürəm ki, STM bu prosesdə öz sözünü deyə biləcək".

Sonra STM İdarə Heyəti sədrinin müavini E.Mirbəşir oğlu, İdarə Heyətinin üzvü T.Allahyarova, icraçı direktor S.Məmmədov, İctimai rəyin öyrənilməsi departamentinin rəhbəri A. Balayeva, Sosial-iqtisadi təhlil departamentinin rəhbəri S.Əliyev, baş məsləhətçilər Ə.Əlibəyli, H.Axundzadə, İ.Hüseynov və başqa əməkdaşlar çıxış edərək onları maraqlandıran məsələlərlə bağlı öz fikirlərini bölüşdülər.

PA rəsmiləri STM əməkdaşlarını maraqlandıran suallara cavab verdilər. Görüşdə STM-in fəaliyyət planı, qarşıda duran vəzifələr və strateji istiqamətlərlə bağlı qarşılıqlı fikir mübadiləsi və müzakirələr aparıldı.

## 05.07.2021

2021-ci il iyulun 5-də Sosial Tədqiqatlar Mərkəzində Rusiya Federasiyasının Azərbaycandakı diplomatik nümayəndəliyinin heyəti ilə görüş keçirilib.

Görüşdə STM İdarə Heyətinin üzvləri Mərkəzin fəaliyyət dairəsinə aid olan məsələlər və həyata keçirilən layihələr haqqında qonaqlara ümumi məlumat veriblər.

Eyni qaydada, səfirlik nümayəndələri münasibətlərin inkişafı və əlaqələrin təşkili ilə bağlı lazımi koordinasiyanın təmin edilməsinə dair dəstək göstərilməsində maraqlı olduqlarını ifadə ediblər. Nümayəndəliyin üzvləri ilə STM kollektivinin qarşılıqlı fikir mübadiləsi ölkələr arasında sosial, siyasi-iqtisadi, o cümlədən mədəni, humanitar sahələrdə fəaliyyət göstərən institut və təşkilatların əlaqələrinin genişləndirilməsi istiqamətində davam edib. Qeyd edilən məsələlərlə bağlı Azərbaycan və Rusiyanın müvafiq qurumlarının əməkdaşlıq perspektivləri və bu istiqamətdə ikitərəfli təşəbbüslərin reallaşdırılması ilə bağlı səmərəli müzakirələr aparılıb. Görüşün yekununda Mərkəzin apardığı sosioloji sorğu tədqiqatları və dərc etdiyi digər nəşrlər qonaqlara təqdim edilib.



## 28.09.2021



2021-ci il sentyabrın 28-də Vətən müharibəsi şəhidlərinin xatirəsini daim xalqın qalibiyyət yaddaşında yaşatmaq və bu böyük, müqəddəs irsi davam etdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin təşkilatçılığı ilə "Memorial.az saytı - Yaddaş kitabı"nın təqdimatı keçirilib.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, 44 günlük Vətən müharibəsi yeni Azərbaycan dövlətinin və yeni Azərbaycan millətinin qanla və torpaqla yoğrulduğu epoxadır: "Cənab Prezidentin qeyd etdiyi kimi "44 günlük Vətən müharibəsi milli iradə, milli ruh və milli ləyaqətin təntənəsidir". Bu ötən bir il ərzində biz yenilənmiş Azərbaycana daxildən və xaricdən baxışın fundamental dəyişməsinin, ölkəmizə və xalqımıza qarşı oturuşmuş stereotiplərin dağılmasının, dünyanın tamamilə yeni bir Azərbaycanı kəşf etməsinin şahidi olduq. Azərbaycan Prezidenti cənab İlham Əliyevin BMT-nin 76-cı sessiyasındakı tarixi çıxışı XXI əsrin əsas paradiqmasına çevriləcək ümumbəşəri prinsip kimi ədalətə çağırışdır, hər bir azərbaycanlının düşündüyü və bütün dünyaya çatdırmaq istədiyi mesajdır. Ermənistanın münaqişə dövründə status-kvonu saxlamaq və işğalı möhkəmləndirmək, münaqişənin son 2 ili ərzində danışıqların formatını və mahiyyətini dəyişdirmək cəhdləri, ona qarşı sanksiyaların tətbiq edilməməsi və illər ərzində hökm sürən cəzasızlıq, 2020-ci ilin iyul-avqust aylarında törətdiyi təxribatlar 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı yeni irimiqyaslı hücumu ilə nəticələndi.

Buna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək, hərbi-siyasi yollarla 30 illik münaqişəni həll



etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Münaqişə keçmişdə qaldı. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etdi. Bu, yəqin ki, BMT-nin yarandığı vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasında ikili standartlara və selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası

mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var.

Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır. 44 günlük Vətən müharibəsi XXI əsrdə dünya xalqlarının ədalətsizliyə qarşı ucalan ilk səsidir. Zəfərimizin sədasını hələ uzun müddət eşidəcəyik.

S.Yusifova qeyd edib ki, bir xalq üçün onun yaddaş kitabının nəşr edilməsi, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi mühüm əhəmiyyət kəsb edir: "Şəhidlər mövzusu həmişə Azərbaycan xalqı üçün həssasdır. Memorial.az saytının yaradılmasında məqsəd pərakəndəliyi aradan qaldırmaq, hər bir şəhid haqqında məlumatları daha müfəssəl şəkildə çatdırmaqdır. Gələcəkdə Aprel döyüşləri və I Qarabağ müharibəsi şəhidləri haqqında da məlumatların burada yerləşdirilməsi nəzərdə tutulur".

Layihənin rəhbəri Vüsal Məmmədov bildirib ki, məqsəd şəhidlər haqqında məlumatları bir mərkəzdə sistemli şəkildə cəmləşdirmək idi: "Hər bir media orqanları şəhidlərin ailələri ilə görüşüb, onlar haqqında materiallar hazırlayıb. Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin öz əməkdaşları haqqında yaydığı məlumatlar var. Amma bunlarda pərakəndəlik var idi, xəttin davamiyyəti qırılırdı. Bir şəhid haqqında məlumat veriləndən sonra onun ailə üzvləri ilə bağlı informasiyalar qırılırdı. Məsələn, övladı məktəbə gedir, şəhidin adına park açılır və digər məlumatlar yayılır. Bunlar sujet halında davam etmirdi və boşluq var idi. Bu boşluqları memorial.az saytında aradan qaldırmağa çalışdıq. Bu insanların həyatı sonsuza qədər davam edəcək və burada yazının son nöqtəsini qoymaq mümkün olmayacaq".

STM İdarə Heyətinin sədri Zahid Oruc çıxışında qeyd edib ki, "Vətən müharibəsinin bir ili qarşısında memorial.az-yaddaş kitabının yaradılması şəhidlərimizin müqəddəs əməllərini tarixiləşdirmək və gələcək nəsillərə ötürmək baxımından mühüm hadisədir. 2907 şəhidin və itkin düşən 7 nəfərin sırasında polkovnikdən mükəlləfiyyətli əsgərə qədər xalqımızın seçilmiş övladlarıdır. Adları, təvəllüdləri, ulduzları fərqlidir, lakin hamısı bir bayrağın ulduzuna çevrilib Vətən üçün eyni mərtəbəyə yüksəliblər".

Zahid Oruc bildirib ki: "Azərbaycan xalqı çox minillik tarixində yeni dövlət və millət təqviminin birinci ilini qeyd edir. Milad və hicri təqvimi kimi 44 gün bir millətin yenidən yaradılışı, Dirilişidir! Qara haşiyəyə alınmış tarix və məğlubiyyət səhifələri artıq qapanıb, 27 sentyabr Anım Günü ilə Zəfərin mövludu başlayıb.

27 sentyabr 2020-ci il tarixi milli səfərbərliyin ən yüksək zirvəsi, xalqımızın çoxəsrlik arzularının gerçəkliyə çevrildiyi dönüş anıdır. Ulu öndər Heydər Əliyev deyirdi: "Azadlığa nail olmaq üçün milli ruhun canlanması lazımdır". 1993-cü ilin xilaskarlıq missiyası 27 ildən sonra ölkəmizə yeni qələbələr gətirdi.Prezident İlham Əliyevin 17 ildə Ermənistanın başı üzərində tutduğu siyasi, iqtisadi, mədəni, diplomatik Dəmir Əl 27 sentyabrda Silahlı Yumruğa çevrilərək düşməni məğlub etdi və təkcə torpaqlarımızı deyil, yaşadığımız regionu da millətçi faşizmdən və separatizmdən qurtardı.

Azərbaycanın və azərbaycanlıların dünyada formalaşan yeni nümunəsi-ədalətsizliklə barışmayan və sonda qalib gələn xalq və dövlət obrazı xarici işğallar altında qalan islam ölkələri, o cümlədən separatizmdən əziyyət çəkən dövlətlər üçün bir simvola çevrildi. Heç şübhə etmirik ki, dünyanı və regionumuzu dəyişdirən 44 günün əks-sədası hələ uzun sürəcək. Lakin ən böyük nəticə Haqqın təntənəsidir. Azərbaycanın hərbi Zəfəri dünyada ədalət istəyən hər bir xalqın və dövlətin qələbəsidir. Ona görə də 27 sentyabr tarixində verilən döyüş əmri Ali Baş Komandanın qərarları sırasında hər zaman öncüllüyünü qoruyacaq! Eləcə də, Birinci şəxsin diplomatik, siyasi, informasiya səngərində savaşı, xüsusilə dünən olduğu kimi xalqa müraciətləri dünyada müharibə liderliyini öyrənənlər üçün qiymətli mənbə olacaq.

Gəlin bir daha vurğulayaq ki, son 30 ildə Şəhidlər xiyabanı millətimizin təkcə azadlıq simvolu, əbədi ziyarət yeri deyil, həm də düşmənə qarşı mənəvi səfərbərlik və milli birlik ünvanı oldu. Ona görə Şəhidlər xiyabanı həm də Zəfər abidəsidir, çünki müqəddəs amalları və əməlləri qalib gəlib!

Biz döyüş meydanlarında canını verən oğulları anarkən, Gəncə və Bərdəyə, Tərtər və digər şəhərlərə vurulan zərbələrə sinə gərənləri də eyni ehtiramla anırıq. Min illərdir bir xalqa, mədəniyyətə, dilə və məsləkə malik olanların



sırasından qurban gedənlərin hamısı dəyərlidir, unudulmazdır, ehtirama layiqdir. Qələbəmizin bir ili qarşısında hesabat verərkən, "Böyük Qayıdış", "Böyük Quruculuq" və "Böyük Azərbaycan" idealını fərəhlə qeyd edirik .Əgər Qayıdış başlanırsa, bir daha o torpaqlardan millətimizi heç bir qüvvə çıxara bilməyəcək!

İndi qətiyyən şübhə yoxdur ki, düşmən hansısa partiyanı, hakimiyyəti, siyasi şəxsi deyil, məhz dövlətimizin məhvini, millətimizi özünə tabe etməyi hədəf seçmişdi. Lakin Azərbaycan xalqı döyüş meydanlarında bir qüvvəni-erməni faşizmini məğlub etdi".

Sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, memorial.az - yaddaş kitabı elektron resursu qəhrəmanlara, şəhidlərə həsr olunub: "Biz parlaq qələbəmizi qəhrəmanlara, şəhidlərə borcluyuq. Dövlət başçısının vurğuladığı kimi bizim tarixi qələbəmiz qürur mənbəyimizdir.

Postmüharibə dövründə davamlı olaraq tədbirlər həyata keçirilir. Bunların bir qismi şəhid ailələrinə həsr olunur. Bu dövrdə 30 mindən çox dəstək, sosial müdafiə tədbirləri həyata keçirilib. Vətən müharibəsi şəhidlərinin ailələrinə və əlillərinə indiyədək 1600 mənzil və fərdi ev verilib. Postmüharibə dövründə 142 hərbçi son nəsil yüksək texnologiyalı protezlərlə təmin edilib. 1500 qaziyə reabilitasiya xidmətləri göstərilib. "Məşğulluq marafonu" çərçivəsində 765 şəhid ailə üzvü işlə təmin olunub".

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi, general-mayor Bəkir Orucov bildirib ki, ötən gün xalqımız Anım Gününü qeyd etdi və qarşıda ölkəmizi "Zəfər Günü" bayramı gözləyir:

"Azərbaycan xalqını bu günə kimi təqvimində belə bir tarix yox idi. Ali Baş Komandan ölkəmizin iqtisadiyyatını gücləndirdi, orduda islahatlar apardı, Ordumuzu ən müasir silahlarla təmin etdi və zamanı gələndə "İrəli" komandası verdi. Düşmən müharibə zamanı ballistik silahlardan tutmuş digər vasitələrlə bizə zərbələr endirdi. Ordumuz 44 gündə hər gün irəli gedib. Düşmən arxayın idi ki, yüksək hündürlüklər onlardadır və Azərbaycan ordusu qalib gələ bilməyəcək. Onlar hətta düşünürdü ki, 2016-cı ilin aprelində Azərbaycanın işğaldan azad etdiyi əraziləri də geri ala biləcəklər. Amma ordumuz sədləri yardı, yüksəklikləri ələ keçirdi və qələbəni qazandı".

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova bildirib ki, Aprel döyüşləri 26 ildən sonra Azərbaycan xalqının Vətən eşqi ilə yaşadığını, Qarabağa geri qayıtmağı bir an belə unutmadığını dünyaya sübut etdi: "2016-ci il aprel dyüşlərindən sonra şəhid ailələrinə dəstək üçün birliyimizi yaratdıq. Mən deyirdim ki, inamım var və biz bir gün geri qayıdacayıq. Çünki gənclərin gözündə Vətən eşqini görürdüm. Nə xoş bu günə ki, biz artıq Qarabağa gedə bilirik. Bizə bu günü yaşatdığı üçün Azərbaycanın Qəhrəman Ordusuna minnətdarıq".

## 20.10.2021

2021-ci il oktyabrın 20-də Moskva şəhərində Sosial Tədqiqatlar Mərkəzi ilə Rosskonqress Fondu arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumun imzalanmasında məqsəd humanitar maarifləndirmə, elmi-tədqiqat layihələrinin Azərbaycan və Rusiya Federasiyası ərazilərində birgə həyata keçirilməsidir. Həmçinin, imzalanmış memorandum Azərbaycanla Rusiya arasında sosial-iqtisadi əlaqələrin genişləndirilməsi imkanlarının birgə öyrənilməsinə şərait yaradacaq.

STM ilə Rosskonqress Fondu ictimai əhəmiyyətli tədbirlərin birgə təşkilini, təcrübə mübadiləsini, birgə tədqiqat işlərinin, maarifləndirici proqram və layihələrin reallaşdırılmasını da nəzərdə tuturlar.

Ümumilikdə, imzalanmış memorandum Azərbaycan və Rusiyanın beynəlxalq əməkdaşlığının konsepsiya əsaslarının zənginləşdirilməsinə xidmət edəcək.






## 22.12.2021

2021-ci il dekabrın 22-də keçirilən tədbirdə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Sosial Tədqiqatlar Mərkəzinin həyata keçirdiyi sosioloji sorğu və tədqiqat layihəsinin nəticələri açıqlanıb.

"Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" ictimai rəy sorğusu və sosioloji tədqiqatın nəticələrinə dair konfransda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, Milli Məclisin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü açan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, Mərkəz ictimai həyatın müxtəlif sahələri ilə bağlı aktual məsələləri araşdırmağa, tədqiqatlar aparmağa, gəldiyi nəticələri hakimiyyət institutlarına və cəmiyyətə çatdırmağa çalışır. Qeyd edilib ki, bu gün ailə institutu, milli dəyərlər sistemi fasiləsiz olaraq xarici təsirlərə məruz qalır. Ailə bizim varlığımızı hədəfə alan qlobal hücumlara qarşı qorunmalı olan ən müqəddəs ictimai strukturdur. Bütün alternativlərə qarşı hörmət, sevgi, anlayış kimi ən gözəl davranışların sərgiləndiyi ailə nümunələrinin, obrazlarının ictimailəşdirilməsi, qalib Azərbaycan ailələrinin kütləvi təbliği, bizi zirvələrə ucaldan qəhrəmanları yetişdirən valideynlərin, ailə tərbiyəsinin, mühitinin və təliminin ideallaşdırılması mühüm milli vəzifədir.

Sonra tədbirdə Azərbaycanda ailə münasibətlərinə dair videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, möhkəm təməllərlə qurulan ailələr bir qayda olaraq dövlətin güclü əsası rolunu oynayır. Ailə institutu dəyişən dünyanın lokal, qlobal təsirlərindən özünü qorumalıdır. Dünyada inkişafın və tənəzzülün səbəbi insan amili ilə bağlıdır. Bütün bunların faydası və ziyanları da insana birbaşa təsir edir. Demokratik dövlətlərin formalaşdırdığı modellər ailəni dünyanın regional və qlobal təsirlərindən qorumalıdır. Biz də bu yöndə inkişaf edən ailə modelləri üzərində işləməliyik ki, dəyişən dünyanın




problemlərinin təsirini minimuma endirmək mümkün olsun.

Sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bir neçə vacib məqama toxunaraq deyib: "Bu il təyin edilmiş 400 min sosial müavinətin 30 faizi aztəminatlı ailələrin payına düşür. Əlli mindən çox aztəminatlı ailə isə sosial müavinətlər alır. Bu da təxminən 200 min insan edir. Bunların yarıdan çoxu qadınlar və uşaqlardır.

Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda iqtisadi-sosial islahatlar davam etdirilir. İlk növbədə isə ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində işlər görülür. Bu da ailə münasibətlərinə müsbət təsir edən amillərdəndir. Buraya məşğulluq xidmətləri və sosial ödənişlər də daxildir. Növbəti illər üçün sırf sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası ilə bağlı yeni sənəd hazırlanıb. Bu, Milli Fəaliyyət Planıdır və növbəti 6 ildə icra olunacaq.

"Digər layihə isə övladlığa götürmə, valideyn himayəsindən məhrum olan uşaqlarla bağlıdır. 106 uşaq yeni ailələrə verilib. Ailələrin qiymətləndirilməsində elektron platformadan istifadə edilib.

Növbəti layihə himayədar ailə layihəsidir. Bu da uşaqların cəmiyyətə inteqrasiyası üçün vacibdir".

Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov çıxışında deyib: "Mediasiya Şurasına indiyədək 9550 müraciət daxil olub. Bu müraciətlərdən 8515-i ailə mübahisələridir. Ümumi müraciətlərin 80 faizi ailə mübahisələri ilə bağlıdır. Bizim əsas məqsədimiz ailələri barışığa dəvət etməkdir".

Daha sonra çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova bildirib ki, "Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" sorğusu ölkəmizdə ilk dəfə keçirilir və bu, bizim ailə barədə fikirlərimizi zənginləşdirəcək. Azərbaycan ailəsi onu hansı təhdidlərin müşayiət etdiyini biləcək. Bizim gənclərin ailə haqqında nə düşündükləri, onları hansı problemlərin gözlədiyi sorğuda müəyyən dərəcədə əhatə olunub.

O qeyd edib ki, digər aspektdən baxsaq, ailələr qlobal səviyyədə problemlərlə üzləşirlər. Dünyada qəbul olunan faktdır ki, ailə transformasiyadan keçir. Bu, hər zaman belə olub. Bəziləri hesab edirlər ki, ailə sistemi böhranlarla üz-üzədir. Ailə institutunda problemdən çıxmaq çətindir. Biz hazırda ailələrin problemlərin hansı hissəsində olduğunu sor-




ğu nəticəsində qlobal aspektdən görəcəyik. Hər bir dövlət güclü ailənin formalaşmasında maraqlıdır. Bu da ailə dəyərlərinin qorunmasının zəruri olmasının göstəricisidir.

Çıxışlardan sonra Sosial Tədqiqatlar Mərkəzinin apardığı sorğunun nəticələri təqdim olunub.

Qeyd edək ki, sorğu son illərdə Azərbaycan ailəsinin, ailədaxili münasibətlərin, ailə dəyərlərinin dinamikası və transformasiyasının qarşılıqlı təsir və əlaqədə araşdırılması, ailə məsələlərində ümumi mənzərənin, eləcə də dövlət ailə siyasətinin sistemli təqdim edilməsi aspektində demək olar ilk dəfə aparılıb.

## 24.12.2021

STM-in 2021-ci ildə sonuncu tədbiri “İnam indeksi” hesabatının VI buraxılışının təqdimatına həsr olunub. “Prezident: Zəfərə davam, Zəfərə inam!” şüarı altında keçirilən təqdimatda Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc deyib ki, “İnam indeksi/06” sosioloji tədqiqatda Azərbaycan Prezidentinin 2021-ci ilin ikinci yarısı üzrə siyasi, hərbi və diplomatik, sosial və mədəni sahələrdə, informasiya cəbhəsində çoxşaxəli və olduqca zəngin fəaliyyəti vətəndaşlarımızın rəyində əks etdirilib. Rəy sorğusu dövlətçilik tariximizdə ilk dəfə qədəm qoyduğumuz Zəfərin bir illiyi kimi misilsiz salnamənin yazıldığı ili, azad Qarabağda möhtəşəm bərpa və quruculuq mərhələsini əhatə edir.

Sonra “Prezident İlham Əliyevin fəaliyyəti ictimai rəydə - İnam indeksi” adlı videoçarx nümayiş etdirilib.

Təqdimat mərasimində çıxış edən Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubov bildirib ki, atasının didərgin düşdüyü Qubadlı rayonunda Prezident İlham Əliyevlə görüşüb və ürək sözlərini dövlətimizin başçısına çat-




dırıb. V.Yaqubov Vətən müharibəsinin tariximizi dəyişdirdiyini, kədərli işğal tarixlərinin qürurlu azadedilmə günləri ilə əvəzləndiyini diqqətə çatdırıb. Qeyd edib ki, Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusu öz qanı, canı ilə tarixi yenidən yazıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış edərək işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri haqqında məlumat verib. Xüsusi nümayəndə bildirib: “Dədə-baba yurdlarından ayrı düşmüş soydaşlarımızı geri qaytarmağa çalışırıq. Bu, bizim şəhidlər, qəhrəmanlar qarşısında borcumuzdur. Bu il ərzində dünyanı heyrətə gətirən layihələr icra olunub. Onlardan ən diqqətçəkənlərdən biri Füzuli Beynəlxalq Hava Limanının tikilməsidir. Bundan əlavə, azad olunmuş ərazilərdə yol-kommunikasiya, su xətləri, elektrik sistemləri çəkilib. Qarabağda genişmiqyaslı minatəmizləmə işləri aparılır. Dövlətin bütün qurumları əlaqəli şəkildə fəaliyyət göstərərək 11 istiqamətdə quruculuq-abadlıq işləri aparılır. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilir”.

İqtisadi rayonların təsdiqlənməsinin çox önəmli addım olduğunu və ölkədə balanslaşdırma yaratdığını bildirən E.Hüseynov işğaldan azad olunmuş ərazilərin iki iqtisadi rayona bölünməsinin görüləcək işləri daha da asanlaşdırdığını qeyd edib.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Prezident İlham Əliyevin hakimiyyətə gəlməsindən etibarən davamlı olaraq yüksək reytinqini qoruyub saxlayan liderlərdən biri olduğunu, türk dünyası və müsəlman aləmində xüsusi yer tutduğunu diqqətə çatdırıb. O, dövlətimizin başçısının apardığı siyasət, həssas təbəqələrə xüsusi qayğısı, sadəliyi, səmimiliyi ilə xalqın sevgisini qazandığını, atdığı qətiyyətli addımlarla ona olan inamı möhkəmləndirdiyini bildirib. Əli Hüseynli qeyd edib ki, həm Ulu öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin dövründə Azərbaycan xalqı işğal altında olan torpaqların azad ediləcəyinə əmin idi. Bu inam ötən il 44 günlük Vətən müharibəsində özünü doğrultdu. Qarabağ azad olunandan sonra müsəlman və türk xalqları Prezident İlham Əliyevlə fəxr etməyə başladılar. Qazanılan Zəfər ölkəmizin nüfuzunu bir qədər də artırdı, regiondakı vəziyyəti xeyrimizə dəyişdi. Bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımızı və ölkəmizi parlaq gələcək, tərəqqi və davamlı inkişaf gözləyir.

Qeyd edək ki, rəy sorğusu təqvim etibarilə mühüm tarixi məqama, postmüharibə dövrünə, Qarabağın bərpa və quruculuq mərhələsinə təsadüf edir. Sorğu Naxçıvan Muxtar Respublikası və azad edilmiş ərazilər istisna olmaqla bütün regionları əhatə edib. 1162 respondentin rəyi öyrənilib.

Keçirilən əvvəlki sorğuların və cari sorğunun nəticələrinin təhlili Prezident amilinin Azərbaycan cəmiyyətində, ictimai təfəkkürdə ümummilli maraqlar baxımından birləşdirici, uzlaşdırıcı əsas güc mərkəzi olduğunu göstərir.

Postmüharibə dövrünün ilk ili kimi xarakterizə edilən 2021-ci il dövlət başçısının fəaliyyətində, həmişə olduğu kimi, öz dinamikliyi və aktivliyi ilə xarakterikdir.

Sorğuda iştirak edən vətəndaşların Prezidentə inam və etimadı 91,2 faiz tam etibar edirəm, 6,9 faiz əsasən etibar edirəm olmaqla yüksək səciyyələnir.

## 21.01.2022

2022-ci ilin yanvarın 21-də Heydər Əliyev Mərkəzində 44 günlük Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunmuş zefer.az saytının təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin baş məsləhətçisi Humay Qasımovanın moderatorluğu ilə keçirilən tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, ictimaiyyət və media təmsilçiləri iştirak ediblər.

Əvvəlcə “zefer.az” saytına həsr olunmuş videoçarx nümayiş edilib.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova xalqımızın Zəfər salnaməsinin yaddaşlara köçürülməsi, Zəfərin tarixi yaddaş baxımından mühüm əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə “Zəfər” saytının, bundan əvvəl isə şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün “memorial.az” saytının yaradıldığını bildirib. O, Azərbaycan xalqının 30 il hazırlaşdığı və 44 gün ərzində keçdiyi Zəfər yolunun virtual salnaməsi-ensiklopediyası olan “zəfər.az” saytının ideya və məqsədlərindən danışıb.

Saytın loqosunun üç elementi əhatə etdiyini bildirən Səadət Yusifova onların birləşərək xalqımızın 44 gündə keçdiyi Zəfər yolunu simvolizə etdiyini deyib. Qeyd edib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış bu tarixi Zəfər hər birimizin qələbəsi, vahid ideya, amal uğrunda dəmir yumruq kimi birləşmiş Azərbaycan xalqının milli qürurunun, mübarizəsinin, əzmkarlığının




canlı dastanıdır. Vətən müharibəsindəki Zəfərimiz müasir Azərbaycanın milli kimliyini formalaşdıran başlıca amilə çevrilir. Tarixi ədalət, beynəlxalq hüquq, ərazi bütövlüyü və milli ləyaqətimizin bərpası təkcə Azərbaycanın milli ruhunun qələbəsi deyil, həm də son iki əsrdə beyinlərə yeridilmiş komplekslərin tamamilə dağıdılması, xalqımızın özünə inamını bərpa edən, onu özgüvənli millətə çevirən və yaxın 50-100 ildə istinad nöqtəsi olacaq yeni mənəvi dönüş nöqtəsidir.

Səadət Yusifova qeyd edib ki, Zəfər - qalib ölkənin və xalqın yeni matrisasının, ideoloji bazisinin təməl daşı olmaqla, xalqımız və dövlətimiz qarşısında yeni hədəflər qoyur. Eyni zamanda, Azərbaycanın iqtisadi, texnoloji, hərbi, siyasi, mənəvi, diplomatik, informasiya gücünü bütün dünyaya nümayiş etdirir. Bu Qələbə münaqişəyə son qoyaraq yeni reallıq yaratmaqla yanaşı, həm də bütövlükdə regionumuzda sülh, təhlükəsizlik, əmin-amanlıq, əməkdaşlıq və inkişaf üçün yeni perspektivlər açır. Zəfə-




rimizi, əslində, XXI əsrdə dünya xalqlarının müasir beynəlxalq münasibətlər sistemində mövcud olan ədalətsizliyə qarşı ucalan ilk belə səsi, formalaşan yeni dünya quruluşunun görünən ilkin cizgiləri hesab etmək olar.

"Zəfərimizin hərbi, siyasi-diplomatik nəticələri ilə yanaşı, mühüm iqtisadi nəticələri də var. "3+3" formatında kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması Azərbaycanın açıq dənizlərə çıxışını təmin edəcək, Naxçıvanla nəqliyyat əlaqələrinin bərpası türk dünyasını birləşdirəcək və nəticədə ölkəmizin regional perspektivlərini və meqa-regionda əhəmiyyətini yaxın onilliklər üçün daha da artıracaq. Yaranmaqda olan yeni regional dəhlizlər şəbəkəsi sülhün qarantı olmaqla, Azərbaycanın bu sahədəki imkanlarını şaxələndirməyə imkan verəcək, iqtisadi gücünü, ölkəmizin tranzit potensialını əhəmiyyətli dərəcədə yüksəldəcək, regionun geoiqtisadi xəritəsini dəyişəcək. Bu fundamental dəyişikliklər ölkəmizin yeni inkişaf paradiqmasını şərtləndirir. Qalib dövlətin dəyişən dünyanın bütün çağırışlarına hazır olması, qalib xalqın köhnə-yeni coğrafiyada yenidən özünə baxışı və yeni ideoloji əsaslarının müəyyən edilməsi, Vətən müharibəsinin və onun nəticələrinin doğurduğu özgüvənin kapitalizasiyası, başqa sözlə, regionda və dünyada mövqeyimizin möhkəmləndirilməsi, sadəcə, dünya nizamına yazılmaq deyil, dünya qaydalarını yazmaq imkanlarına əlçatanlığın təmin edilməsi hazırda və yaxın gələcəkdə bizim üçün önəm kəsb edəcək", - deyə Prezident Administrasiyasının şöbə müdirinin müavini söyləyib.

Azərbaycan xalqının yazdığı bu Zəfər salnaməsini tarixin heç vaxt unutmayacağını vurğulayan S.Yusifova bildirib ki, bizim üzərimizə düşən missiya bu salnaməni yazıya və lentə almaqla gələcək nəsillərə çatdırmaq, hər şeyi ilkin mənbədən, olduğu kimi, təhrif edilmədən dünyaya çatdırmaqdır. Ensiklopedik formatda, 3 dildə fəaliyyəti nəzərdə tutulan "Zəfər" portalının missiyası məhz buna hədəflənib.

Tədbirdə çıxış edən Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, Milli Məclisin komitə sədri Zahid Oruc bildirib ki, dünyanın ictimai-siyasi, hərbi-təhlükəsizlik həyatında daşıdığı əhəmiyyətə və uzun əsrlər boyu iki xalq arasında gedən qanlı müharibələr tarixində bənzərsiz dönüş nöqtəsi olduğuna görə 44 günlük müharibə XXI əsrin ən böyük hadisəsidir. 2020-ci il noyabrın 10-dan ötən hər gün Azərbaycan xalqının qazandığı Qələbənin əzəmətini göstərir. İndi dünya xalqları arasında həm genetik, həm informativ, həm də mədəni mübadilə gedir, bütün dünya bir-birindən nəyisə öyrənir. Lakin azadlığı, evi, ocağı uğrunda əsrlərlə vuruşub, nəhayət, 2020-ci il noyabrın 10-da qalib gələn bir millətin Zəfərə gedən yolu dünya millətləri tərəfindən mütləq öyrəniləcəkdir. Necə oldu ki, yüz minlərlə valideyn, on




minlərlə oğul, onlarla xalqın nümayəndəsi tək bir məqsəd naminə özlərini qurban verdilər? Məhz bu xarakteri dünya xalqları azərbaycanlılardan əxz edə bilər. Bundan sonra Azərbaycan həmişə Şuşanı geri qaytaran parlaq hərbi əməliyyatla tanınacaq.

Milli Məclisin deputatı diqqətə çatdırıb ki, Vətən müharibəsindən sonra formalaşmaqda olan yeni regional arxitektura, xüsusilə erməni-türk düşmənçiliyinin aradan qalxması üçün prosesin başlanması, Azərbaycanın Naxçıvanla coğrafi birliyinin perspektivi də məhz hərbi Qələbənin nəticəsidir. Artıq hamı yeni reallığı dərk edir. Dünyada və keçmiş sovet məkanında hər gün artan təhlükəsizlik riskləri fonunda Cənubi Qafqazın təhlükəsiz gələcəyini formalaşdıran Lider İlham Əliyevdir. Ona görə Şuşa hər yerdə əzilən, işğala məruz qalan xalqlar üçün inam simvoludur. Bakı təkcə bir ölkənin deyil, regionun və beynəlxalq siyasətin paytaxtıdır.

Daha sonra "azvision.az" saytının baş redaktorunun müavini Səbinə Həsənova "zefer.az" saytını təqdim edib. Qeyd edib ki, saytın ideyası və konsepsiyası Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məxsusdur. Dizayn və proqramlaşdırma işləri "Webcoder" şirkəti, məzmun hissəsinin hazırlanması və sayta doldurulması "Azvizion" şirkəti tərəfindən həyata keçirilib. Ümumilikdə 12 bölmə, 62 alt-bölmə üzrə 4000 səhifə, 7765 şəkil və 757 videodan ibarət olan sayt Azərbaycanın 44 günlük Vətən müharibəsinin virtual salnaməsidir, həmin günlər ərzində hərbi, siyasi-diplomatik, informasiya və ictimai müstəvilərdə baş verən bütün əsas hadisələri əhatə edir. Sayt ensiklopedik formatda hazırlanıb, Vətən müharibəsi və Böyük Qayıdışla bağlı məlumatları özündə əks etdirir. İlkin olaraq Azərbaycan dilində yaradılan saytın ingilis və rus dillərində versiyalarının hazırlanması da nəzərdə tutulur.

Tədbirdə çıxış edən Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, Vətən müharibəsi qazisi Vasif Dilavərzadə müharibənin itkisiz, ağrısız, zəhmətsiz olmadığını bildirərək deyib: "44 günlük döyüşlərdə xüsusilə fərqlənən xüsusi təyinatlılar bunun üçün illərlə böyük fədakarlıqlar göstərib, işinə, xidmətə məsuliyyətlə yanaşıb və vicdanla çalışıbar. İkinci Qarabağ müharibəsində bütün dünya Azərbaycan xalqının əzmini, Ordumuzun döyüş qabiliyyətini gördü, vətənpərvər azərbaycanlıların milli birliyinin, öz Ali Baş Komandanını dəstəklədiyinin və onun ətrafında sıx birləşdiyinin şahidi oldu".

Qeyd edək ki, təqdimatın keçirilməsinə Heydər Əliyev Mərkəzi, Sosial Tədqiqatlar Mərkəzi və Medianın İnkişafı Agentliyi tərəfindən dəstək verilib.

## Planlar/Hədəflər

Adətən, keçilmiş yol, əldə edilmiş uğurlar və qarşıya çıxan çətinliklər gələcək hədəflərin müəyyənləşdirilməsi və fəaliyyət planlarının, strategiyaların qurulması üçün gözəl bir təcrübə sayılır. Bu hesabatda Sosial Tədqiqatlar Mərkəzinin 3 illik fəaliyyətinin əsas məqamlarını əhatə etməyə çalışdıq. Fəaliyyətimizə qiyməti bizə etibar edənlər və izləyənlər verə bilər.

Çalışdıq ki, həm ölkənin ali rəhbərliyi, həm də ictimaiyyət tərəfindən bizə göstərilən etimadı doğrulda bilək. Dövlət və cəmiyyət arasındakı körpü rolunu layaqət və vicdanla yerinə yetirək.

Nizamnaməmizdən və elmi fəaliyyət planlarımızdan irəli gələn gələcək üçün planlarımız, hədəflərimiz isə çoxdur. Biz çalışacağıq ki, üç illik fəaliyyət təcrübəmizə əsaslanmaqla:

❑ Azərbaycan Respublikasında sosial tədqiqat, təhlil və proqnozlaşdırma işi ilə, habelə ictimai rəyin öyrənilməsi ilə bağlı siyasətin formalaşdırılmasında və həyata keçirilməsində daha yaxından iştirak edək.

❑ Dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını təhlil edərək, proaktiv yanaşma əsasında müasir informasiya texnologiyaları və innovativ üsullar vasitəsilə rəy sorğularını daha sistemli və geniş coğrafiyada həyata keçirək, ictimai fikri daha dərindən öyrənək, təhlil edək və aidiyyəti qurumlara tövsiyə sənədləri və təkliflər verək, fəaliyyət istiqamətlərimizə uyğun elmi araşdırmalar aparaq və bu sahədə dövlət orqanları (qurumları) ilə daha sıx əməkdaşlıq edək;

❑ Sosialyönümlü innovativ həll üsulları, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə, habelə internet informasiya resurslarında, sosial şəbəkələrdə aparılan çoxşaxəli fəaliyyətlə cəmiyyət-dövlət təmaslarını gücləndirməyə və inkişaf etdirməyə çalışaq.

❑ İdarəetmə prosesinin təkmilləşdirilməsi, aparılan islahatların səmərəliliyinin artırılması məqsədilə, habelə verilən qərarların, görülən tədbirlərin mümkün təsirlərinə dair sosial tədqiqatlar aparaq.

❑ İctimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı davam etdirək, geniş müzakirə platformaları quraq və onları idarə edək.

❑ Beynəlxalq əlaqələrimizi daha da inkişaf etdirək, yeni tərəfdaşlar qazanaq, regional və qlobal çərçivədə öz sözümüzü deməyə çalışaq.

❑ Vətən müharibəsində Zəfər çalmış, regionda yeni reallıqlar yaratmış Azərbaycanla bağlı yeni baxışların formalaşmasına çalışaq.

❑ Əməkdaşlarımızın öz bilik və bacarıqlarının artırılması, kadr potensialımızın zənginləşdirilməsi üçün tərəfdaşlarımızla elmi mübadilə prosesinin aparılması, təcrübə və biliklərimizin bölüşdürülməsi, birgə tədbirlərin, sorğuların keçirilməsi, tədqiqatların aparılması, fəaliyyətimizin coğrafiyasının genişləndirilməsinə çalışaq.

❑ Nəhayət, həfəmiz Azərbaycanın, həmçinin dünyanın aparıcı sosial tədqiqat mərkəzlərindən birinə çevrilməkdir.

STM-in kollektivi 3 illik fəaliyyəti dövründə bu uğurları öz binasından kənarda qazanıb. İnanırıq ki, yeni ildən fəaliyyətimizi öz binamızda davam etdirmək imkanına sahib olmaq bizə əlavə stimul və güc verəcək.

**Rəyiniz işimizdir!**



SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az     www.stm.az